RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 104 (9559) 19 may 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Şərqi Zəngəzurun yeni növrağı

## Prezident İlham Əliyev Cəbrayıl və Zəngilan rayonlarına səfər edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Cəbrayıl rayonuna səfər edib. Dövlət başçısı Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndinin təməlqoyma mərasimində iştirak edib. Prezident İlham Əliyev Cəbrayıl rayonunun Karxulu kəndinin təməlinin qoyulması mərasimində iştirak etdikdən sonra elə həmin gün Cəbrayıl rayonunun Sarıcallı kəndinin təməlini qoyub. Dövlət başçısı İlham Əliyev həmçinin Cəbrayıl rayonunun Maşanlı kəndinin təməlini qoyub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunun Ağalı kəndində "Ağalı" hotelinin açılışında iştirak ediblər. Prezident İlham Əliyev Zəngilan rayonunun Mincivan qəsəbəsinin təməlini qoyduqdan sonra "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin "Zəngilan" və "Şayıflı" Su-Elektrik stansiyalarının açılışlarını edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmçinin Zəngilan məscidinin açılışında iştirak ediblər. Prezident İlham Əliyev eyni zamanda Zəngilan şəhərinin daxili yol-kommunikasiya şəbəkəsinin təməlini qoyub.

2-4




# Zaman İlham Əliyevi seçib

## Aleksandr Lukaşenko Azərbaycan Prezidentinin əsl lider kimi Qafqaz üçün də məsuliyyət daşıdığını bəyan etdi

Belarus Prezidenti Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması prosesinin o qədər də asan məsələ olmadığını söyləyərək dedi ki, artıq dirçəliş dövrüdür və qardaş Azərbaycan xalqına bu ağır dirçəliş dövrünü itkilərsiz başa vurmağı və qarşıya qoyulan planları yerinə yetirməyi arzu edir: "Əminəm ki, Siz bunu edəcəksiniz, həm də istərdim ki, tez edəsiniz, Siz bunu bacarırsınız. Siz bütün dünyaya göstərdiniz ki, Sizdən əvvəlki nəsillərin dövründə həll olunmayan ən mürəkkəb məsələləri həll etməyi bacarırsınız".

Qarabağa səfər, Füzulidə, Şuşada erməni barbarlığına şahidlik, baş planlara əsasən Füzuli və Şuşa şəhərlərində görülən möhtəşəm quruculuq işləri yəqin ki, Aleksandr Lukaşenkonu həm kədərləndirdi, həm də qürurlandırdı. Cəmi 3,5 ilə Azərbaycan Prezidentinin reallaşdırdığı layihələri canlı görmək və bütün yeni infrastrukturla tanış olmaq Aleksandr Lukaşenkoda son dərəcə pozitiv əhavali-ruhiyyə yaratdı. Bu, onun bir gün öncə mətbuata bəyanatında İlham Əliyev haqqında söylədiyi dəyərli fikirlərini bir daha təsdiq etdi.

Bu səfər zamanı maraqlı məqamlardan biri də dost ölkənin Qarabağda yaşayış məntəqəsi salmağı planlaşdırması barədə xəbər oldu. Belarusun memarlıq və tikinti naziri Ruslan Parxamoviç Şuşada jurnalistlərə açıqlamasında dedi ki, yaşayış məntəqəsi Ağdam rayonunda salınacaq. Bura 420 ailə üçün nəzərdə tutulub. Onun arxitekturasında Belarus koloritindən istifadə ediləcək.

İşğal zamanı Azərbaycanın ərazi bütövlüyünü hər zaman dəstəkləyən Belarus quruculuq dövründə də Azərbaycana öz sayğısını nümayiş etdirir. Bu, dost qayğısının təzahürüdür, bu, iki ölkə arasında möhkəm bağların, gündən-günə güclənən əməkdaşlığın bariz təcəssümüdür.

Ümumiyyətlə, ali qonaqların Qarabağa səfərləri artıq ənənə halını alıb. Bu, qonaqlara işğalçının törətdiyi vandalizm aktlarını, Azərbaycan dövlətinin quruculuq siyasətini və sülh gündəliyini nümayiş etdirmək imkanı verir.

6

# Birinci xanım Mehriban Əliyeva instaqram hesabında Zəngilan səfəri ilə bağlı paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva instaqram sosial şəbəkəsindəki hesabında Zəngilan səfəri ilə bağlı paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir.



# "Yaşıl enerji"yə keçidlə bağlı dövlətimizin strateji hədəfləri var

Azərbaycan belə bir mühüm qlobal tədbirə evsahibliyi ilə beynəlxalq nüfuzunu və ekoloji gündəliyə sadiqliyini nümayiş etdirmiş olur, bununla dünya arenasında fəal və nüfuzlu oyunçu rolunu daha da gücləndirir. COP29-a evsahibliyi eyni zamanda Vətən müharibəsindəki tarixi zəfərimizdən, Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasından sonra regionda yaranmış yeni reallıqların bölgəmiz üçün yaratdığı inkişaf perspektivlərinə işıq salır. Ərazi bütövlüyümüzün bərpasından sonra dövlətimizin ən böyük hədəfi insanların rifahı, regionda əbədi sülhün, sabitliyin, dayanıqlı inkişafın, qarşılıqlı faydalı əməkdaşlığın təmin olunmasıdır. Azərbaycan Cənubi Qafqazın timsalında bütün insanların hüzur və xoşbəxtlik içində yaşadıqları inkişaf cənnətinin yaradılmasını istəyir və bunun üçün çalışıb ardıcıl addımlar atır.

Bölgəmizin gələcək inkişafında bu regionun yaşıl əraziyə çevrilməsi çox mühümdür. Torpaqlarımızın təxminən 30 ilə yaxın sürən işğalı dövründə ermənilər həyata keçirdikləri dağıdıcılıq əməlləri ilə o torpaqları "boz zona"ya çevirmişlər. İşğal altındakı ərazilərimizdə Azərbaycanın zəngin flora və faunası məhv edilmişdi. Eləcə də tarixi-mədəni irsimiz vandalcasına dağıdılmışdı. Bu gün Azərbaycan azad yurdlarımızı yenidən qurub həyata qaytarır, dağıdılmış ərazilərimizin yenidən dirçəlişini təmin edir. Vaxtilə ermənilərin "boz zona"ya çevirdikləri əraziləri yaşıl zonaya çevirmək niyyətində olan və bu niyyəti addım-addım gerçəkləşdirən Azərbaycan üçün COP29-a evsahibliyi həm yeni tarixi reallıqları və gələcək perspektivləri dünya ictimaiyyətinə göstərmək, həm də əldə edilmiş təcrübəni əyani şəkildə bölüşmək baxımından önəmlidir. Özünün əsas məqsədləri, gündəliyi ilə yanaşı, COP29 həm də Azərbaycanı dünyaya daha yaxından tanıdacaq.

8

◆ Prezident İlham Əliyevin Cəbrayıl və Zəngilan rayonlarına səfəri

# Şərqi Zəngəzurun yeni növrağı

## Cəbrayılın Böyük Mərcanlı kəndinin təməli qoyulub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Cəbrayıl rayonuna səfər edib.**



AZƏRTAC xəbər verir ki, dövlət başçısı Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndinin təməlqoyma mərasimində iştirak edib.

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlət başçısına kəndin baş planı üzrə görüləcək işlərlə bağlı məlumat verdi.

Bildirildi ki, Böyük Mərcanlı kəndi Araz vadisində, Cəbrayıl şəhərindən 22 kilometr məsafədə yerləşir. Cəbrayıl rayonunun ən iri yaşayış məntəqələrindən biridir.

Baş plana əsasən, kəndin ümumi sahəsi 362 hektar təşkil edir. 2040-cı ilədək 6230 nəfər əhali üçün 1074 fərdi ev və bir neçə mərtəbəli yaşayış binaları layihələndirilib. Burada inzibati bina, klub-icma mərkəzi, çoxfunksiyalı bina, idman və ailə-sağlamlıq mərkəzləri, mərasim evi, bazar kompleksi və digər qeyri-yaşayış obyektlərinin tikintisi nəzərdə tutulur. Həmçinin Böyük Mərcanlı kəndində əhalinin tələbatına uyğun olaraq iki məktəb və beş uşaq bağçası inşa olunacaq.

2026-cı ilədək dövrü əhatə edən "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na müvafiq olaraq, birinci mərhələdə layihələndirilən ərazinin sahəsi 41 hektardır. Bu mərhələdə Böyük Mərcanlıya 542 nəfərin köçürülməsi üçün 149 fərdi ev tikiləcək. İnşa ediləcək evlər iki, üç, dörd və beşotaqlı olacaq. Prezident İlham Əliyev Böyük Mərcanlı kəndinin təməlini qoydu.

## Yenidən salınacaq Karxulu kəndində birinci mərhələdə 145 fərdi ev tikiləcək

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Cəbrayıl rayonunun Karxulu kəndinin təməlinin qoyulması mərasimində iştirak edib.**



AZƏRTAC xəbər verir ki, dövlət başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, Cəbrayıl rayonunun inzibati ərazisinə daxil olan Karxulu kəndi şimaldan Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd avtomobil yolu, cənubdan və cənub-şərqdən Horadiz-Ağbənd dəmir yolu xətti ilə əhatə olunub.

2040-cı ilədək kəndin layihələndirilən ərazisi 313 hektar təşkil edir və bu müddət ərzində kənddə 4428 sakin üçün 940 fərdi ev və bir neçə mərtəbəli bloklu evlərin layihələndirilməsi, eləcə də tikintisi nəzərdə tutulur.

Kənddə inzibati bina, klub-icma, ailə və idman sağlamlıq mərkəzləri, ticarət və məişət xidməti binası, kiçik sahibkarlıq obyektləri inşa olunacaq. Bundan başqa, baş plana müvafiq olaraq, kənddə əhalinin tələbatına uyğun iki tam orta məktəb və dörd uşaq bağçası tikiləcək.

2026-cı ilədək dövrü əhatə edən "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na müvafiq olaraq, birinci mərhələdə layihələndirilən ərazinin sahəsi isə 125 hektardır. Bu mərhələdə 691 sakin üçün 145 fərdi evin layihələndirilməsi və tikintisi nəzərdə tutulub. Qeyd edək ki, dövlət başçısının tapşırıqlarına əsasən, bütün işlər ən yüksək səviyyədə yerinə yetiriləcək.

Prezident İlham Əliyev Karxulu kəndinin təməlini qoydu.

## Təməli qoyulan Maşanlı kəndində birinci mərhələdə minə yaxın sakin məskunlaşdırılacaq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Cəbrayıl rayonunun Maşanlı kəndinin təməlini qoyub.**



AZƏRTAC xəbər verir ki, dövlət başçısına kəndin baş planı üzrə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, 2040-cı ilədək kəndin layihələndirilən ərazisi 157,54 hektar olacaq. Həmin müddətdə kənddə 2360 sakin üçün 590 fərdi evin layihələndirilməsi, eləcə də tikintisi nəzərdə tutulub.

Vurğulandı ki, kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Bu kənddə də inzibati bina, klub-icma, idman sağlamlıq mərkəzləri, həkim məntəqəsi, mərasim evi, bazar kompleksi, ticarət, ictimai-iaşə, kiçik sahibkarlıq obyektlərinin layihələndirilməsi planlaşdırılır. Bundan başqa, baş plana əsasən, kənddə tam orta məktəb üçün bina və iki uşaq bağçasının tikintisi nəzərdə tutulub.

"Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən burada məskunlaşacaq əhalinin yaşayış yükü nəzərə alınaraq, kəndin salınmasının birinci mərhələsi üçün 50 hektar yer ayrılıb. Bu mərhələdə 944 sakin üçün 236 fərdi ev tikiləcək.

Prezident İlham Əliyev Maşanlı kəndinin təməlini qoydu.

## Prezident İlham Əliyev Cəbrayılın Sarıcallı kəndinin təməlqoyma mərasimində iştirak edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Cəbrayıl rayonunun Sarıcallı kəndinin təməlini qoyub.**



AZƏRTAC xəbər verir ki, dövlət başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, Cəbrayıl rayonunun Sarıcallı kəndi şimaldan yeni salınan Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd avtomobil yolu, şimal-şərqdən Şükürbəyli kəndi, cənubdan və cənub-şərqdən Horadiz-Ağbənd dəmir yolu xətti, cənub-qərbdən və qərbdən Soltanlı kəndi ilə əhatə olunub.

Qeyd olundu ki, baş planda kəndin ümumi sahəsi 330 hektar təşkil edir. 2040-cı ilədək 4740 nəfər əhali üçün 1185 fərdi evin və bir neçə mərtəbəli bloklu binaların layihələndirilməsi nəzərdə tutulur. Burada inzibati bina, klub-icma, ailə və idman sağlamlıq mərkəzləri, ticarət və məişət xidməti binası, yanğınsöndürmə deposu, aqrotexniki park, mərasim evi, kənd bazarı, kiçik sahibkarlıq obyektləri tikiləcək. Bundan başqa, əhalinin tələbatına uyğun iki tam orta məktəb və 4 uşaq bağçasının layihələndirilməsi də nəzərdə tutulur. Ümumiyyətlə, bu yaşayış məntəqəsində əhalinin məşğulluğunun təmin edilməsi də diqqət mərkəzində olacaq.

2026-cı ilədək dövrü əhatə edən "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na müvafiq olaraq, birinci mərhələdə layihələndirilən ərazinin sahəsi isə 104 hektardır. Bu mərhələdə kəndə 1016 sakinin köçürülməsi üçün 242 fərdi ev inşa olunacaq.

Prezident İlham Əliyev Sarıcallı kəndinin təməlini qoydu.

## Dövlət başçısına Mincivan qəsəbəsində görüləcək işlərlə bağlı məlumat verilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Zəngilan rayonunun Mincivan qəsəbəsinin təməlini qoyub.**





AZƏRTAC xəbər verir ki, dövlət başçısına qəsəbənin baş planı üzrə görüləcək işlərlə bağlı məlumat verildi.

Bildirildi ki, layihələndirilən ərazi rayon mərkəzindən 13,2 kilometr cənub-şərq istiqamətində, Araz çayının sahilində - respublika əhəmiyyətli Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd yolu və Horadiz-Ağbənd dəmir yolu xətti üzərində yerləşir.

Qəsəbənin sahəsi 301,51 hektardır. 2040-cı ilədək qəsəbədə 9088 nəfər üçün 630 fərdi ev və bir neçə mərtəbəli yaşayış binalarının tikilməsi nəzərdə tutulub. Mincivan qəsəbəsində yaşayacaq əhalinin məşğulluğunun təmin olunması məqsədilə idarəetmə, mədəniyyət və əyləncə, iqtisadi inkişaf obyektləri, xidmət və kommersiya müəssisələri yaradılacaq. Belə ki, qəsəbədə inzibati bina, mədəniyyət mərkəzi, kitabxana və çoxfunksiyalı bina, restoran, idman-sağlamlıq, ailə-sağlamlıq mərkəzləri, hotel, Bayraq meydanı, ticarət, məişət və baytarlıq xidmətləri obyektləri, mebel mağazası, mərasim evi, yanğın deposu, bazar kompleksi, emalatxana və satış köşklərinin yaradılması nəzərdə tutulub. Mincivan qəsəbəsində tam orta məktəb, uşaq bağçası, poliklinika, avtovağzal binası, yanacaqdoldurma məntəqəsi, anbar və logistika binaları, ağac emalı və mebel sexləri, digər istehsalat müəssisələri də inşa olunacaq.

"Böyük Qayıdışa dair I Dövlət Proqramı"na müvafiq olaraq, birinci mərhələ üçün layihələndirilən ərazinin sahəsi 153,4 hektardır. Bu mərhələdə Mincivan qəsəbəsinə 3146 nəfərin köçürülməsi üçün 628 fərdi ev və 92 mənzildən ibarət bir neçə mərtəbəli dörd yaşayış binasının tikintisi nəzərdə tutulur.

Prezident İlham Əliyev Mincivan qəsəbəsinin təməlini qoydu.

◆ **Prezident İlham Əliyevin Cəbrayıl və Zəngilan rayonlarına səfəri**

# Şərqi Zəngəzurun yeni növrağı

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda "Ağalı" hotelinin açılışında iştirak ediblər









**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 18-də Zəngilan rayonunun Ağalı kəndində "Ağalı" hotelinin açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev hoteldə yaradılan şərait barədə dövlət başçısına və birinci xanıma məlumat verdi.

Bildirildi ki, "Ağalı" hoteli Zəngilan şəhər mərkəzindən 20 kilometr məsafədə, Həkəri çayı vasitəsilə yaradılmış süni gölün sahilində yerləşir. Hotelin binası üç mərtəbədən ibarətdir. Birinci mərtəbədə qonaqları foye və rahat gözləmə zonası qarşılayır. Foyenin sağ və sol hissələrində restoranlar fəaliyyət göstərəcək. Birinci mərtəbənin sağ qanadında 60 nəfərlik tədbir otağı, həmçinin işgüzar görüşlər üçün 20 nəfərlik iclas zalı mövcuddur. Sol qanadda isə xüsusi qonaqların qarşılanması üçün tədbir zalı və 76 nəfərlik restoran var.

Hotelin ikinci və üçüncü mərtəbələri eyni tipli otaqlardan ibarətdir. Hər mərtəbədə 39 otaq var. Həmçinin hotelin hər mərtəbəsində fiziki məhdudiyyətli qonaqlar üçün xüsusi dizayn edilmiş otaqlar da mövcuddur. "Ağalı" hotelinin zirzəmi hissəsində qonaqların sağlamlıq və istirahətini təmin etmək məqsədilə fitnes mərkəzi yaradılıb.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərimiz tarixi-mədəni dəyərləri ilə yanaşı, füsunkar təbiətə, yeraltı və yerüstü sərvətlərə, geniş turizm imkanlarına malikdir. Bölgədə müalicəvi turizm, istirahət turizmi, ekoturizm və turizmin digər növlərinin inkişaf etdirilməsi üçün böyük imkanlar var. Bu ərazilərin turizm potensialının səmərəli istifadəsi, regionun rəqabət qabiliyyətli turizm məkanına çevrilməsi üçün geniş tədbirlər həyata keçirilir. Bu baxımdan Füzuli və Zəngilanda tikilən, Laçında tikintisi davam edən beynəlxalq hava limanları azad edilən ərazilərimizin turizm potensialının reallaşmasında, turistlərin cəlb olunmasında mühüm rol oynayacaq.





## "Zəngilan" və "Şayıflı" Su-Elektrik stansiyaları istifadəyə verilib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin "Zəngilan" və "Şayıflı" Su-Elektrik stansiyalarının açılışlarını edib.**

AZƏRTAC xəbər verir ki, "Azərenerji" ASC-nin prezidenti Baba Rzayev dövlət başçısına görülən işlər barədə məlumat verdi.

İşğaldan azad edilən ərazilərdə "yaşıl enerji" zonasının yaradılması, rayonların karbonsuz zonaya çevrilməsi ilə bağlı Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq "Azərenerji" ASC tərəfindən Oxçuçayın Zəngilan rayonunun ərazisindən keçən hissəsində hər birinin gücü 10,5 meqavat olmaqla dörd yerdə ümumi gücü 42 meqavat olan "Zəngilan" Su-Elektrik stansiyaları silsiləsi layihələndirilərək qısa vaxt ərzində tikilib. İşğaldan azad edilən ərazilərdə ən böyük silsilə su-elektrik stansiyası olan Zəngilan silsiləsindən "Cahangirbəyli" SES 2023-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə istismara verilib. "Şayıflı" və "Zəngilan" SES-lər açılışa hazır vəziyyətə gətirilib, "Sarıqışlaq" SES-də isə işlər başa çatdırılıb.

Bildirildi ki, Araz çayının sol qolu olan Oxçuçay üzərində inşa edilən SES-ləri su ilə təmin etmək üçün dəniz səviyyəsindən 600 metr yüksəklikdə baş suqəbuledici qurğu tikilib. Ümumi uzunluğu 83 kilometr olan və 36 kilometrlik hissəsi Ermənistan ərazisindən keçən çaya mütəmadi olaraq Qacaran, Zəngəzur mis-molibden, Qafan dağ-mədən kombinatlarının ağır metal tərkibli mədən tullantıları axıdılır. Bu amillərə görə Oxçuçayın üzərində baş suqəbuledicinin yaradılması enerji istehsalından əlavə, ekoloji cəhətdən olduqca əhəmiyyətli hadisədir. Belə ki, baş suqəbuledicinin tikilməsi ermənilər tərəfindən sənaye üsulunda çirkləndirilən çay yatağının təmizlənməsinə, flora və faunanın dirçəlməsinə yardım edəcək. Çünki suqəbuledicinin yaradılması çirkləndirici maddələrin çökməsinə şərait yaratmaqla yanaşı, aşağı axın zonasına təmiz suyun ötürülməsinə və çay ekosisteminin özünübərpasına zəmin yaradır. Eyni zamanda daşqınların qarşısının alınması və su itkisinə yol verilməməsi üçün suqəbuledicinin yaradılması olduqca əhəmiyyətli hadisədir. Ona görə də burada dib sutullayıcı, suaşıran, lil ötürücü və balıq vətəgə qurğuları yaradılıb. Baş suqəbuledicidən çıxan suyun 35 faizi çay məcrasında saxlanılaraq kaskad üsulla tikilən SES-lərə giriş-çıxış olmaqla ümumilikdə 23,5 kilometr məsafədə qoşa derivasiya boruları çəkilib və borudan çıxan su təkrar çaya buraxılır.

Qeyd edildi ki, Oxçuçay üzərindəki SES-lərin tikilməsi ilə bağlı Dövlət Ekoloji Ekspertiza Agentliyi tərəfindən aidiyyəti dövlət qurumlarının əməkdaşlarının, elm adamlarının, media və QHT-lərin nümayəndələrinin iştirakı ilə açıq ictimai dinləmələr keçirilib və layihəyə yüksək qiymət verilib.

Diqqətə çatdırıldı ki, hər birinin gücü 10,5 meqavat olmaqla ümumi gücü 21 meqavat olan "Zəngilan" və "Şayıflı" SES-lər üçün maşın zalları tikilib. Çətin iqlim və sərt relyefli ərazidə yerləşməsinə baxmayaraq, burada böyük həcmli torpaqlama, betonlama və digər işlər həyata keçirilərək sıfırdan yeni SES-lər tikilib. İstər derivasiya boruları çəkilərkən, istər maşın zalı tikilərkən, istərsə də digər quraşdırma işləri aparılarkən layihəyə uyğun olaraq ekoloji normalara riayət edilib. Maşın zallarının hər birində dörd yaşıl sertifikatlı Avropa








istehsalı olan iki ekoturbin və generatorlar quraşdırılıb. Bu turbinlər çayda su azaldıqda ekoloji normaların qorunması üçün avtomatik özünü dayandırmaq, suyun keyfiyyətinə təsir etmədən istiqamətləndirici aparat vasitəsilə yağ və digər zərərli maddələrin suya qarışmasının qarşısını almaq qabiliyyətinə malikdir.

"Yaşıl enerji" zonası konsepsiyasına uyğun olaraq, ekoloji cəhətdən təmiz enerji istehsal edəcək "Zəngilan" və "Şayıflı" SES-lərdə rəqəmsal qaydada məlumatların axını mərkəzə ötürülməklə yanaşı, məsafədən idarəedilməsi təmin olunub. Bunun üçün mikro SCADA sistemi yığılıb, 25 kilometr məsafədə yüksəkgərginlikli yeni elektrik verilişi xətləri və 24 damarlı optik kabel xətti çəkilib. "Zəngilan" və "Şayıflı" SES-lərdə il ərzində hər birində 30 milyon kilovat-saat olmaqla, ümumilikdə 60 milyon kilovat-saat "yaşıl enerji" istehsal ediləcək və bununla da 14 milyon kubmetr qaza qənaət edilməklə yanaşı, atmosferə atılan karbon qazının ($CO_2$) həcmi 28 min ton azalacaq.

Dövlət başçısı "Zəngilan" və "Şayıflı" SES-lərin tikintisindən və yaradılan şəraitdən bəhs edən videoçarxa baxdı.

Prezident İlham Əliyev stansiyaları işə saldı.

Məlumat verildi ki, bu günə qədər "Azərenerji" ASC tərəfindən Zəngilan rayonunda 30 nəfər əsasən yerli sakin daimi işlə təmin edilib. Ümumilikdə, işğaldan azad edilən ərazilərdə indiyədək Prezident İlham Əliyevin məşğulluq və məskunlaşma siyasətinə uyğun olaraq "Azərenerji" tərəfindən 400-ə yaxın daimi iş yeri yaradılıb. Yaxın gələcəkdə 10-dan artıq kiçik su-elektrik stansiyalarının (KSES) istismara verilməsi və əlavə KSES-lərin tikintisinə başlanılması ilə işçi sayı 550-ni keçəcək. İşçilərin 70 faizi məhz işğaldan azad edilən rayonların sakinləridir.

Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzur regionlarında "Azərenerji" ASC tərəfindən iki yeni müəssisə - "Qarabağ Regional Elektrik Şəbəkəsi" MMC və "Yaşıl Enerji Elektrik Stansiyası" MMC yaradılıb. İşəgötürmə zamanı ilk növbədə "Azərenerji" ASC-də hazırda işləyən keçmiş məcburi köçkünlər arasından seçim edilib. Eyni zamanda regionlarda məskunlaşdırılan sakinlərin işə cəlb edilmələri zamanı peşəsi olmayan kadrlar üçün təlimlər keçirilib, sertifikatlaşdırılma aparılıb.

◆ Prezident İlham Əliyevin Cəbrayıl və Zəngilan rayonlarına səfəri

# Şərqi Zəngəzurun yeni növrağı

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan məscidinin açılışını ediblər

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 18-də Zəngilan məscidinin açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov dövlət başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Zəngilanda yeni məscidin təməli şəhər işğaldan azad edildikdən sonra - 2021-ci il aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qoyulub. Məscidin tikintisini Heydər Əliyev Fondu "PAŞA Holdinq" MMC-nin dəstəyi ilə həyata keçirib.

Ermənistan 30 illik işğal dövründə əzəli Azərbaycan torpaqlarında olan bütün dini abidələrimizə qarşı vəhşiliklər törədib. Ermənilər şəhər və rayonlarımızda yaşayış və inzibati binaları, bütün infrastrukturu dağıdıb, təbii sərvətlərimizi talan edib, bu ərazilərdəki dini, tarixi, mədəniyyət abidələrimizi vandalizm aktlarına məruz qoyublar. O cümlədən Zəngilan rayonundakı tarixi, dini, mədəniyyət abidələrimiz erməni təcavüzünün qurbanları sırasındadır. Burada da müqəddəs ocaqlarımız ermənilər tərəfindən dağıdılıb, təhqir edilib. İşğal dövründə Zəngilan şəhərindəki tarixi məsciddən tövlə kimi istifadə olunub. XIX əsrdə inşa edilmiş və memarlıq abidəsi kimi inventarlaşdırılan məscid dağıdılıb, ilkin görkəmini 70 faizə qədər itirib.

İşğal altında olan ərazilərimiz azad edildikdən sonra Qarabağdakı tarixi, dini və mədəniyyət abidələrinin bərpası layihələri çərçivəsində Zəngilan məscidində bərpa-tikinti işlərinə başlanılmışdı. Yerli və xarici ekspertlərdən ibarət işçi qrup məscidin mövcud binasında qiymətləndirmə aparıb və buna əsasən binanın konservasiyasına qərar verilib.

Konservasiya olunan tarixi məscidin yanında yeni məscid inşa edilib. Yeni məscid binası düzbucaqlı plan quruluşlu, iki minarəli, üç nefli layihələndirilib. Məscid binasında 220 və 100 nəfərlik ibadət zalları yaradılıb. Məscidin minarələri və günbəzi kaşı və kərpicdən yığılıb. İnteryerdə nəqqaşlıq işləri aparılıb, mehrab kaşıdan yığılmış nəbati naxışlarla işlənib. Minbər və şəbəkə elementləri təbii ağacdan hazırlanıb.

İşğal dövründə dağıdılmış tarixi Zəngilan şəhər məscidinin ərazisində isə açıq səma altında sərgi yaradılıb. Sərgi Qarabağ və Şərqi Zəngəzur ərazilərində mövcud olmuş bir sıra dini abidələrimizə qarşı törədilmiş vandalizmin ümumi mənzərəsini əks etdirir. Burada işğalın ən ağır fəsadlarından biri kimi bəşəri əhəmiyyətə malik mədəni irsimizin, o cümlədən islam dininə aid abidələrin qəsdən dağıdılması və məhv edilməsinə dair faktlar yer alıb. Eyni zamanda bu ərazilərdə yüzlərlə müsəlman qəbiristanlığının məhv edildiyi, müsəlman dini ibadət yerlərinin, məscid və türbələrimizin təyinatının dəyişdirilərək saxtalaşdırıldığı, bir çox hallarda isə tövlə kimi istifadə olunaraq orada dinimizdə haram sayılan heyvanların saxlanıldığı aşkar edilib.









## Zəngilan şəhərinin daxili yol-kommunikasiya şəbəkəsinin bünövrəsi qoyulub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Zəngilan şəhərinin daxili yol-kommunikasiya şəbəkəsinin təməlini qoyub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri Saleh Məmmədov dövlət başçısına görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, layihə üzrə şəhərdaxili yolların ümumi uzunluğu 31 kilometrdir. Layihənin birinci mərhələsində ümumilikdə 17,14 kilometr uzunluğunda yollar salınacaq. İki və dörd hərəkət zolaqlı bu yolların eni 18-34 metr olacaq. Yolboyu velosiped və piyada zolaqları yaradılacaq, yaşıllıqlar salınacaq.

Dövlət başçısına Horadiz-Zəngilan avtomobil yolunda görülən əsaslı təmir işləri barədə də məlumat verildi.

Qeyd edək ki, Horadiz-Zəngilan avtomobil yolu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biridir. Hacıqabul-Bəhrəmtəpə-Mincivan-Ermənistan ilə dövlət sərhədi avtomobil yolunun Horadiz-Zəngilan hissəsi ötən əsrin 80-ci illərində inşa edilib və otuzillik işğal dövründə tamamilə sıradan çıxarılaraq yararsız vəziyyətə salınıb.





Uzunluğu 61 kilometr olan Horadiz-Zəngilan avtomobil yolunun əsaslı təmiri dövlət başçısının müvafiq sərəncamına əsasən həyata keçirilib. Təmir-tikinti işləri Hacıqabul-Bəhrəmtəpə-Mincivan-Ermənistan ilə dövlət sərhədi avtomobil yolunun Horadiz-Zəngilan hissəsində aparılıb. Üçüncü texniki dərəcəyə uyğun olaraq əsaslı şəkildə yenidən qurulan yolun torpaq yatağının eni 12 metrdir. Yolboyu mövcud asfalt-beton örtüyü qazılaraq kənarlaşdırılıb, yol yatağının və yol əsasının tikintisi, müxtəlif ölçülü suötürücü boruların inşası, körpülərin təmiri, həmçinin kommunikasiya xətlərinin köçürülməsi işləri görülüb. Tikinti işlərinin vaxtında yekunlaşdırılması üçün əraziyə lazımi sayda işçi qüvvəsi və texnika cəlb olunub. Sonra Prezident İlham Əliyev Zəngilan şəhərinin daxili yol-kommunikasiya şəbəkəsinin təməlini qoydu.

# Milli Məclisin Sədri Cenevrədə Parlament Sədrlərinin 6-cı Dünya Konfransının Təşkilat Komitəsinin iclasında və Qadın Parlament sədrlərinin görüşündə iştirak edib

**Milli Məclisin Sədri Sahibə Qafarova İsveçrə Konfederasiyasının Cenevrə şəhərinə işgüzar səfəri çərçivəsində mayın 17-də Parlament Sədrlərinin 6-cı Dünya Konfransının Təşkilat Komitəsinin 1-ci iclasında müzakirələrdə çıxış edib.**






Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, müzakirələr zamanı bir çox vacib məsələlərə diqqət yetirildiyini deyən spiker Sahibə Qafarova bunun dolğun aparıldığını bildirib. O, sülh, təhlükəsizlik və qanunun aliliyini inkişaf etdirmək üçün parlament diplomatiyasının önəmini diqqətə çatdıraraq deyib ki, bu, gələcəyə dair düşüncələrimizlə sıx bağlı olan məsələdir. Milli Məclisin Sədri bildirib ki, qanunun aliliyi sülhün və təhlükəsizliyin təmin edilməsi üçün ilk şərtdir. Bu məsələyə istənilən yanaşmanın əsasında dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət kimi beynəlxalq hüququn hamı tərəfindən tanınmış norma və prinsiplərinə ciddi riayət edilməsi və ayrı-seçkiliyə yol vermədən tətbiqi dayanmalıdır.

Spiker Sahibə Qafarova dünyadakı mövcud vəziyyəti nəzərə alaraq, Parlamentlərarası İttifaqın öz fəaliyyətində və 6-cı Ümumdünya Konfransı çərçivəsində bundan sonra da bu məsələyə diqqət yetirməli olduğunu bildirib.

Milli Məclisin Sədri iqlim dəyişikliyi probleminə də toxunaraq deyib ki, bu, təcili həll edilməli olan qlobal problemlərdən biridir.

Sahibə Qafarova xatırladıb ki, Azərbaycan bütün ölkələrin yekdil dəstəyi ilə COP29-a evsahibliyi etmək üçün seçilib və bu ilin noyabrında Bakıda bu möhtəşəm tədbir təşkil olunacaq. Onun sözlərinə görə, Azərbaycan bütün tərəfləri cəlb etmək və bütün ölkələri və cəmiyyətləri ümumi məqsəd ətrafında birləşdirmək üçün əlindən gələni edəcək.

Sahibə Qafarova deyib ki, Parlament Sədrlərinin 6-cı Dünya Konfransı da bu məsələ ilə bağlı yeni ideyalar və yanaşmalar formalaşdırmalı və gələcək fəaliyyətlərdə bunları əks etdirməlidir.

Milli Məclisin Sədri Sahibə Qafarova mayın 17-də Qadın Parlament Sədrlərinin Sammitinə hazırlıq məqsədilə Qadın Parlament sədrlərinin də görüşündə iştirak edib. Tədbirdə öncəki sammitlərin nəticələri nəzərdən keçirilib və növbəti sammitə hazırlıq məqsədilə bir sıra təşkilati məsələlər müzakirə edilib.

Spiker Sahibə Qafarova çıxışında dünyada gender bərabərliyinin təmin olunması məsələlərində qarşıya çıxan problemlərə diqqət çəkib. O deyib ki, gender bərabərliyi mövzusu müxtəlif tədbirlərdə müzakirə olunsa da hələ də bir çox ölkələrdə bununla bağlı məsələlər həll edilməyib.

Spiker Sahibə Qafarova bildirib ki, növbəti sammitdə qadınların ictimai fəallığının artırılması, onların təhsil hüququnun reallaşdırılması, yüksək vəzifələrdə təmsil olunması mövzuları geniş müzakirə olunmalıdır. O həmçinin qlobal iqlim dəyişikliyi məsələsinin olduqca aktual olduğunu nəzərə alaraq, qadınların bu məsələdə də fəal iştirakının vacibliyini qeyd edib.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

# Latviya parlamentinin Sədri Azərbaycana rəsmi səfərə gəlib



**Latviya Respublikası parlamentinin Sədri Daiga Mierinanın rəhbərlik etdiyi nümayəndə heyəti mayın 18-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Hava Limanında Daiga Mierinanı Milli Məclisin Azərbaycan-Latviya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Kamran Bayramov, hər iki ölkənin səfirləri Elnur Sultanov, Edqars Skuya və digər rəsmi şəxslər qarşılayıblar.

*"Azərbaycan"*

# Müdafiə Nazirliyinin rəhbər heyəti hərbi vəzifəlilərlə görüşüb

**Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və müdafiə nazirinin müavini - Quru Qoşunların komandanı general-leytenant Hikmət Mirzəyev səfərbərlik hazırlığı üzrə təlim toplanışına cəlb olunmuş hərbi vəzifəlilərlə görüşüb.**



Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı general-polkovnik K.Vəliyev Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuzda aparılan uğurlu islahatların müsbət nəticələrindən danışıb.

Müdafiə nazirinin birinci müavini səfərbərlik hazırlığı və səfərbərlik ehtiyatlarının yaradılması üzrə keçirilən tədbirlərin planlı şəkildə davam etdirilməsi, ehtiyatda olan hərbi qulluqçuların döyüş hazırlığının yüksək səviyyədə saxlanılması məqsədilə təlim toplanışlarının mütəmadi keçirilməsinə xüsusi diqqət yetirilməsinin vacibliyini qeyd edib.

Baş Qərargah rəisi hərbi vəzifəlilərin təminatı və keçirilən praktiki məşqlər ilə maraqlanıb. Onların peşəkarlıq səviyyələrinin daha da artırılması, silahlanmaya yeni qəbul edilən silah və döyüş texnikasının effektiv tətbiqi məqsədilə keçirilən təlimlərin real döyüş şəraitinə uyğunlaşdırılması və texnoloji innovasiyalardan istifadə edilməsi ilə əlaqədar müdafiə nazirinin tapşırıqlarını aidiyyəti üzrə vəzifəli şəxslərə çatdırıb.

Təlimlərin keyfiyyətinin daha da artırılması, habelə cəlb olunan şəxsi heyətin peşəkarlığının yüksəldilməsinə dair hərbi hissələrin komandanlıqları qarşısında konkret tapşırıqlar qoyulub.

# DSX-nin birləşmə və hərbi hissələrində gənc əsgərlərin andiçmə mərasimi keçirilib

**Mayın 18-də Dövlət Sərhəd Xidmətinin (DSX) birləşmə və hərbi hissələrində gənc əsgərlərin andiçmə mərasimi keçirilib.**



DSX-nin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, mərasimlərdə hərbi rituala uyğun olaraq döyüş bayrağı sıra meydanına gətirilib. Azərbaycan Respublikasının Dövlət Himninin ifa edilməsi ilə başlayan mərasimlərdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla anılıb. Çıxış edənlər gənc əsgərlərə nümunəvi hərbi qulluqçu kimi dövlətə, xalqa və tariximizin ən böyük sərkərdəsi Müzəffər Ali Baş Komandana sadiq, cəsur, nizam-intizamlı olmağı, ərazi bütövlüyü və suverenliyi bərpa olunmuş Vətən sərhədlərini gözbəbəyi kimi qorumağı, əsgəri borcunu ləyaqətlə yerinə yetirməyi arzulayıblar.

Gənc əsgərlər təntənəli şəkildə Hərbi Anda gətirildikdən sonra DSX-nin rəisi general-polkovnik Elçin Quliyevin təbrik teleqramı tədbir iştirakçılarına çatdırılıb.

Dövlət sərhədlərini şərəflə qorumaq məsuliyyətini üzərilərinə götürən gənc əsgərlər Hərbi Anda daim sadiq qalacaqlarını əminliklə ifadə ediblər.

Gənc əsgərlərin təntənəli marşla tribuna önündən keçidi ilə mərasimin rəsmi hissəsi yekunlaşıb.

# Ombudsman Masallıda vətəndaşların müraciətlərini dinləyib



**Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Cənub Regional Mərkəzində Masallı, Cəlilabad, Lənkəran və digər rayonlardan olan vətəndaşlarla görüşüb.**

Ombudsman Aparatından AZƏRTAC-a bildirilib ki, görüşdən əvvəl Səbinə Əliyeva Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Masallı şəhərində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Sonra müvəkkil Cənub Regional Mərkəzinin əhatə etdiyi rayonlardan müraciət etmiş vətəndaşlarla fərdi qaydada görüşüb. Görüş zamanı vətəndaşlara hüquqi məsləhətlər verilib, onların bəzi müraciətləri yerində təmin olunub. Müraciətlərdə qeyd edilmiş problemlərin həlli ilə bağlı müvafiq dövlət qurumlarına müraciət olunacağı qeyd edilib.

Həmçinin vətəndaşların müraciətlərinə daha səmərəli və çevik şəkildə baxılması məqsədilə Ombudsman Aparatında 24/7 rejimdə fəaliyyət göstərən "916" Çağrı mərkəzi və digər müraciət vasitələri barədə məlumat verilib.

# Laçında quruculuq işləri sürətlə və yüksək keyfiyyətlə aparılır

**Tarixi torpaqlarımızı 30 il işğal altında saxlayan ermənilər başqa bölgələrimiz kimi, Laçında da vandalizm törədərək rayonu, sözün həqiqi mənasında, xarabazarlığa çevirmişdilər. İşğalçılar Azərbaycan xalqına məxsus tarixi, dini, mədəni irsi tamamilə məhv etmişdilər. Qəsbkarlar rayonda ekoloji terror da törətmişdilər. Çayların qarşısını kəsmiş, bulaqları qurutmuş, meşələri vəhşicəsinə qırmış və yandırmışdılar. Düşmən Laçında da həyat nişanələrini məhv etməyə çalışmışdı.**



Bütün bunlarla yanaşı, ermənilər Laçın şəhərində, Zabux və Sus kəndlərində qanunsuz məskunlaşdırma işləri də aparmışdılar. Ermənistandan, eləcə də Yaxın Şərqdə yaşayan erməniləri bu ərazilərə köçürmüşdülər. Bu qanunsuz məskunlaşmada xaricdəki erməni diasporu və müxtəlif ianələr toplayan fondlar da fəal rol oynamışdılar. Bütün bunlar azmış kimi, ermənilər burada qanunsuz məskunlaşdırdıqları əhalini "yerli" sakin kimi dünya ictimaiyyətinə təqdim etməyə çalışmışdılar. Gözdən pərdə asmaq üçün gəlmə ermənilərə bir neçə ev tikib versələr də, ümumilikdə digər işğal altında saxladıqları ərazilərimiz kimi, Laçının Zabux və Sus kəndlərini də talan etmiş, evləri sökmüş, həmin kəndlərin ərazisində olan azərbaycanlılara məxsus abidələri tamamilə dağıtmışdılar.

Faşist xislətli ermənilər Zabuxda özləri üçün inşa etdikləri evlərin əksəriyyətini azərbaycanlıların məzarlığı üzərində tikmişdilər. Xüsusi olaraq vurğulamaq lazımdır ki, Zabux və Susda qanunsuz məskunlaşdırılan ermənilər azərbaycanlılara məxsus yaşayış sahələrindən çıxarılanda da mənfurlar 2020-ci ildə Kəlbəcərdə və Laçında nümayiş etdirdikləri vəhşi əməllərinə burada da əl atdılar. Evləri, meşələri yandırdılar, flora və faunaya ciddi zərər vurdular.

30 ilə yaxın idi ki, Azərbaycanın bir sıra rayonları qəsbkar Ermənistan ordusunun işğalı altında idi. Bu illər ərzində həmin rayonlardan didərgin düşmüş sakinlər üzləşdikləri çətinliklərə dözərək günlərin birində torpaqlarının azad olunacağı günü səbirsizliklə gözləyirdilər. Gözləyirdilər ki, günlərin birində gücünü, qüdrətini artıran Azərbaycan Ordusu işğalda qalmış torpaqları ermənilərdən azad edəcək. Nəhayət, həmin gün gəldi. Ermənistan ordusunun təxribatlarına cavab olaraq 27 sentyabr 2020-ci ildə İkinci Qarabağ müharibəsi başladı. 44 gün davam edən müharibə nəticəsində Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan və Şuşa şəhəri işğaldan azad edildi. 8 noyabr 2020-ci il şanlı tariximizə "Zəfər Günü" kimi yazıldı. 2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya dövlət başçıları arasında imzalanmış üçtərəfli bəyanata əsasən Ağdam, Kəlbəcər və Laçın rayonları bir güllə atılmadan, qan tökülmədən, şəhid verilmədən işğaldan azad olundu.

Laçın rayonu iqtisadi cəhətdən böyük potensiala malik bölgələrimizdən biridir. Rayonun həm böyük turizm potensialı, həm də aqrar, eləcə də sənaye sektorunda müqayisəyəgəlməz dərəcədə üstünlükləri var. Təbii ehtiyatları ilə fərqlənən rayonda emaledici sənayenin istehsalını təşkil etmək mümkündür. İşğaldan öncə rayonda əsas inkişaf etmiş sahə kənd təsərrüfatı, xüsusilə də heyvandarlıq idi. Bununla yanaşı, meyvəçilik, tütünçülük, üzümçülük, taxılçılıq, arıçılıq inkişaf etmiş sahələrdən hesab olunurdu. Laçın rayonunda fəaliyyət göstərən sənaye müəssisələri daha çox xammal növlərinin emalına əsaslanmışdı. Rayon həmçinin zəngin təbii ehtiyatlara malikdir. Belə ki, Laçın rayonunda civə, xromit, mərmər, üzlük tikinti daşları və digər faydalı qazıntı ehtiyatları var.

Prezident İlham Əliyev bu gözəl diyarımız haqqında danışarkən qeyd edib ki, Laçın rayonu ölkəmizin ən böyük rayonlarından biridir. Rayonun çox böyük potensialı var. Əlbəttə ki, Laçın rayonuna qayıdacaq keçmiş məcburi köçkünlər bundan sonra Laçında rahat yaşamalıdırlar və Azərbaycan dövləti bunu təmin edəcək: "Laçın rayonu 28 il işğal altında idi və bu işğal dövründə rayonun, demək olar ki, bütün infrastrukturu Ermənistan tərəfindən məhv edilmişdir, ətraf mühitə böyük ziyan vurulmuşdur. Bütövlükdə bizim meşə fondumuzun qanunsuz istismarı nəticəsində 60 min hektar meşə ermənilər tərəfindən məhv edilib, kəsilib, talanıb, satılıb. Onun böyük hissəsi Laçın rayonunda olan meşə fondudur. İşğal dövründə ermənilər Laçında qanunsuz məskunlaşma siyasəti aparmışlar. Xaricdə yaşamış ermənilər həm Laçın şəhərinə, həm bir neçə kəndə gətirilmiş və orada yerləşdirilmişlər. Bu, bütün beynəlxalq konvensiyalara görə hərbi cinayət sayılır. Əfsuslar olsun ki, Ermənistan dövləti bu hərbi cinayətə görə hələ də məsuliyyətə cəlb edilməmişdir".

44 günlük Vətən müharibəsi Zəfərlə başa çatdıqdan dərhal sonra Azərbaycan dövləti tərəfindən erməni qəsbkarlarının vəhşicəsinə dağıtdıqları bölgələrimiz sürətlə dirçəldilir. Başqa bölgələrimizlə yanaşı, Laçında da sürətli tikinti-quruculuq işləri aparılır. Şərqi Zəngəzur iqtisadi bölgəsində yerləşən Laçına həyat yenidən qayıdır. Hazırda Laçın istiqamətində dövlət sərhədləri möhkəmləndirilir və rayon ərazisində fərqli təyinatlı infrastruktur layihələri uğurla həyata keçirilir. Rayonda generasiya gücü 8 meqavat olan Güləbird Su-Elektrik Stansiyası işə salınıb. Bu stansiya təxminən 7000 nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq. Aparılan genişmiqyaslı quruculuq işləri çərçivəsində 2025-ci ildə Laçında Beynəlxalq Hava Limanının istifadəyə verilməsi planlaşdırılır. Bununla yanaşı, rayonun yol-nəqliyyat infrastrukturu yenidən və ən müasir standartlar üzrə qurulur. Doğma ocaqlarına köçürülən ailələrin Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlət başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb. Görülən işlərə əsaslanıb deyə bilərik ki, Laçında həyata keçirilən genişmiqyaslı quruculuq işləri yüksək zövq və keyfiyyətlə aparılır.

Bu gün istər işğaldan azad olunmuş torpaqlarımızda, istərsə də regionlarımızda görülən işlər dövlət başçısı İlham Əliyevin hər bir azərbaycanlının Prezidenti olduğunu, sözü ilə əməlinin üst-üstə düşməsinin məntiqi sübutudur. Ən əsası, bu gün aparılan abadlıq-quruculuq işləri Laçın rayonunun və bütün bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək, turizm potensialının artırılmasına səbəb olacaq və bütün keçmiş məcburi köçkünlər tezliklə öz doğma yurdlarına qayıdacaqlar.

*Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları



Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana dövlət səfəri çox mühüm hadisələrlə zəngin oldu. Səfər çərçivəsində iki dost prezidentin - İlham Əliyevlə Aleksandr Lukaşenkonun səmimi söhbətləri, mətbuata verdikləri bəyanatlar, "Bakı Ekspo Mərkəzi"ndə XVII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı - "Caspian Agro" və XXIX Azərbaycan Beynəlxalq Qida Sənayesi - "InterFood Azerbaijan" sərgilərində olmaları, imzalanan yeni 8 sənəd, Qarabağa səfər, Füzuli və Şuşa şəhərlərinin baş planları ilə tanışlıq ölkələrimiz arasındakı əlaqələrin getdikcə daha dinamik inkişafına təkan verən mühüm məqamlar oldu.

## Zaman İlham Əliyevi seçib

### Aleksandr Lukaşenko Azərbaycan Prezidentinin əsl lider kimi Qafqaz üçün də məsuliyyət daşıdığını bəyan etdi

Bu səfər həm də gələcək əməkdaşlıq, yaxınlaşma yollarını müəyyən etmək üçün bir imkan oldu desək, yanılmarıq. Çünki İlham Əliyevin söylədiyi kimi, təməlində ənənəvi etimad duran münasibətlər onunla fərqlənir ki, hər iki ökə razılığa gəldiyi bütün məsələləri yerinə yetirir. Bu səfər zamanı da liderlərin apardığı müzakirələr, qəbul edilən mühüm qərarlar bir daha onu deməyə əsas verir ki, Azərbaycan-Belarus münasibətləri strateji tərəfdaşlığın ən yüksək səviyyəsinə çatıb.

Ümumiyyətlə, Azərbaycan və Belarus arasında diplomatik əlaqələrdən başlayaraq, dərin siyasi, iqtisadi-ticari, humanitar-mədəni sahələrdə çox yüksəksəviyyəli əməkdaşlıq var. İki ölkə arasında diplomatik əlaqələrin yaradılması haqqında protokol 11 iyun 1993-cü ildə imzalanıb. 2006-cı ilin fevral ayında isə Belarusun Azərbaycanda, həmin ilin avqust ayında Azərbaycanın Belarusda səfirlikləri açılıb.

Bu il uğurlu diplomatik münasibətlərinin 31 ili tamam olan Belarus-Azərbaycan əlaqələri artıq yeni inkişaf mərhələsindədir. Son illərdə fəal qarşılıqlı əlaqələr iki ölkəni bir-birinə o dərəcədə yaxınlaşdırıb ki, artıq nəinki regionda, həm də dünyada Belarus və Azərbaycanı çox yaxın, dost ölkələr hesab edirlər.

İki ölkə arasında ticarət dövriyyəsi 400 milyon dollara yaxındır. Qarşıya qoyulan məqsəd bu rəqəmi 1 milyarda çatdırmaqdır.

Əlbəttə ki, münasibətlərin bu səviyyəyə yüksəlməsinin başlıca amili ölkələrin liderləri - İlham Əliyevlə Aleksandr Lukaşenko arasında mövcud olan dostluq əlaqələri, səmimiyyət və qarşılıqlı hörmətdir. Bu səmimi dostluq əlaqələri ikitərəfli münasibətlərin siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə dinamik inkişafına təkan verir. Bu səfərlər, iki ölkə arasında imzalanan mühüm tərəfdaşlıq sənədləri münasibətlərin daha da dərinləşməsini şərtləndirir. Bu günə kimi Belarus və Azərbaycan arasında siyasi, iqtisadi, vətəndaşların hüquq və mənafelərinin müdafiəsi, səhiyyə, hüquq-mühafizə, humanitar, elmi-texniki və regional əməkdaşlıq sahələrində 120-dən çox beynəlxalq müqavilə imzalanıb. Bu səfər zamanı isə bu sazişlər sırasına daha 8 mühüm sənəd əlavə olundu.

Mətbuata birgə bəyanatlarla çıxış edən dövlət başçıları mövcud siyasi-iqtisadi əlaqələrin bundan sonra daha da şaxələndirilməsi istiqamətində mühüm addımların atılacağını söylədilər.

İki ölkə arasında iqtisadi-ticari əlaqələrə nəzər yetirdikdə görərik ki, Belarus Azərbaycanın mühüm ticarət tərəfdaşlarındandır. Birgə səylərlə əməkdaşlığın möhkəm iqtisadi bünövrəsi qoyulub, sənaye sahəsində bir sıra layihələr həyata keçirilməyə başlanılıb.

Mətbuata bəyanatında İlham Əliyev mövcud münasibətlərdən, yüksələn hərtərəfli əlaqələrdən danışaraq bir xatırlatma da etdi. Dövlət başçısı Belarus şirkətlərini Qarabağ və Şərqi Zəngəzur bölgələrinin bərpasında fəal iştirak etməyə çağırdı.

Aleksandr Lukaşenko isə dost ölkəyə dəstək verməyə hazır olduqlarını bəyan edərək dedi ki, Belarus bütün dövrlərdə əsl dost kimi Azərbaycanın yanında olub. İndi isə ermənilərin viran qoyduqları torpaqların dirçəldilməsi, Böyük qayıdışın reallaşması üçün dost ölkəyə hərtərəfli yardıma hazırdır: "Azərbaycan son illər böyük nailiyyətlər əldə edib. Hər şeydən əvvəl özünün əsas problemini - uzun müddət səhraya çevrilmiş torpaqların qaytarılmasını həll edib... Torpaqlarınızı qaytarmağınız və onu dirçəltməyiniz əsrlər boyu, uzun illər yaddaşlarda qalacaq. Bütün bunları ona görə deyirəm ki, əgər həmin torpaqların dirçəldilməsi üzrə bu böyük prosesdə bizə yer tapılarsa, onda bu yükün altına girməyə hazırıq və bu, sizin üçün sərfəli olacaq. Məsuliyyətlə bildirirəm ki, biz bunu böyük məmnuniyyətlə və dünyada heç kimin edə bilməyəcəyi səviyyədə edəcəyik. Çünki Belarusun və Azərbaycanın qardaş xalqları arasında dərin hörmət və münasibətlər var".

Belarus Prezidenti regionda yaranan yeni reallıqları da dəyərləndirərək dedi ki, Cənubi Qafqaz qeyri-sabit regiondur. Amma Tanrıya şükür olsun ki, burada Azərbaycanın timsalında olduqca güclü, normal lider ölkə mövcuddur. Azərbaycan Qafqaz regionunu nəzarətdə saxlamağa qadirdir: "Bu, artıq təkcə Azərbaycana görə məsuliyyət daşımaq demək deyil, Siz artıq bütün Qafqazdakı vəziyyətə cavabdehsiniz, biz - Qafqazda yaşamayan xalqlar buna çox böyük ümid bəsləyirik. Ona görə də bu, sizin üçün əlavə yük deməkdir, halbuki öz problemləriniz də var, lakin yenə də, nə etmək olar. Zaman Sizi seçib, bizdə belə deyirlər və Siz lider olaraq Qafqaz regionuna görə məsuliyyət daşıyırsınız".

Bununla Aleksandr Lukaşenko demək istədi ki, zaman İlham Əliyevi seçib. Bölgədə yeni reallıqları İlham Əliyev yaradıb və Azərbaycan Prezidenti əsl lider kimi Qafqaz regionu üçün də məsuliyyət daşıyır.

Belarus Prezidenti Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması prosesinin o qədər də asan məsələ olmadığını söyləyərək dedi ki, artıq dirçəliş dövrüdür və qardaş Azərbaycan xalqına bu ağır dirçəliş dövrünü itkilərsiz başa vurmağı və qarşıya qoyulan planları yerinə yetirməyi arzu edir: "Əminəm ki, Siz bunu edəcəksiniz, həm də istərdim ki, tez edəsiniz, Siz bunu bacarırsınız. Siz bütün dünyaya göstərdiniz ki, Sizdən əvvəlki nəsillərin dövründə həll olunmayan ən mürəkkəb məsələləri həll etməyi bacarırsınız".

Qarabağa səfər, Füzulidə, Şuşada erməni barbarlığına şahidlik, baş planlara əsasən Füzuli və Şuşa şəhərlərində görülən möhtəşəm quruculuq işləri yəqin ki, Aleksandr Lukaşenkonu həm kədərləndirdi, həm də qürurlandırdı. Cəmi 3,5 ilə Azərbaycan Prezidentinin reallaşdırdığı layihələri canlı görmək və bütün yeni infrastrukturla tanış olmaq Aleksandr Lukaşenkoda son dərəcə pozitiv əhavali-ruhiyyə yaratdı. Bu, onun bir gün öncə mətbuata bəyanatında İlham Əliyev haqqında söylədiyi dəyərli fikirlərini bir daha təsdiq etdi.

Bu səfər zamanı maraqlı məqamlardan biri də dost ölkənin Qarabağda yaşayış məntəqəsi salmağı planlaşdırması barədə xəbər oldu. Belarusun memarlıq və tikinti naziri Ruslan Parxamoviç Şuşada jurnalistlərə açıqlamasında dedi ki, yaşayış məntəqəsi Ağdam rayonunda salınacaq. Bura 420 ailə üçün nəzərdə tutulub. Onun arxitekturasında Belarus koloritindən istifadə ediləcək.

İşğal zamanı Azərbaycanın ərazi bütövlüyünü hər zaman dəstəkləyən Belarus quruculuq dövründə də Azərbaycana öz sayğısını nümayiş etdirir. Bu, dost qayğısının təzahürüdür, bu, iki ölkə arasında möhkəm bağların, gündən-günə güclənən əməkdaşlığın bariz təcəssümüdür.

Ümumiyyətlə, ali qonaqların Qarabağa səfərləri artıq ənənə halını alıb. Bu, qonaqlara işğalçının törətdiyi vandalizm aktlarını, Azərbaycan dövlətinin quruculuq siyasətini və sülh gündəliyini nümayiş etdirmək imkanı verir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## Möhkəm təməl üzərində qurulan dostluq

### Aleksandr Lukaşenkonun Qarabağ səfəri suverenliyimizə dərin hörmət əlamətidir

**"Son dövrlər bir çox ölkə Azərbaycanla sıx siyasi və iqtisadi əlaqələr qurmağa böyük maraq göstərir. Bu, Prezident İlham Əliyevin güclü siyasətçi, mahir diplomat olması və beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun, gücünün, qüdrətinin durmadan artması, qazandığımız şanlı qələbələr və digər uğurlarla bağlıdır".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamilə Əliyeva deyib. Deputat bildirib ki, nüfuzlu beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsinə təşəbbüslərin göstərilməsi, bir sıra dünya ölkələrinin dövlət və hökumət başçılarının Azərbaycana səfərlər etməsi, iqtisadi və siyasi əlaqələri əhatə edən mühüm sənədlərin imzalanması ölkəmizə olan inam və etibarın nümunəsidir: "Azərbaycanın Ermənistan istisna olmaqla MDB-yə digər üzv dövlətlərlə siyasi-iqtisadi əlaqələri yüksək səviyyədədir və bu dövlətlərlə strateji tərəfdaşlıq haqqında bəyannamə imzalanıb. Azərbaycanla Belarus arasında ikitərəfli əlaqələr də möhkəm təməllər üzərində qurulub. Mayın 16-da Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana dövlət səfəri və Prezident İlham Əliyevlə görüşü əlaqələrimizin daha da inkişaf etdirilməsinə böyük zəmin yaradacaq".

Deputat qeyd edib ki, dövlət başçısının Belarus Prezidenti ilə görüşdən sonra mətbuata bəyanatından da göründüyü kimi, Azərbaycanla Belarus Respublikası arasında Hökumətlərarası Komissiya uğurla fəaliyyət göstərir və gələcəkdə əməkdaşlığın artırılması istiqamətində bir çox tədbir həyata keçiriləcək: "İki ölkə arasında əvvəlki illərdə yaradılmış birgə müəssisələr perspektivli fəaliyyət göstərir və yeni yaradılacaq digər müəssisələrin sayının da artırılması nəzərdə tutulub. Əsasən maşınqayırma, hərbi sənaye komplekslərində, eləcə də kənd təsərrüfatı sahələrində əməkdaşlıq əlaqələri daha da gücləndiriləcək ki, bu da ölkələrimizin təhlükəsizliyinə və iqtisadiyyatının güclənməsinə əhəmiyyətli dərəcədə dəstək göstərəcək. Belarus şirkətləri Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında bərpa işlərində də iştirak edəcəklər. Belarus Respublikasının şəhərsalma sahəsində, eləcə də aqroşəhərciklərin tikintisində böyük təcrübəsindən faydalanmaq mümkün olacaq".

Deputat yekunda onu da deyib ki, Belarus Prezidenti Aleksandr Lukaşenkonun Prezident İlham Əliyevlə işğaldan azad edilmiş Füzuli və Şuşa şəhərlərinə səfər etməsi də bu ölkənin Azərbaycanın suverenliyinə hörmətlə yanaşmasının bariz nümunəsidir: "Göründüyü kimi, Azərbaycanla Belarusun mehriban dostluq münasibətləri hər keçən il daha da möhkəmlənir. Prezident İlham Əliyevlə Aleksandr Lukaşenkonun şəxsi dostluq münasibətləri də ölkələrimizin və xalqlarımızın dostluğunun inkişafına böyük töhfə verir".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*



## Cənubi Qafqazda davamlı sülhə nail olunacaq

### Azərbaycanın səyləri tezliklə məntiqi nəticəsini verəcək

**"İndi biz müsbət tendensiyaya və sülhə doğru gedirik, sərhədlərin delimitasiyası başlayıb. Buna iki ölkə tərəfindən hər hansı bir vasitəçi olmadan nail olunub".**

VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində Prezident İlham Əliyevin vurğuladığı kimi, Ermənistan ilə Azərbaycan arasında sülh sazişinin imzalanması istiqamətində ardıcıl və mühüm addımlar atılır.

Qazax rayonunun 4 kəndinin azad edilməsi, sərhəd dirəklərinin quraşdırılması sülhə nail olunması üçün real müstəvidə görülən işlərə əyani nümunədir.

### Cəmi beş aya əldə olunan irəliləyişlər

Təbii ki, əldə olunan razılaşmalar vasitəçilərin iştirakı olmadan iki ölkə arasında birbaşa dialoqun aparılmasının, görüşlərin keçirilməsinin mühüm nəticəsidir.

Əminliklə demək olar ki, 2024-cü il Cənubi Qafqazda sülhə nail olunması üçün vacib il oldu. Elə bu ilin cəmi beş ayı ərzində sülh istiqamətində keçilən yol da bunu deməyə əsas verir.

Xatırladaq ki, 2024-cü ilin fevral ayında Almaniyada iki ölkə liderinin görüşü keçirilib. Həmin ayın 28-29-da Berlində Azərbaycan və Ermənistan xarici işlər nazirləri danışıqlar aparıblar. Mayın 10-11-də isə XİN rəhbərləri Qazaxıstanda görüşdülər. Almatıda nazirlər və onların nümayəndə heyətləri "Azərbaycan və Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında ikitərəfli Saziş" layihəsinin müddəalarının müzakirəsini davam etdirdilər.

Eyni zamanda mayın 15-də Azərbaycanla Ermənistan arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyaların doqquzuncu görüşü keçirildi. Bu görüş Qazax rayonunun - Bağanis Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı kəndlərinin azad edilməsi ilə start verilən delimitasiya və demarkasiya prosesinin uğurlu davamı kimi mühüm əhəmiyyət kəsb etdi.

Qeyd edək ki, delimitasiyanın məhz bu istiqamətdən başlaması Azərbaycanın təkidi ilə olub. Delimitasiya prosesində 1991-ci il Alma-Ata Bəyannaməsinə əsaslanılacaq.

Bütün bu faktlar iki ölkə arasında sülh istiqamətində mühüm irəliləyişlərin olmasından xəbər verir.

"Münaqişədən sonrakı vəziyyətə gəldikdə, bir daha deyirəm, Azərbaycan çox fəal çalışır, Azərbaycan məhz Ermənistana sülh sazişi ilə bağlı danışıqlara başlamaq təşəbbüsünü irəli sürdü. Azərbaycan məhz o ölkədir ki, baza prinsiplərini, hətta sülh sazişinin layihəsini hazırladı", - deyə VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində dövlət başçısı da bildirdi ki, indi iki ölkə arasında danışıqlar gedir və bu danışıqlar bizim təkliflərin layihəsi üzərində aparılır.

### Sülh səyləri

Azərbaycanın Vətən müharibəsindən ötən dövr ərzində göstərdiyi davamlı sülh təşəbbüsləri və etdiyi çağırışlar xüsusilə bu il bəhrəsini verməyə başlayıb. Buna qədər isə xarici havadarları, başda Fransa olmaqla, Ermənistana siyasi, hərbi dəstək verərək onu sülh prosesindən yayınmağa şirnikləndirirdi. Geriyə baxıb həmin ərəfədəki hadisələri ötəri analiz etmək belə bəs edir görəsən ki, İrəvan 44 günlük müharibədə və antiterror tədbirlərində uğradığı ağrı-acılı məğlubiyyətdən özü üçün dərs çıxarmayaraq sülhə yox, revanşa həvəslənirdi. Qərəzli Qərb təsisatlarına güvənərək ölkəmizə qarşı təxribatlar törədirdi. Yelisey sarayı isə bu xüsusda Ermənistana can-dildən kömək edirdi. Məhz Fransa Prezidenti Emmanuel Makronun siyasi təxribatı nəticəsində Azərbaycan ötən il Qranadada keçirilən görüşdə iştirakdan imtina etmişdi. Bu isə regionla bağlı məkrli planları olan Makronun yeganə təxribatı deyildi.

Lakin ölkəmizin ortaya qoyduğu siyasi qətiyyət, bölgədə maraqları olan xarici dairələri öz yerlərində otuzdurması, eləcə də Qafqazda sülhə nail olunması üçün həyata keçirdiyi davamlı səylər sayəsində, nəhayət, Ermənistan da anlamağa başladı ki, bəzi Qərb ölkə və təşkilatlarının timsalında uzaqda yaşayan pis məsləhətçilərinə qulaq asması bir ölkə kimi ona yaxşı heç nə vəd etmir.

Danılmaz reallıqdır ki, Ermənistanın dalan ölkə olmaqdan qurtuluşu yalnız Azərbaycanla danışıqlardan, sülh müqaviləsinin imzalanmasından keçir. Buna görə də İrəvan Bakının sülh çağırışlarına cavab verməyə başladı və artıq yuxarıda sadalanan razılaşmalar da əldə edilib.

Bölgədə sülh üçün yaranan tarixi şəraitin, iki ölkə arasında birbaşa danışıqların aparılmasının, Qazaxın kəndlərinin azad edilməsinin, sərhəd dirəklərinin quraşdırılmasının fonunda ölkəmizin haqlı mövqeyinin qələbə çalması da aydın görünür. Azərbaycan güc yolu ilə ərazilərini işğaldan azad edərək, Qarabağda separatizmin kökünü kəsərək tarixə dayanan, ədalətə söykənən qələbə qazandığı kimi, ondan sonrakı dövrdə də bölgədə sülhə nail olunması üçün əsaslı səylər göstərir.

Bakının bu istiqamətdə gördüyü kompleks tədbirlərin nəticəsidir ki, onilliklərin ardından regionda barış, normallaşma, təhlükəsizlik vəd edən münbit mühit formalaşıb.

Bütün bunlar isə bir daha təsdiq edir ki, bölgədə sülhü təmin edəcək siyasi iradə ortaya qoyan Azərbaycanın təklif, təşəbbüs və səyləri tezliklə öz məntiqi nəticəsini verəcək. Cənubi Qafqazda davamlı sülhə nail olunacaq.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Strateji tərəfdaşlıq, qarşılıqlı etimada əsaslanan münasibətlər

**"Belarus Prezidenti Aleksandr Lukaşenkonun ölkəmizə dövlət səfəri əlaqələrimizin daha da inkişafına böyük təkan verəcək. Azərbaycan ilə Belarus strateji tərəfdaş və dost ölkələrdir. İki dövlət arasında bütün sahələrdə əməkdaşlığın böyük potensialı var".**



Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva qəzetimizə açıqlamasında deyib ki, Belarus Prezidentinin ölkəmizə dövlət səfəri iki ölkə arasında müxtəlif sahələri əhatə edən münasibətlərin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir. Səfər çərçivəsində keçirilən görüşlər zamanı səsləndirilən fikirlər, aparılan müzakirələr tərəflər arasında strateji tərəfdaşlığa və qarşılıqlı etimada əsaslanan münasibətlərin uğurla inkişaf etdiyini təsdiqləyir".

Deputatın sözlərinə görə, Azərbaycan-Belarus əlaqələrinin dinamikasına nəzər saldıqda aydın olur ki, müxtəlif sahələri əhatə edən münasibətlər qarşılıqlı faydalı əməkdaşlığa əsaslanır, uğurla inkişaf edir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan və Belarus arasında müzakirə olunan məsələlərin hamısı kifayət qədər konkret xarakter daşıyır. Ölkələrimiz arasında maşınqayırma da daxil olmaqla, sənaye kooperasiyası, birgə istehsal, həmçinin hərbi-sənaye kompleksi, kənd təsərrüfatı, nəqliyyat sahələri üzrə əlaqələrin inkişafı perspektivlərinin müzakirə olunması münasibətlərin sonrakı mərhələsi üçün mühüm əhəmiyyət daşıyır.

Belarusun Azərbaycanı hər zaman dəstəklədiyini vurğulayan S.Fətəliyeva deyib ki, prezidentlərin görüşündə postmünaqişə dövründə Cənubi Qafqaz regionunda vəziyyət də müzakirə olundu. Prezident İlham Əliyev Belarus şirkətlərini Qarabağ və Şərqi Zəngəzur bölgələrinin bərpasında fəal iştiraka dəvət etdi. Çünki dövlət başçısının da vurğuladığı kimi, Belarusun çox yaxşı şəhərsalma, aqroşəhərciklərin tikintisi təcrübəsi, müasir texnologiyaları var. A.Lukaşenko da öz növbəsində Belarus şirkətlərinin işğaldan azad edilmiş ərazilərin bərpasında yaxından iştirak etməyə hazır olduğunu bildirərək Azərbaycan ilə Belarus xalqları arasında dərin hörmət və sıx münasibətlərin olduğunu vurğuladı.

Sevinc Fətəliyeva qeyd edib ki, Belarus Prezidentinin işğaldan azad edilmiş Füzuliyə və Şuşaya səfəri xüsusi diqqət çəkir. Aleksandr Lukaşenkonun Füzuli və Şuşa şəhərlərinə səfəri iki ölkə arasında əsl dostluğun nümunəsidir. Səfər çərçivəsində tərəflər arasında bir sıra sazişlərin imzalanması isə qarşılıqlı münasibətləri daha da gücləndirəcək. Azad olunmuş ərazilərin bərpasında Belarusun da iştirak etmək istəyi məmnunluq doğurur.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Makronun müstəmləkəçilik fobiyaları

**Fransa Prezidenti Emmanuel Makronun administrasiyası öz müstəmləkəçilik siyasətinin uğursuzluğuna görə Rusiya və Azərbaycanı günahlandırmağa çalışır. "Politico"nun Fransa kəşfiyyat idarəsindəki adı açıqlanmayan mənbələrə istinadən verdiyi məlumata görə, rəsmi Paris iddia edir ki, Yeni Kaledoniyada üsyançı hərəkatın güclənməsi bu və ya digər dərəcədə Moskva və Bakının müdaxiləsi ilə bağlıdır. Yelisey sarayından gələn bu cür eyhamlar və təxribat xarakterli yalanlar həm daxili siyasi yolda öz sistemli uğursuzluqlarına bəraət qazandırmaq üçün çıxılmaz cəhd, həm də Rusiya və Azərbaycana qarşı düşmənçilik fəaliyyətinin pərdəsi kimi qiymətləndirilməlidir. Parisin əsassız və gülünc ittihamları Makronun Ukrayna və Cənubi Qafqazda davamlı təxribatları kontekstində xüsusilə kinli və absurd görünür.**




Son günlər yerli əhalinin Makronun, açıq desək, mərhəmətsiz müstəmləkəçilik siyasətinə qarşı kütləvi etirazlarının baş qaldırdığı Yeni Kaledoniyada vəziyyət imperialist keçmişin kölgələrinin tamamilə dağılmasının mühüm göstəricisidir. XIX əsrin ortalarında fransız işğalçıları tərəfindən ələ keçirilən Sakit okean adaları qrupu bu gün Fransanın tərkibində "inzibati qurum"dur və metropoliya hakimiyyət orqanlarının müxtəlif bürokratik və hüquqi hiylələrinə baxmayaraq, bu status heç də koloniya vəziyyətindən fərqlənmir.

Baxmayaraq ki, fransızlar köhnə qitənin digər keçmiş müstəmləkə gücləri kimi, demokratiyaya sadiqliklərini israrla nümayiş etdirirlər və əvvəlki imperialist vərdişlərini rəsmi səviyyədə fəal şəkildə inkar etməyə çalışırlar, Sakit və Hind okeanlarında, Karib dənizində böyük ərazilər, eləcə də Cənubi Amerikada bütöv bir ölkə onların hakimiyyəti altındadır.

Fransanın hazırk müstəmləkə əraziləri işlərin əsl vəziyyətini ört-basdır etmək üçün hazırlanmış müxtəlif statuslara malikdir. Buna baxmayaraq, XXI əsrdə bu cür hiylələr bir vaxtlar əsarət altında olan torpaqların və xalqların əhalisini artıq aldatmağa qadir deyil və Qərbin bütün psevdodemokratik ritorikaları ilə eyni yalana bənzəyir.

Yeni Kaledoniyada iğtişaşlar mayın 13-də Parisin seçki proseslərinin dəyişdirilməsi ilə bağlı həyasız qərarı fonunda başlayıb ki, bu da yerli əhalinin öz torpaqlarında əsas məsələlərdə söz sahibi olmaq üçün son şansını itirməsi ilə nəticələnə bilər. Hakimiyyəti dövründə Fransanın keçmiş Afrika koloniyalarında nüfuzunu nəhayət itirdiyi Emmanuel Makronun planına görə, metropoliyadan olan ekspatlar, yəni əslində müstəmləkəçi məmurlar, idarəçilər və hərbi qulluqçular Yeni Kaledoniyada yerli əhalinin nümayəndələri kimi eyni səsvermə hüquqlarını əldə etməlidirlər. Belə bir qərar onsuz da məzlum və ayrı-seçkiliyə məruz qalan yerli kanak xalqını gələcəklərinə təsir etmək imkanından tamamilə kənarlaşdıra bilər.

Xüsusilə qeyd etmək lazımdır ki, 1853-cü ildə fransızlar tərəfindən tutulan Yeni Kaledoniya Paris üçün son dərəcə əhəmiyyətli bir müstəmləkədir. Arxipelaq üzərində nəzarət Fransaya Asiya-Sakit Okean regionunda tamhüquqlu hərbi mövcudluğunu saxlamağa, dünyanın bu hissəsində dəniz və hərbi hava qüvvələri bazasını yerləşdirməyə imkan verir. Digər tərəfdən ən zəngin mineral ehtiyatları da burada - Yeni Kaledoniya adalarında cəmləşib. Təkcə onu qeyd etmək kifayətdir ki, Yeni Kaledoniya dünyada təsdiqlənmiş nikel ehtiyatlarının dörddə birinə, eləcə də digər strateji əhəmiyyətli metalların zəngin yataqlarına malikdir. Belə zənginliyə baxmayaraq, yerli əhali və ilk növbədə yerli kanak xalqı uzun onilliklər ərzində müstəmləkə administrasiyası tərəfindən marginal və gücsüz bir azlığa çevrilmişdir.

Kanakların son etirazları və yerli hakimiyyət orqanlarının acizliyi fonunda Prezident Makron kolonial keçmişin ənənəsinə uyğun olaraq, Yeni Kaledoniyaya cəza ekspedisiyasını göndərib. Müxtəlif mənbələrə görə, artıq iki minə yaxın hərbçi, jandarm və polis burada yerləşdirilib ki, onlar silah gücü ilə arxipelaqın təbii sərvətləri üzərində Fransa nəzarətini saxlamalıdırlar.

"Russian-news.ru" saytının yazdığına görə, Yeni Kaledoniyadakı iğtişaşların Makronun növbəti rusofob və anti-Azərbaycan isteriyasına səbəb olmasını başa düşmək üçün xatırlamaq lazımdır ki, Fransa Prezidenti avantüra və təxribatlarına cavab olaraq dəfələrlə həm Moskvadan, həm də Bakıdan layiqli və gurultulu şillələr alıb.

Parisin Yeni Kaledoniyada öz çöküşünü Azərbaycana aid etmək cəhdləri xüsusilə absurddur. Düzünü desək, Yelisey sarayının Bakıya münasibətdə davranışı tamamilə iyrənc görünür, çünki məhz Makron administrasiyası uzun müddətdir ki, Azərbaycan Respublikasının daxili işlərinə açıq və ardıcıl şəkildə müdaxilə edir, onun sərhədlərində silahlı münaqişəyə səbəb olur. Parisin özünü böyük dövlət kimi qələmə vermək cəhdləri fransızların Qafqaz regionunda başlatdıqları dağıdıcı fəaliyyətlərdə aydın şəkildə özünü büruzə verib.

Saytın yazdığı məqalədə deyilir: "Uzun illərdir ki, fransız biznesinin Azərbaycanda uğurla fəaliyyət göstərməsinə, Prezident İlham Əliyevin balanslaşdırılmış və məsuliyyətli siyasətinin Fransaya neft-qaz sənayesində böyük üstünlüklər əldə etməsinə imkan yaratmasına baxmayaraq, Makron administrasiyası anti-Azərbaycan isteriyası və Ermənistana silah tədarükünə başlayır. Başa düşmək lazımdır ki, Fransa hökumətinin bu cür demarşının Fransada nüfuzlu erməni diasporunun sifarişini yerinə yetirməsi ilə bağlı tamamilə kinli fon var. Makron administrasiyasının Yeni Kaledoniyada baş verən iğtişaşlarla bağlı Bakıya qarşı səsləndirdiyi gülünc ittihamlar artıq dünya mətbuatında ələ salınıb və aparıcı milli nəşr olan "Azərbaycan" qəzeti (azerbaijan-news.az) Fransa təbliğatının cəfəngiyyatına cavab verib. Özü də Yelisey sarayının iftira və böhtanını təkzib edən məktubda hökumətin rəsmi mövqeyini dərc etməklə..."

Eyni zamanda qeyd edilir Mali, Çad, Niger və Burkina Fasodan qovulmanın Parisin qara qitədəki nüfuzunun qalıqlarına kritik zərbə olması ilə yanaşı, bu proseslər Fransa iqtisadiyyatına ağır zərbə vurub. Parisin Afrikanın ən zəngin təbii sərvətlərinə çıxışını itirməsi özlüyündə Fransa hakimiyyətinin və biznesinin bir çox planlarını puça çıxarır. Bununla belə, Fransanın keçmiş Afrika müstəmləkələrindən qovulması ilk növbədə, onilliklər ərzində xalqların bədbəxtliklərindən öz sərvətlərini əldə etmək üçün istifadə edərək, onlarca Afrika ölkəsində korrupsiya, terror və anarxiyanı təşviq edən Parisin son dərəcə alçaq və merkantil siyasətinin nəticəsidir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*







## Problemlərin inkarı Fransa üçün Afrikanın itirilməsi ilə nəticələndi

### Növbədə "xarici ərazilər"dir

**Bu gün Fransanın koloniyası olan Yeni Kaledoniyada baş verən etiraz aksiyalarının vətəndaş müharibəsi səviyyəsinə çatmasının səbəbi rəsmi Paris tərəfindən yerli əhalinin həddən artıq istismar edilməsidir.**

Yeni Kaledoniya Fransadan 16 min kilometr aralıda - Sakit Okeanda Avstraliya materikinin yanında, 18,6 min kvadratkilometrlik əraziyə və 270 min əhaliyə malik adalar qrupudur. Bu adalar qrupu 1774-cü ildə dövrünün tanınmış səyyahı Ceyms Kuk tərəfindən kəşf olunub. Fransa 1853-cü ildə Yeni Kaledoniyanı özünün ərazisi elan edib. Zaman-zaman Yeni Kaledoniyada istismarçılığa qarşı etirazlar baş verib və bu səbəbdən də 1946-cı ildə Fransanın "xaricdəki ərazisi", 1998-ci ildə isə "xüsusi statusu" olan "xaricdəki ərazisi" elan edilib. Adada Fransanın hərbi hissələri də yerləşir.

Bugünkü etirazların əsl səbəbi minlərlə miqrantın səs verməsi üçün Fransa Senatının Konstitusiyaya düzəlişlər etməsi səbəb olub. Bu ilin aprel ayında Senat Yeni Kaledoniyada 10 ildən çox yaşayanlara seçki hüququ verdi ki, bu da qalan əhalinin etirazına səbəb oldu.

Rəsmi Paris 1980-ci illərdən başlayaraq fransızların adaya köçüb yaşaması üçün böyük imkanlar yaradıb. Onlar vergilərdən azad edilib, biznes üçün şərait yaradılıb və sair. Beləliklə, 2023-cü ildə fransızların sayı yerli əhaliyə nisbətdə 60 faiz təşkil etdi. Qalan 40 faiz isə kanak adlanan yerli tayfalardan ibarətdir ki, onlar da işsizlik, sosial vəziyyətin ağırlığından əziyyət çəkirlər. Yeni Kaledoniyada münbit torpaqlar, şirkətlər, faydalı qazıntılar, daşınmaz əmlak, bir sözlə milli sərvətlərin 80 faizi fransızlara məxsusdur.

Yeni Kaledoniyaya daxil olan adalar Fransanın xammal bazası hesab edilib. Fransa Yeni Kaledoniyadan ağac, nikel, xrom, mis, Taiti-Polineziyadan subtropik meyvə, dəniz məhsulları, Qvianadan qızıl, qiymətli ağac növləri, şəkər çuğunduru, Martinka, Mayotta, Qvadelupa və Reynuon adalarını isə subtropik meyvə, kofe, dəniz məhsulları və digər xammal bazası kimi istifadə edib. Bunların müqabilində isə yerli əhali işsizlik və yoxsulluqdan əziyyət çəkib.

"Le Fiqaro" qəzeti Yeni Kaledoniyada baş verənləri vətəndaş müharibəsinin başlanğıcı adlandırıb ki, bu da təsadüfi deyil. Məsələnin mahiyyəti ondan ibarətdir ki, yandırılan və dağıdılan mağaza və müəssisələrin hamısı yerli əhaliyə yox, gəlmə fransızlara məxsusdur. Adada doğulub illərlə burada yaşayan yerli əhalinin bir parça çörək tapa bilmədiyi halda Fransadan gələnlər bütün milli sərvəti daşıyıb aparır. Əlbəttə ki, belə vəziyyətin sonu ancaq vətəndaş müharibəsinə gətirib çıxarar.

"Fransanın parçaları" (La France en miette) kitabının müəllifi, akademik Benjamin Morel yazıb ki, Kaledoniyada baş verənlər illərlə yığılıb qalan problemlərin rəsmi Paris tərəfindən inkar edilməsinin nəticəsidir: "Biz etiraf etməliyik ki, Yeni Kaledoniyanın problemlərini həll etmədik, onları dondurub saxladıq və daha təhlükəli vəziyyətə gəlib çıxmasını seyr etdik".

Fransa mətbuatı rəsmi Parisin Yeni Kaledoniyada baş verənlərə görə Rusiya və Azərbaycanı ittiham etməsini gülməli adlandıraraq qeyd edir ki, problemlər yenə də inkar edilir. Bu da vəziyyəti nəinki düzəltməyəcək, əksinə, etirazlar Korsika və Qvianaya da yayılacaq.

Benjamin Morel vurğulayıb ki, problemlərin inkarı Fransa üçün Afrikanın itirilməsi ilə nəticələndi, növbədə "xüsusi statusu" olan "xarici ərazilər"dir.

## Müasir müstəmləkəçiliyin ən eybəcər siması

### Neokolonial Fransanın demokratiyadan danışmağa haqqı yoxdur

**"Fransa demokratik deyil, neokolonial ölkədir. Bu ölkənin Yeni Kaledoniyaya xüsusi təyinatlılar göndərməsi müasir müstəmləkəçiliyin ən eybəcər formasıdır. Özünü bütün dünyaya demokratiyanın beşiyi, mədəniyyət simvolu kimi təqdim edən Paris XXI əsrdə öz azadlığı uğrunda mübarizə aparan kanak xalqına qarşı assimmetrik güc tətbiq etməklə müstəmləkəçi ölkə olduğunu bir daha etiraf etdi".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Hikmət Məmmədov bildirib. O söyləyib ki, Fransa istibdadı onun dənizaşırı torpaqlar adlandırdığı, əslində isə işğal etdiyi ərazilərdə get-gedə daha da kəskinləşir: "1998-ci ildə kanak xalqına seçmək və təmsilçilik hüququ verən Fransa indi bu məhdud hüququ da onların əlindən almağa çalışır. Demokratiyanı, insan hüquqlarını eybəcər formada manipulyasiya edir, seçki qanunvericiliyini yerli xalqın iradəsinin əleyhinə olaraq dəyişdirir. Beləliklə, onsuz da Fransanın ekspansiya siyasəti sayəsində öz ölkələrində azlıq vəziyyətinə salınan kanaklar hər keçən gün hüquqlarını daha da itirirlər".

Hikmət Məmmədov əlavə edib ki, Paris adaya yerləşdirilən miqrantlara qeyri-qanuni səsvermə hüququ tanımaqla kanakların səslərini daha da azaldır: "Faktiki olaraq, kanakların öz torpaqlarında hüquqlarını tamamilə sıfıra endirir. Ən pisi isə odur ki, bütün bunları demokratiya adı altında həyata keçirir. Paris kanakları öz torpaqlarında adaya köçürülən və Fransa yandaşları olan miqrantlara uduzduracaq qanunu seçki hüququnun genişləndirilməsi adı altında reallaşdırır. Bu riyakarlığı qəbul etməyən kanaklara isə güc tətbiq edir".

Deputat hazırda Fransanın güc strukturlarının 10-dan çox günahsız yeni kaledoniyalını öldürdüyünü, yüzlərlə insanı həbs etdiyini xatırladaraq deyib ki, bu cinayətkar ölkə kanakların iş yerlərini, təsərrüfat sahələrini və əmlaklarını dağıdaraq ölkəyə 200 milyon avrodan çox ziyan vurub. Bu, cəmi 600 min sakini olan bir adanın iqtisadiyyatı üçün dağıdıcı zərbədir.

"Ən qəribəsi isə odur ki, Fransanın daxili işlər naziri Jerald Darmanen "France-2" telekanalına müsahibəsində Azərbaycana qarşı iddialar səsləndirib. Bütün bunların günahkarı qismində xarici qüvvələri, o cümlədən Azərbaycanı göstərir. Bununla da özünün müstəmləkə siyasətini gizlətməyə çalışır. Əgər Azərbaycan beynəlxalq hüququ, öz azadlığını bərpa etməklə dünyada əzilən xalqların mübarizə simvoluna çevrilibsə, buna ilk növbədə demokratiya, beynəlxalq hüquq, insan hüquqları kimi dəyərləri başlıca prinsip elan edən dövlətlər sevinməlidir. Fransa isə bunun tamamilə əksini edir. Ona görə də Fransanın beynəlxalq hüquqdan, yaxud demokratiyadan danışmağa mənəvi haqqı yoxdur. Okeaniyada yaşadıqları isə onun neokolonial siyasətinin nəticəsidir", - deyə Hikmət Məmmədov vurğulayıb.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

## Fransanın ittihamları siyasi tərbiyəsizlikdir

### Rəsmi Paris Azərbaycanla bağlı səslənən iddialara görə üzr istəməlidir

**"Fransa tərəfindən ölkəmizə qarşı səsləndirilmiş bir çox fikirlə bağlı rəsmi Bakı həmişə qəti şəkildə mövqeyini ifadə edib. Hər zaman Fransanın özündən minlərlə kilometr uzaqda yerləşən ölkələrin daxili işlərinə qarışması deyil, öz problemlərini həll etməyin vacibliyi nəzərinə çatdırılıb".**

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Vüqar İsgəndərov deyib. Deputat bildirib ki, Fransanın daxili işlər naziri Jerald Darmanen tərəfindən Azərbaycanla bağlı səslənən iddialar absurddur və siyasi tərbiyəsizlikdir. Bütün bunların heç bir əsası yoxdur, sadəcə olaraq şər, böhtandır. Haqlı olaraq Azərbaycan Xarici İşlər Nazirliyi bununla bağlı rəsmi münasibət bildirib. İnsan hüquqlarının kobud şəkildə pozulduğu, baş verən iğtişaşlar zamanı aksiyaçıların öldürüldüyü, islamofobiya və müsəlmanlara qarşı hücum hallarının, eləcə də antisemitizmin geniş yayıldığı Fransadan fərqli olaraq Azərbaycanda fundamental hüquq və azadlıqlar təmin edilir.

Deputat qeyd edib ki, Fransa bu fikirlərinə görə Azərbaycandan üzr istəməlidir. "Onsuz da hazırda iki ölkə arasında münasibətlər Fransanın günahından durmadan pisləşir. Bunun səbəbkarı isə rəsmi Parisdir. Yeni Kaledoniyada baş verən hadisələr bu günün məsələsi deyil. 1980-ci illərdə də orada iğtişaşlar baş verib, sonradan isə sülh müqaviləsi imzalanıb. Fransanın çirkin siyasəti adanı az qala ikiyə bölüb", - deyə o əlavə edib.



V.İsgəndərov bildirib ki, Yeni Kaledoniyada əhalinin sayında fransızların daha da artmasına səbəb olacaq qanun layihəsinə qarşı baş verən bu etirazlar qəddarcasına dağıdılır. Hətta qarşıdurmalarda çoxsaylı ölənlər və yaralananlar da var. Bütün bu məsələlərdə məsuliyyət Fransanın üzərinə düşür.

Deputat vurğulayıb ki, Fransa daxili işlər nazirinin ölkəmizə qarşı böhtan xarakterli fikirlər söyləməsi artıq əndazəni aşmaqdır: "Heç bir fakt olmadan Azərbaycanı ittiham edən Fransa az qalır Günəş tutulmasını da bizimlə əlaqələndirsin. Təbii olaraq rəsmi Bakı bütün bunların cavabını vaxtında və yerində verir. Fransa özündən min kilometrlərlə uzaqda müstəmləkəçilik siyasəti yeritməkdənsə, öz daxilində baş verən həm siyasi, həm iqtisadi problemlərlə məşğul olsa daha məqsədəuyğundur.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## İnsanlıq əleyhinə cinayət törətməkdə davam edən dövlət

**Yer kürəsinin 50-dən çox ölkəsinin ərazisini işğal edib təbii sərvətlərini talayan, xalqlarını illərlə əsarətdə saxlayan Fransa insanlıq əleyhinə törətdiyi cinayətlərə, soyqırımlarına, amansız vəhşiliklərə görə dünya xalqları tərəfindən ən çox lənətlənən ölkədir. Bu ölkənin törətdiyi soyqırımları dünyanın ən böyük qara ləkəsidir.**



Əlcəzairdə, Ruandada, Nigerdə, Mərakeşdə, Vyetnamda və adını qeyd etmədiyimiz digər ölkələrdə milyonlarla günahsız insanı amansızlıqla qətlə yetirən Fransa işğal etdiyi ərazilərdən qovulduqca tarixdə törətdiyi bəşəri cinayətlərdən nəticə çıxarıb səhvlərini düzəltmək əvəzinə imperialist siyasətini genişləndirməyə çalışır. İnsanlıq əleyhinə yönələn əməllərini indi Yeni Kaledoniya əhalisi üzərində tətbiq edir. Özünü dünyada "demokratıyanın hamisi", guya insan haqlarının müdafiəçisi kimi təqdim etmək istəyən Fransa parlamenti Yeni Kaledoniya əhalisinin yerli idarəetmə sistemində iştirak hüquqlarını məhdudlaşdıran qanunu təsdiqləyib. Fransanın beynəlxalq hüquq normalarına uyğun gəlməyən bu addımını etrazla qarşılayan kaledoniyalılara indi divan tutulmağa başlanılıb. Dünyaya "demokratiya dərsi keçən" Fransa hökuməti bu dəfə etiraz edən dinc kaledoniyalıları öldürməkdən belə çəkinmir. Fransa ordusu və polisi adi insan haqlarını tələb edən insanlara zor tətbiq edir. Dinc nümayişçilərdən yüzlərlə yaralanan var. Yeni Kaledoniyada fövqəladə vəziyyət tətbiq olunmasına qərar verən Makron hökuməti nümayişçilərin kütləvi həbsinə də başlayıb. İşın maraqlı tərəfi budur ki, Fransanın daxili işlər naziri Jerald Darmanen Yeni Kaledoniyada baş verən hadisələrə görə Azərbaycanı əsassız ittiham edib. Onun iddiasına görə, guya rəsmi Bakı Fransanın daxili işlərinə qarışır.

İllərdir ki, Fransa Azərbaycan ərazilərində kök salan separatçıları silahlandıraraq Qarabağı münaqişə ocağına çevirmişdi. 2020-ci ilin Vətən müharibəsi zamanı və ondan sonrakı dövrlərdə, elə bu gün də Fransa Prezidenti Emmanuel Makronun ölkəmizə qarşı sərgilədiyi ədalətsiz və qərəzli mövqeyə bütün dünya şahidlik etməkdədir. Bununla kifayətlənməyən Fransa parlamentinin hər iki palatası, Fransa dövləti, onun ali siyasi rəhbərliyi Qarabağdakı separatçı rejimi açıq şəkildə dəstəkləmişdir. Ölkəmizə qarşı hər cür avantürist hərəkətlər edən bir ölkənin daxili işlər nazirinin ölkəmizi ittiham etməsi olduqca gülünc görünür. Azərbaycan Fransadan fərqli olaraq müstəmləkəçiliyə qarşı mübarizəni hər hansı separatçı rejimi dəstəkləməklə etmir. Fransa Prezidenti Emmanuel Makron da, onun avantürist komandası da anlamalıdır ki, Fransanın törətdiyi və bu gün də israrla davam etdirdiyi bəşəri cinayətlərin ifşa olunmasının qarşısını almaq artıq mümkün deyil. Sürətlə dəyişən dünyada Afrika ölkələri də Fransanın müstəmləkəçiliyindən xilas olacaq, öz haqları uğrunda mübarizə aparan Yeni Kaledoniya da istədiyinə nail olacaq. Müstəmləkəçiliyə qarşı Fransanın daxilində başlayan mübarizə yəqin ki, Makronun avtoritar idarəçilik sisteminə son qoyacaq.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*




# "Yaşıl enerji"yə keçidlə bağlı dövlətimizin strateji hədəfləri var

**Son illər beynəlxalq əhəmiyyətli tədbirlərə evsahibliyi ilə qlobal müzakirə və inkişaf proseslərinin mərkəzlərindən birinə çevrilmiş Azərbaycanda bu il daha bir möhtəşəm tədbirə ciddi hazırlıqlar gedir. Xəbər verildiyi kimi, ötən ilin dekabrında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29 tədbirinin Azərbaycanda keçirilməsi ilə əlaqədar qərar qəbul olunub. Bu, beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfələrinin təqdir olunmasının bariz nümunəsidir. Bu ilin noyabr ayında Bakı iki həftə dünyanın diqqət mərkəzində olacaq və paytaxt şəhərimiz təqribən 70-80 min xarici qonağı qarşılayacaq.**

## Ölkəmizə yüksək beynəlxalq rəğbət

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu qərarı belə qiymətləndirmişdir: "Bu, bizə dünya ictimaiyyəti tərəfindən göstərilən böyük hörmət və rəğbətdir, eyni zamanda bizim "yaşıl enerji"yə keçidimizə olan böyük qiymətdir".

"Yaşıl enerji"yə keçid artıq bütün dünyada labüd zərurətə çevrilmişdir. Belə bir keçid müasir dünyamızın çağırışıdır. IV Sənaye İnqilabı dövründə bir tərəfdən dayanıqlı inkişafı, insanların rifahını təmin etmək, digər tərəfdən isə planetimizin təbii resurslarını qorumaq, Yer kürəsini gələcək nəsillər üçün yaşamağa daha uyğun hala gətirməkdən ötrü "yaşıl enerji"yə keçid mütləqdir. Bəşəriyyət tarixboyu bir neçə dəfə belə proseslərdən keçib. Bu, həyatın inkişaf məntiqidir. Dövlət xadimlərindən birinin artıq aforizmə çevrilmiş məşhur fikri var: "Daş dövrü ona görə başa çatmadı ki, dünyada daş tükəndi". İnsan zəkası inkişaf etdikcə, texnoloji tərəqqi irəlilədikcə hər bir kəs ənənəvi təcrübəni irəli aparıb əvvəlkindən daha yaxşısını, yaşayış tərzi və ətraf mühit üçün daha yararlısını etməyə çalışır. Bu baxımdan "yaşıl enerji"yə keçid prosesləri də getdikcə sürətlənəcək.

Belə proseslərdə adətən dəyişiklik meyillərini vaxtında dəyərləndirib ona çevik şəkildə uyğunlaşan dövlətlər, cəmiyyətlər böyük nailiyyətlər əldə edirlər. Sevindiricidir ki, Azərbaycan bu prosesin önündə addımlayan ölkələrdəndir. Zəngin neft resursları ilə tarixən enerji ölkəsi kimi tanınmış respublikamız hazırda "yaşıl enerji"yə keçid sahəsində də nümunələr yaradaraq ənənələrini qoruyub inkişaf etdirir. Eyni zamanda qlobal miqyasda "yaşıl enerji"yə keçid təşəbbüslərinə real layihələrlə böyük töhfələr verir. COP29 tədbiri kimi mühüm platformaya evsahibliyi bunun daha bir örnəyidir.

"Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir. Dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz "yaşıl enerji" ilə bağlıdır. "Yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək", - deyə Prezident İlham Əliyev xüsusi olaraq bəyan edib.

## Aydın hədəflər

Yanacaq istehsalçısı və ixracatçısı olan Azərbaycan COP29-a evsahibliyi ilə iqlim dəyişikliyinə qarşı mübarizə üzrə aydın strategiyasını nümayiş etdirəcək. Beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi dövlətimizin iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizə üzrə mühüm hədəfləri var. "Yaşıl enerji"yə keçid bu strateji hədəflərdə əsas yer tutur. Məlum olduğu kimi, ölkəmizin 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri məhz "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" olmaqdır. Həmin prioritetə uyğun şəkildə ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində mühüm işlər aparılır. Bu sahəyə məsul olan dövlət institutları ilə yanaşı, biznes qurumları, ictimai sektorun təmsilçiləri, fərdi vətəndaşlar da prosesdə fəal iştirak edir, ümumi məqsədlərə töhfə verirlər. Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi müəyyənləşdirib.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonası elan olunub. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritet kimi götürülür. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistemin bərpası istiqamətində ardıcıl işlər aparılır. Qarabağ və Şərqi Zərgəzurun alternativ, "yaşıl enerji"lər, karbohidrogen və karbon qazlarından azad olan seqmentlər üzrə inkişaf etdirilməsi yanaşmasının ortaya qoyulması faktiki olaraq "yaşıl enerji"yə yeni münasibətin sərgilənməsindən və bu sahədə siyasətin formalaşmasından xəbər verir.




"Yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Ölkəmiz elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

Ötən il respublikamızda regionun ən böyük bərpaolunan elektrik enerjisi stansiyası istifadəyə verildi. 230 meqavat gücündə günəş-elektrik stansiyası artıq Azərbaycanın enerji sisteminə tam inteqrasiya edilib. Hazırda Bakıda Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının tikintisini davam etdirir. Növbəti yeni layihələrin reallaşması üçün də bir sıra sənədlər imzalanıb, hazırda danışıqlar gedir. Məsələn, yaxın aylarda BP şirkəti Cəbrayıl rayonunda "Şəfəq" Günəş-Elektrik Stansiyasının təməlini qoyacaq.

Məlum olduğu kimi, "yaşıl enerji" konsepsiyasının əsas elementləri günəş və külək enerjisindən sistemli şəkildə istifadə edilməsidir. Coşqun Xəzərin dalğalarının gətirdiyi küləklər, yurdumuzun əksər bölgələrinin bol günəşi bu növ enerji istehsalını genişləndirmək üçün böyük perspektivlər açır. Mütəxəssislər təsdiq edirlər ki, təkcə Xəzərin Azərbaycan sektorunda külək enerjisinin potensialı 157 qiqavat təşkil edir. İşğaldan azad olunan ərazilərimizin də günəş və külək potensialı böyükdür. Qarabağ və Şərqi Zəngəzur 7200 meqavat günəş, 2000 meqavat külək enerjisi potensialına malikdir. Ölkəmizin daxili su ehtiyatlarının isə təxminən 25 faizi bu ərazilərdə formalaşır. Belə bir reallıq həmin ərazilərdə istehsal olunan elektrik enerjisinin hətta digər rayonlara nəql edilməsinə imkan yaradacaq.

Qeyd olunduğu kimi, daha bir "yaşıl enerji" zonası Naxçıvan Muxtar Respublikasıdır. Keçən ilin sentyabr ayında Naxçıvanda keçirilən Azərbaycan-Türkiyə III Enerji Forumu və "Naxçıvan - Yaşıl Enerji Zonası" Beynəlxalq Konfransında vurğulandı ki, "yaşıl enerji" layihələrinin reallaşdırılması yaxın illərdə muxtar respublikanı enerji ixracatçısına çevirəcək və onun strateji əhəmiyyətini daha da artıracaq.

Bir sözlə, "yaşıl gündəliyimiz" uğurla davam edir. Təkcə bu il 1300 meqavat günəş və külək enerjisini istehsal etmək gücü olan stansiyaların təməli qoyulacaq. 2027-ci ilin sonuna qədər isə 2000 meqavat "yaşıl enerji"miz olacaq. Həmin vaxta qədər 9 günəş və külək-elektrik stansiyası istismara veriləcək. 2030-cu ilə qədər isə əlavə olaraq 10 günəş və külək enerjisi stansiyası qurulacaq ki, onların da gücü 5000 meqavat (5 qiqavat) təşkil edəcək. Bu potensial qaz istehlakının əksər hissəsini elektrik enerjisi ilə əvəzləməyə imkan verəcək. Nəticədə Avropaya ən azı əlavə 5 milyard kubmetr qaz ixrac etmək mümkün olacaq.

İmzalanmış kontraktlar və anlaşma memorandumları əsasında yaxın bir neçə il ərzində Azərbaycanda çoxlu bərpaolunan enerji növləri, enerji mənbələri yaradılacaq və dövlət rəhbərimizin bəyan etdiyi kimi, ölkəmiz bu istiqamətdə də dünyada liderlər sırasında olacaq. COP29 beynəlxalq konfransının ölkəmizdə keçirilməsi bu sahədə uğurlarımızın da əyani təcəssümüdür.

## "Yaşıl dünya" naminə həmrəylik

"Yaşıl enerji"yə keçid iqlim dəyişmələrinə qarşı qlobal mübarizənin, təbii ki, bir komponentidir. Bu mübarizənin daha da gücləndirilməsi, öz məqsədlərinə çatması üçün kompleks yanaşma tələb olunur. Xüsusilə bu məsələdə beynəlxalq həmrəylik göstərilməsi, bütün ölkələrin lokal maraqlardan daha çox qlobal maraqlara köklənməsi, Yer kürəsinin hamımızın ümumi evimiz olması anlayışının, mədəniyyətinin formalaşması çox mühümdür. Azərbaycan belə bir həmrəyliyin əldə olunması işinə də öz töhfələrini verir və COP29 tədbirinə evsahibliyi bunun bariz təcəssümü sayıla bilər.

İqlim dəyişikliklərinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2023-cü il tarixli sərəncamı ilə 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilmişdir. Bunun özü də regional və qlobal səviyyədə diqqətin ekoloji problemlərə yönəldilməsi, iqlim dəyişikliklərinə qarşı görülən işlərə fayda verəcək ideyaların ortaya çıxması, layihələrin reallaşdırılması, cəmiyyətdə ətraf mühitə daha adekvat münasibətin, ekoloji mədəniyyətin formalaşması baxımından son dərəcə mühüm addımdır.

Hazırda istər respublikamızda, istərsə də xarici ölkələrdə keçirilən bir çox tədbirin əsas mövzusunu məhz COP29 təşkil edir. Bu ay Bakıda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda da COP29-la bağlı geniş söhbət getdi. Prezident İlham Əliyev çıxışında bu mövzu üzərində xüsusi dayandı. Bildirdi ki, "Biz indi öz rolumuzu körpülərin salınmasında görürük. Mən tariximiz, coğrafiyamız, qarşılıqlı əlaqələrimiz, Avropa təsisatları ilə münasibətlərimiz, eyni zamanda coğrafi baxımdan Qərb ilə Şərq arasında yerləşməyimiz barədə söylədim ki, biz bu amillərlə çox iş görə bilərik. Hazırda biz qeyd edirik ki, əvvəlki sədrliyimiz kimi, körpülər salmağa çalışacağıq".

Bu gün Azərbaycan dünyada neft və qaz təchizatçısı kimi tanınır. Ölkəmiz Gürcüstana, Türkiyəyə, Bolqarıstana, Yunanıstana, İtaliyaya, Rumıniyaya, Serbiyaya və Macarıstana təbii qaz ixrac edərək onların enerji təhlükəsizliyində mühüm rol oynayır.

"COP29-a evsahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün həqiqətən böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən "yaşıl enerji" sahəsindəki fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik. Nəhayət, bu, böyük məsuliyyətdir, çünki biz nəinki yaxşı tədbir təşkil etməli, o cümlədən yaxşı nəticələrə nail olmalıyıq. Hesab edirəm ki, Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlarla beynəlxalq əlaqələri və onlarda fəal iştirakı bizə müxtəlif qitələrin ölkələri arasında körpülər salmaq və ya onları gücləndirmək, eləcə də onların həmrəyliyini möhkəmləndirmək imkanını yaradacaq". Bu sözləri isə Prezident İlham Əliyev Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində çıxış edərkən deyib. COP29 ərəfəsində təşkil olunan bu tədbir iqlim böhranının aradan qaldırılması istiqamətində konkret addımları müzakirə etmək məqsədi daşıyırdı.

Ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası iqlim dəyişikliyinə yeni yanaşmalar da yaradacaq və müxtəlif maraqlı tərəflər arasında əməkdaşlığı təşviq edəcək. Başqa sözlə, Azərbaycan körpülər yaradacaq, o cümlədən "yaşıl enerji"yə keçidlə və iqlim dəyişikliyi ilə bağlı hər kəs gündəliyimizin "yaşıl enerji" ilə bağlı olduğunu bir daha görəcək. Dövlətimizin başçısı Berlində bunları bir daha vurğulayaraq demişdir: "Yekun fikrim ondan ibarətdir ki, enerji təhlükəsizliyi birmənalı olaraq ölkələrin milli təhlükəsizlik məsələsi hesab edilməlidir. Ayrı-seçkilik olmamalıdır. Faydalı qazıntı ilə zəngin olan ölkənin rəhbəri kimi, əlbəttə ki, biz həmin ölkələrin sərmayəni və hasilatı davam etdirmək hüququnu müdafiə edəcəyik, çünki dünyanın buna ehtiyacı var. Lakin eyni zamanda artıq qeyd etdiyim kimi, faydalı qazıntısı olan ölkələr iqlim dəyişmələri məsələlərinə aid həmrəyliyi nümayiş etdirən ölkələr sırasında olmalıdırlar".

## Ölkəmizin qlobal rolu güclənir

Dünyanın müxtəlif ölkələrindən bu sahədə proseslərə geniş təsir imkanlarına malik onminlərlə iştirakçının qatılacağı COP29 tədbiri sadəcə ekoloji problemlərin müzakirə platforması olmayacaq. Burada ekoloji problemlərin həlli üçün birlikdə mühüm addımların atılması qərarlaşdırılacaq. Bu tədbirə evsahibliyi Azərbaycanın aktual ekoloji problemləri həll etmək və davamlı həll yolları tapmaq üçün digər ölkələrlə işləmək imkanlarını bir daha ortaya qoyacaq.

Azərbaycan belə bir mühüm qlobal tədbirə evsahibliyi ilə beynəlxalq nüfuzunu və ekoloji gündəliyə sadiqliyini nümayiş etdirmiş olur, bununla dünya arenasında fəal və nüfuzlu oyunçu rolunu daha da gücləndirir. COP29-a evsahibliyi eyni zamanda Vətən müharibəsindəki tarixi zəfərimizdən, Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasından sonra regionda yaranmış yeni reallıqların bölgəmiz üçün yaratdığı inkişaf perspektivlərinə işıq salır. Ərazi bütövlüyümüzün bərpasından sonra dövlətimizin ən böyük hədəfi insanların rifahı, regionda əbədi sülhün, sabitliyin, dayanıqlı inkişafın, qarşılıqlı faydalı əməkdaşlığın təmin olunmasıdır. Azərbaycan Cənubi Qafqazın timsalında bütün insanların hüzur və xoşbəxtlik içində yaşadıqları inkişaf cənnətinin yaradılmasını istəyir və bunun üçün çalışıb ardıcıl addımlar atır.

Bölgəmizin gələcək inkişafında bu regionun yaşıl əraziyə çevrilməsi çox mühümdür. Torpaqlarımızın təxminən 30 ilə yaxın sürən işğalı dövründə ermənilər həyata keçirdikləri dağıdıcılıq əməlləri ilə o torpaqları "boz zona"ya çevirmişlər. İşğal altındakı ərazilərimizdə Azərbaycanın zəngin flora və faunası məhv edilmişdi. Eləcə də tarixi-mədəni irsimiz vandalcasına dağıdılmışdı. Bu gün Azərbaycan azad yurdlarımızı yenidən qurub həyata qaytarır, dağıdılmış ərazilərimizin yenidən dirçəlişini təmin edir. Vaxtilə ermənilərin "boz zona"ya çevirdikləri əraziləri yaşıl zonaya çevirmək niyyətində olan və bu niyyəti addım-addım gerçəkləşdirən Azərbaycan üçün COP29-a evsahibliyi həm yeni tarixi reallıqları və gələcək perspektivləri dünya ictimaiyyətinə göstərmək, həm də əldə edilmiş təcrübəni əyani şəkildə bölüşmək baxımından önəmlidir.

Özünün əsas məqsədləri, gündəliyi ilə yanaşı, COP29 həm də Azərbaycanı dünyaya daha yaxından tanıdacaq. Ayrı-ayrı məkanlardan on minlərlə insan bir neçə gün ölkəmizdə qonaq olacaq, tarixi-mədəni irsimizlə, təbiətimizlə, milli özünəməxsusluqlarımızla yaxından tanışlıq fürsəti qazanacaq. Bu tədbir dünyadakı dostlarımızın çevrəsini də, qlobal proseslərə təsir imkanlarımızı da genişləndirəcək.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# "Yaşıl dünya naminə həmrəylik" Çində təbliğ edilib

**Pekin Xarici Dillər Universitetində "İpək yoluyla ecazkar mədəniyyətləri kəşf et" devizi altında keçirilən ənənəvi mədəniyyət festivalında Azərbaycan da təmsil olunub.**




AZƏRTAC xəbər verir ki, universitetin Azərbaycan dili ixtisası üzrə təhsil alan tələbələrinin hazırladığı Azərbaycan stendində xalqımızın zəngin və özünəməxsus mədəniyyəti nümayiş etdirilib. Azərbaycanda elan olunan "Yaşın dünya naminə həmrəylik ili" mövzusuna uyğun hazırlanan stenddə COP29-la bağlı məlumat lövhəsi ziyarətçilərə təqdim olunub. Azərbaycanda qorunan nadir heyvanlar, xüsusilə Şirvan Milli Qoruğunun faunası haqqında əl işləri nümayiş etdirilib.

Ziyarətçilərin marağına səbəb olan digər amil Azərbaycan şairlərinin təbiət haqqında şeirlərindən seçilən xüsusi misralar olub. Çin dilinə tərcümə olunmuş bu misralar vasitəsilə Azərbaycan xalqının təbiətə olan münasibəti təqdim olunub. Bundan başqa, Azərbaycan mətbəxinin nümunələri sərgilənib, mədəniyyət və tariximizi əks etdirən kitablar və digər vəsaitlər nümayiş olunub.

# Merilənd Universitetində Azərbaycanla bağlı təqdimat keçirilib

**"Azərbaycanlı Tələbələr və Məzunlar Platforması"nın ABŞ nümayəndəliyinin təşkilatçılığı ilə Merilənd Universitetində müəllim və tələbələr üçün Azərbaycanla bağlı təqdimat keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Müstəqillik Günü ərəfəsində keçirilən təqdimatda ölkəmizin tarixi, bu günü, bu ilin noyabrında Bakıda keçiriləcək COP29 tədbiri barədə çıxışlar edilib, müzakirələr aparılıb.

Azərbaycanın ABŞ-dəki səfirliyinin konsulu Ceyhun Novruzov ölkəmiz barədə tədbir iştirakçılarına məlumat verib, ölkənin yerləşdiyi coğrafi mövqe, zəngin mədəni irsi, eləcə də müstəqil dövlət kimi davamlı inkişafı haqqında danışıb. Daha sonra Azərbaycan Tələbə İcması Platformasının Vaşinqton təmsilçisi Cavid Rəhimli və Merilənd təmsilçisi Fazil Məmmədli ölkə ilə bağlı təqdimatla çıxış ediblər.

Təqdimatlarda Azərbaycanın tarixi, mədəniyyəti, Şuşaya, o cümlədən işğaldan azad olunmuş digər torpaqlara qayıdış və Qarabağda aparılan quruculuq işləri barədə danışılıb. Həmçinin tədbirdə COP29-un ölkəmizdə keçirilməsi ilin mühüm hadisəsi kimi qiymətləndirilib və bu istiqamətdə müzakirələr aparılıb.

Daha sonra tədbir iştirakçıları arasında Azərbaycanla bağlı interaktiv oyun təşkil olunub, qonaqlara ölkəmizə dair suallar ünvanlanıb. Düzgün cavab verənlərə hədiyyələr təqdim olunub.

# Xorvatiyada keçirilən Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin iclasında iştirakçılar COP29-la bağlı məlumatlandırılıblar



**Xorvatiyanın Zadar şəhərində Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) Avropa və Mərkəzi Asiya regionu üzrə milli əlaqələndiricilərin illik iclası baş tutub.**

AZƏRTAC xəbər verir ki, iclasda Avropa və Mərkəzi Asiya regionundan 29 ölkənin nümayəndəsi iştirak edərək Texniki Əməkdaşlıq Proqramı çərçivəsində nüvə enerjisinin sülh məqsədləri üçün istifadə olunması barədə fikir mübadiləsi aparıb, cari milli və regional layihələr, eləcə də perspektivli yeni əməkdaşlıq istiqamətləri müzakirə olunub.

Ölkəmizi tədbirdə təmsil edən Nazirlər Kabineti Beynəlxalq Əməkdaşlıq şöbəsinin aparıcı məsləhətçisi Süsən Nuriyeva cari ilin noyabr ayında Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) barədə tədbir iştirakçılarına məlumat verib. Süsən Nuriyevanın çıxışı COP29-un builki gündəliyi, "mavi və yaşıl zonalar"da iştirak qaydası, eləcə də AEBA-nın iqlim dəyişiklikləri ilə mübarizədə rolu kimi bir sıra məsələləri əhatə edib.

Qeyd edək ki, AEBA COP çərçivəsində nüvə texnologiyası və onun tətbiqlərinin iqlim dəyişikliyi ilə mübarizəyə necə töhfə verdiyini vurğulamaq üçün bir sıra tədbirlər təşkil edərək fəal iştirak edir. Bundan əlavə, AEBA bu sahədə "Atoms4Climate" və "Atoms4Net" kimi təşəbbüslər vasitəsilə iqlim problemlərinin həllində atomların oynaya biləcəyi rola dair maarifləndirici tədbirlər keçirir.

Atom Enerjisi üzrə Beynəlxalq Agentlik (AEBA) 1957-ci ildə "Sülh naminə Atom" təşkilatı kimi təsis edilib və nüvə enerjisindən sülh məqsədləri üçün istifadə olunması sahəsində elmi və texniki əməkdaşlıq üçün dünyanın hökumətlərarası forumu kimi fəaliyyət göstərir. Azərbaycan 2001-ci ildə təşkilatın tamhüquqlu üzvüdür.

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 5 mart (Çərşənbə günü) tarixli 129-cu nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Çaharşənbə, 2 cəmadiyəlaxir sənə 1337.
5 mart sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 80 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 18 rublə,
2 aylığı 32 rublə, 3 aylığı 45 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Ağa Musa Nağıyevin baş kantoru kamaliyəs və təhəssürlə [böyük bir hüzün və kədərlə] **Ağa Musa Nağıyevin** dünən martın 4-ü, gündüz saat 10-da vəfat etdiyini xəbər verir.

Mərhumun cənazəsi martın 6-sında öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Ağa Əli Nağıyev, bacısı və uşaqları ilə **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi martın 6-sında öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Tağı, Xədicə xanım, Sadıq və Murad Nağıyevlər **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi martın 6-sında öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Mirzə Əsədullayev, öz övrəti və uşaqları ilə **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm- əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi martın 6-sında öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Yelizaveta Qriqoryevna Nağıyeva **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi martın 6-sında öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Mirzə Məhəmməd və Kövsər xanım Həsənovlar **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi martın 6-sında öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Bakı Cəmiyyəti-Xeyriyyəsinin İdarəsi öz fəxri üzvü **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə xəbər verir.

Mərhumun cənazəsi martın 6-sında öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Fətulla bəy Rüstəmbəyov **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi martın 6-sında öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Ağa Musa Nağıyevin ümdə kantorunun xidmətçiləri **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi martın 6-sında öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Bakı Tacirlər Bankı Şurasının sədri Hacı Zeynalabdin Tağıyev İdarə sədri **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi martın 6-sında öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Şəmsi Əsədullayevin oğlanlarının ümdə kantoru Ağa Musa Nağıyevin vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi martın 6-sında öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Səlim və Rüqiyyə xanım Sadıqovlar **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi martın 6-sında öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Neft mədənlərinin xidmətçiləri **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verirlər.

Mərhumun cənazəsi martın 6-sında öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Ümmüsəlimə xanım Nağıyeva **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi martın 6-sında öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Neft mədənlərinin fəhlələri **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi martın 6-sında öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

## HÖKUMƏT NİYƏ İSTEFA HALINDADIR?

Dünkü məqaləmizdə mərkəzlə solların ittihadından [birliyindən] hasil olacaq sabit bir mərkəzin nə kimi əsaslar daxilində təşəkkül edə biləcəyinin təhlilini bu günə vəd etmişdik.

Təşəkkül edəcək hökumətin tutacağı məslək, zamanın iqtizasına [tələblərinə] uymalıdır. Bu məsləkin "Bismillahir-rəhmanir-rəhim"i heç şübhəsiz ki, bütün türk fraksiyonlarının bəyannaməsində kamali-sərahətlə [açıqca] söylənmiş istiqlal və müdafieyi-istiqlaldan ibarət olmalı, ondan sonra isə istiqlal və hürriyyətimizi təhdid edən qara qüvvətlərə qarşı əzm və cəzmlə [qətiyyətlə] mübarizə edə biləcək bir mahiyyətdə olan ünsürləri barışdıra bilməlidir.

Bu məqsədlə təşəkkül edəcək və bir an əvvəl Məclisi-Müəssisan toplayacaq, dövlət idarələrini ciddiləşdirəcək, xalqla daha yaxından əlaqədə bulunacaq bir hökuməti və bu hökumətin arxasında duracaq ciddi bir əksəriyyəti, şübhəsiz ki, yalnız sola doğru təmayül edən bir mərkəz, bir koalisyon vücuda gətirə bilər. Müxalifət isə yalnız sağa münhəsir [məxsus] olar.

Fəqət bu əsası qəbul etməklə bərabər, digər bir əsas da vüqua gələcək etilafın [meydana çıxacaq uzlaşmanın] zəminəsini [təməlini] təşkil etməlidir. Firqələr Parlamandakı qüvvətləri nisbətində hökumətə iştirak etməklə bərabər, Kabinə rəisi haqqında şəxs etibarı ilə ittihad eyləməli və onun məsuliyyətini müştərəkən qəbul etməlidirlər. Eyni zamanda, heç bir firqəyə mənsub olmayıb da işgüzarlığı bütün etilafa gələcək firqələrcə məqbul olan bir-iki bitərəfin dəxi Kabinəyə girmələri münasib görülməlidir.

Bu surətlə təşəkkül edəcək bir Kabinəyə artıq ona bəyani-etimad etmiş firqələrcə ehtiramı lazım, etimadı zəruri bir heyət kimi tələqqi [qəbul] olunub heç bir müxalifətə baxmadan məmləkət gəmisi sürülməlidir. Yoxsa firqə mənfəətləri, propaqan[da] məqsədləri irəli sürülər, ölçüyə gəlməz bir taqım iddialarla meydana çıxarsa, o zaman böhran həman davam edib gedər. Böhranın davamı isə məmləkətin mənafeyinə heç də müvafiq deyildir.

Nə qədər ki, Parlaman böylə sabit əksəriyyət əsasını vəz edə [həyata keçirə] bilməmişdir, nə qədər ki, firqələr öz aralarında anlaşa bilməmişlərdir, o zamana qədər də hökumətin istefa halında qalması təbiidir.

Ümid edəlim ki, mülahizəsiz hücumları ilə hökumətin mövqeyini gevşətən [laxladan] firqələr, fəzlə firqəçilik üzündən yeni təşəkkül edəcək hökumətin işini dəxi işkal etməzlər [çətinləşdirməzlər].

*M. Ə.*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*(keçən nömrədən mabəd)*

**Musa bəy Rəfiyev** (məruzəçi - Müsavat) - Aşurov həzrətləri nitqlərində bir-iki söz söylədilər ki, onunla da Büdcə-Maliyyə komissiyasına yeni bir vəzifə vermiş oldular. Natiq deyir ki, Maliyyə-Büdcə komissiyasının varidat barəsində bir nəzəri varmı, mədaxil yollarını niyə göstərməyib, yaxud mədaxil yollarını niyə sormayıbdır? Bu bizim vəzifəmiz deyil, komissiya böylə bir vəzifə ifasına borclu deyildir. Büdcə-Maliyyə komissiyası ancaq bunu müzakirə edir ki, bu pul verilsin ya yox. Bir də, əgər kənar bir təşkilata pul verməli olsa, komissiya onun etibarlı olub-olmadığını təhqiq etməlidir. Bir də Sultanməcid [Qənizadə] ilə [Heybətqulu] Məhəmmədbəyov deyirlər ki, Bələdiyyə İdarəsi etibarlıdır, istədiyi qədər pul verilə bilər. Bəli, şəhərin o qədər etibarı var ki, 50, 100 hətta 150 milyon da borc edə bilər. Hələ qədimdə ingilis bankları şəhərimizə 28 milyon etibar edirlərdi. Şimdi biz öz paytaxtımız olan Bakıya 7 milyon vermək məsələsini qalxızmaq lazımmıdır? Özgə 30 milyon etibar etdiyi bir şəhərə, biz 7 milyon damı etibar etməyəcəyiz? Hərgah şəhərə bu pullar verilməsə, hökumətin borcudur küçələri təmir etdirsin, xəstəxanaları və məktəbləri saxlasın və sairəni öz öhdəsinə alsın. Əhməd [Cövdət] bəy buyurdu ki, şəhərin üsulu düz deyildir. Büdcə-Maliyyə komissiyası bu xüsusda müəyyən təklif təqdim edir. Əvət, şəhərin üsulu düz deyildir. Ona görə də məzkur [adı çəkilən] komissiya Daxiliyyə Nəzarətinə təklif edir ki, bələdiyyə intixabatı [seçkiləri] haqqında sürətlə bir qanun tərtib və Məclisi-Məbusana təqdim etsin. Şimdiyə qədər şəhərin öz təşkilatı vardı və bütün işlər bu təşkilatla idarə olunurdu. Bələdiyyə İdarəsi bu ana qədər öz vəzifəsini mümkün olan qədər ifa etmişdir. Fəqət, bundan böylə Daxiliyyə Nəzarəti bələdiyyə seçki qanunu hazırlamalıdır ki, şəhər idarələri demokratik üsul ilə seçilsin və idarə olunsunlar.

Qanun səsə qonularaq əksəriyyətiara [səs çoxluğu] ilə qəbul olunur. Borcun faizsiz olaraq buraxılması haqqında sosialistlər tərəfindən və 10 il müddətinə verilməsi barəsində Aşurov tərəfindən varid [daxil] olan təklif qəbula keçmir.

Növbədə: Dəmiryol tarifəsinin artması məsələsidir.

**Abuzər bəy Rzayev** (məruzəçi) - Keçən iclasda dəmiryol tarifələrinin artırılması məsələsinə baxdıq. Bu məsələ xeyli mühüm və camaata zərər toxuna biləcəyi ehtimal daxilində olduğundan, Parlaman qət eylədi ki, layihə çap olunub fraksiyalara göndərilsin. Qanun layihəsi çap olunub fraksiyalara göndərildi. İndi fraksiyaların fikrini bilmək lazımdır.

**Qənizadə Sultanməcid** (İttihad) - Keçən dəfə danışıldı ki, dəmiryol tarifələri artsın. Tarifəni bir dəfə də Seym artırmışdı. İndi o tarifələri bir daha artırmaq istəyirlər. Mən öylə bilirəm ki, dəmiryol əmələlərinin [işçilərinin] məvacibi və sair xərcləri artmış olduğundan, tarifələri artırmamaq olmayacaqdır. Çünki ayda 8 milyon manat zərər var. Əgər kirayə [daşınma xərci] artsa, güman edirəm zərər olmaz. Ona görə, malların kirayəsinin artırılmasına riza vermək olar. Malın üstünə nə qədər pul gəlsə, alış-verişçi də camaatın boynuna qoyacaqdır. Onsuz da alış-verişçilər storoja [mühafizəçiyə], streloçnikə [keçidçiyə, dəmir yolunda keçidlərə nəzarət edən və onları dəyişdirən şəxsə] və sairələrinə pul verir. 15 əvəzinə 30 artırsaq da alış-verişçiyə təfavüt etməz. Ona görə, mən buna etiraz etməyib, mal kirayəsinin artırılmasına riza verirəm, tainki yolun xərc və məxarici çıxsın. Amma sərnişin kirayələrinin artırılmasına riza verə bilmərəm. Biri var tacirdir ki, öz mənfəəti üçün gedir, verdiyi pulu da malın üzərinə gələcəkdir. Bir də var ki, vacib bir iş üçün başqa bir şəhərə gedir, heç mənfəəti də yoxdur. Məsələn, Gəncədən teleqraf gəlib ki, ailəsi naxoşdur. Əvvəl 5 manat verdiyi halda, indi 160 manat yol kirayəsi verməli olar ki, bu da kasıblar üçün xeyli müşküldür. Bu zülümdür, buna heç vaxt riza vermək olmaz ki, sərnişin biletləri də mal kirayəsi kimi artırılsın. Ona görə mən rica edirəm ki, Parlaman yük tarifələrinin artmasını layihədə göstərildiyi kimi qəbul etsin. Amma sərnişin biletlərini artırmasın. Seym qoyduğu qərar üzrə qiymətlər baqi qalsın.

**Ağa Əminov** (Müsavat) - Keçən həftə tarifələrin artırılması haqqındakı qanun layihəsi qəbul edilmədi. Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri buyurdular ki, dəmiryolunun ayda 8 milyon zərəri var. İndi deməli, keçən həftə qanunu qəbul etmədiyimizə görə gündə 70-80 min olmaq üzrə bu vaxtadək 2 milyon zərər etmiş oluruz. Hələlik yolun mədaxili olmadığına görə, bu zərərləri ödəmək üçün tarifələri artırmaq, yaxud kağız pulları çoxaltmaq lazım gəlir. Pulların çoxalması qədir-qiymətinin azalmasına və şeylərin bahalanmasına səbəb olur. Bugünkü iclasa sair smetalar dəxi gəlmişlərdir. Bunlar əsla mədaxili olmayan Nəzarətlərdə [Nazirliklərdə] məvaciblərin artırılması və qeyri məsarif haqqındadır. Bunların da artırılması ilə yenə də kağız pul artacaqdır. Bəzi natiqlər dedilər ki, sərnişin biletləri tarifəsi artmasın. Amma burasını bilməlidir ki, bu saat dəmiryolu ilə gedənlərin əksəri alış-verişçidir. Kəndçilər isə dəmiryolu ilə ancaq quberniya şəhərlərinə gedirlər. Bu da nüdrətən düşür [nadir olur]. Onların çox getdikləri uyezd [qəza] şəhərləridir ki, oralara da dəmiryolu olmadığından, hər kəs öz atı və arabası ilə gedir. Kəndçilərin quberniya şəhərlərinə gəlmələri üçün dördüncü sinif vaqonlar təklif olunur. Bunun da qiyməti üçüncü sinifdən ucuzdur. Böylə ki, Seym qabaqda 6 dəfə artırdığı üçüncü sinifdən indiki dördüncü sinif daha ucuzdur. Bir də o vaxt "Maksim Qorki" adlı dördüncü sinif bir qatar gedirdi ki, bir günlük yola 5 günə ancaq gedib çıxırdı. İndi isə dəmiryol naziri dördüncü sinfi sərnişin qatarı ilə yola salacaqdır. Bu surətlə fəqir-füqəranın da halı nəzərə alınıb yüngülləşdirilmişdir. Bir də istərdik deyək və sübut edək ki, tarifələrin artması malların bahalanmasına səbəb olmayacaqdır. Məsələn, bu saat şəhərdə hər şeydən ucuz kartofdur. Onun da putu bir manat artırılsa, girvənkəsinə 2 qəpik yarım düşür ki, bu da indiki vaxtda bir pul deyildir. Bir də buğda 160 manata qalxmışdı, indi yenə 120 manata düşmüşdür və halonki [halbuki] bu vaxt zərfində tarifə nə artmış, nə də əskilmişdir. Tarifə artmadığı halda, ət bahalaşmışdır. Halbuki tarifə artsa belə ətin qiymətinə təsir edəmməz, çünki qaramal çöl ilə gətirilir. Bu barədə fraksiyaların məlumatı olmadığından tarifələrin artmasına riza vermirlər. Amma biz təklif edirik, bu qanun müvəqqəti olduğu üçün qəbul edilsin və arzu edərdik ki, mütləqa müvəqqət olsun. O vaxta qədər də yollar naziri ətraflı məlumat toplar və hasil olan məlumatı əsl bir qanun layihəsi ilə təqdim edər. İndi isə "Müsavat" fraksiyası bu layihənin qəbulunu təklif edir.

**Əhməd Cövdət** - Keçən səfərki iclasda mən də, Əbilov cənabları da bu xüsusda öz nöqteyi-nəzərimizi bəyan etdik. Bu gün də bu məsələ müzakirə olunduğundan genə də fraksiya tərəfindən təkrar olaraq deyiriz ki, bizim nöqteyi-nəzərimiz budur ki, bu kimi layihələr Parlamana təqdim olunan vaxt Nəzarət gərək ətraflıca, bütün səfərlərlə bərabər səhih [doğru] məlumat versin. Nəzarət deyir ki, ayda 8 milyon zərər olur və bu zərərləri göstərmək üçün misal olaraq dekabr ayını götürür. Məlumunuzdur ki, dekabr ayı qarışıq bir zaman idi. O zaman bir çox vaqonlar əsgərlər tərəfindən alınmış, bütün dəmiryolu işləri cığırından çıxmış və idarə pərişan bir halda idi. Bu səbəblərdən bəlkə o ayda kassaya mədaxil gəlməmiş idi. Lakin getdikcə hərəkət qaydaya düşüb, işlər düzəlib, mədaxili də artmaqdadır. Yanvar ayındakı mədaxili bilməyiriz, lakin biz onu biliriz ki, zərər 8 milyon deyil, azdır. Yük tarifələrinin artmasına sözümüz yox, amma sərnişin tarifələrinin artması füqərayi-kasibənin mənafeyinə toxunacaqdır. Buyurdular ki, füqəra üçün ayrıca dördüncü klas vaqonu buraxılacaqdır. Amma o həman vaqonlardır ki, irəli 36 at doldurulurdu, indi 100 adam doldurulacaqdır. Amma hər vətəndaşın hüququnu gözləmək lazımdır. Biletləri artırmaq surəti ilə fəqir-füqəranın at vaqonu ilə getməsinə səbəbiyyət verilməsin. Bu mülahizələrlədir ki, yük tarifələrinin artmasına razı ola bilərik, amma sərnişin tarifəsinin artması əleyhindəyiz. Əgər alış-verişçilər üçün artırılırsa, bu pul onlardan başqa qayda ilə alınsın. Bunun üçün xüsusi bir qanun tərtib verilsin. Nəzarət, məxarici qapatmaq üçün yalnız böylə tarifə artırmaq və sairə kimi şeylər düşünməyib, başqa mədaxil yolları tapmağa çalışsın. Məsələn, bizim Gürcüstanda vaqon və paravozlarımız var, uzun müddətdən bəri orada saxlanılırlar. Onlar gərək tezliklə alınsınlar. Hökumət və Nəzarət bu xüsusda ciddi tədbirlər görməlidir. Bir para vaqon və paravozlarımız var ki, təmirə möhtacdırlar. Onların da təmiri ağır gedir, səbəbi də taxta əqsamının [hissələrinin] olmadığıdır. Nəzarət bu xüsusda da tədbirlər görərək haradan mümkün isə tapsın, meşələrə sifariş versin və işlər qabağa getsin. Bir də Hacıqabul istasyonunda paravozlar dəyişməlidir. Vaqonların bir çoxunu agentlər xüsusi işdən ötrü alırlar. Bu kimi xüsusi işlərdən ötrü təxsis edilən [ayrılan] vaqonların miqdarı azalmalı, hətta tamamilə camaata verilməlidir ki, camaat istifadə edə bilsin. Daha bir çox xüsuslar da var ki, tədbir görülsə, gediş-gəliş artar və dolayısı ilə mədaxil artaraq, zərər azalar, hətta heç zərər olmaz. Fraksiyamız tərəfindən təklif ediriz komisyonun yük tarifəsi artırılması haqqındakı təklifi qəbul edilsin, biletlərin qiyməti isə artırılmasın.

*(yenə var)*

## TƏƏSSÜRAT

Vüzəra böhranımız nə oldu? Bitdimi, bitmədimi? Bitmədi isə nə üçün bu cürə ciddi bir zamanda nə məntiqlə bu böhranı bu qədər uzadırlar? Yeni bir Kabinə təşkilinə hazır adamlarımız varmı? Varsa bəs neyçün Kabinə təşəkkül etməyir? Bəlkə təşkilinə mane olanlar var? Neyçün mane olurlar? Qorxmurlarmı ki, bu uzun böhran dövlətimizi həmi daxilən və həm də xaricən böyük müşkülata sala bilər?

Denikin qoşunu paytaxtımızdan tamamiləmi rədd oldu? Nə şərtlə onları yola saldıq? Silahlımı getdilər, silahsızmı getdilər? Nerəyə getdilər? Dağıstanamı? Bəs Dağıstan buna razı idimi? Şimaldan denikinlər hücumuna məruz qalan dağıstanlılar cənubdan dəxi denikinlilərin gəlməsinə nə nəzərlə baxarlar? Denikin hücumlarına qarşı dağıstanlı qardaşlarımız yalnızmı müdafiə edirlər? Biz onlara kömək yetirməyə borçlu deyilmiyik? Dağıstan denikinlilərin çəngalına [caynağına] keçərsə, bizim dövlətimizin halı necə olar?

Neyçün ingilislər flotun [donanmanın] silahlarını aldılar? Kimdən ötrü aldılar? Nədən ötrü inglislər flotun silahını alıb denikinlərə vermək istəyir, ingilislərlə Denikinin əlaqəsi nədir? Flotun silahından biz də istifadə edə bilərikmi????

Qərəz, bu növ suallardır ki, başımıza dolub cavab istəyirlər və cavab tapılmadığı halda beynimizi deşəcək dərəcədə bizi incidib istirahətdən salırlar.

Birdən istəyirsən ki, bu sualların hamısına bir kərəlik:

– Əşşi, mən nə bilim?!

deyib, yaxanı qurtarasan. Lakin olmur, suallar səndən əl çəkməyirlər. Nerədə olsan, nə halda olsan səni təqib edib cavab istəyirlər. Deyirlər, indi ki, qəzetəçi olub da bu cürə işlərə qatışırsan, onda bu sualların cavabını ver. Deyirsən ki, bu sualların cavabını gərək hökumət versin. Deyirlər ki, elə biz də onu soruşuruq ki, bəs hanı hökumət? Deyirsən ki, inşallah hökumət bu tezlikdə əmələ gələr. Deyirlər ki, hanı "bu tezlik" ki, hələ heç axırı görünməyir? Deyirsən ki, yəqin partiyalar səy edirlər ki, öylə bir möhkəm hökumət əmələ gətirsinlər ki, daha bir də itələyəndə yıxılmasın. Deyirlər ki, onlar səy edib yeni hökumət əmələ gətirincə düşmənlərimiz də "səy" edib başqa bir hökumət əmələ gətirərlər... O halda qalırsan belə, bilmirsən ki, nə cavab verəsən...

Birdən fikrinə bir şey düşür. O "şey" səni şadlandırır, qəlbin rahat olur, fikir səni basmır, hətta iştahın açılır. Vaxtında yeyib, vaxtında yatırsan və başındakı suallara deyirsən ki, bir az səbr ediniz, inşallah hamınıza cavab verəcəyəm.

O şey nədir?

Parlaman.

Bu gün Parlamanın iclasıdır. Gedərəm oraya və məbuslarımızın söhbətlərini eşidib işlərimizdən xəbərdar olaram. Bu ciddi və həyəcanlı vəqələrə dair nəzərlərini bilib – pis nəzər də olsa qəbuldur, təki nəzər yetirdiklərini bilim – cahil ikən alim olaram.

Saata baxıb görürəm ki, Parlaman iclasına bir qədər gecikmiş olacağam. Tez kağız-kuğuzlarımı yığıb kamaliəcələ [tələsik] və sürətlə Parlaman imarətinə tərəf yorturam ki, birdən:

– Nahaq yerə özünü yorma!

sədası məni bilaixtiyar dayandırır. Səda sahibi tanışımdır.

– Parlamanamı yüyürürsən?

– Bəli.

– Nahaq yerə.

– Neyçün?

– Bu gün zasedaniyanı [iclası] atlajit elədilər [təxirə saldılar].

– O neyçün?!

– Kvorum yox idi.

– Bəs o neyçün?!

– Məbuslar yığılmadılar...

– Hansı məbuslar?

– Əlbəttə müsəlman məbusları! Ermənilər, ruslar, yəhudi, polyaklar hamısı vaxtında gəlmişdilər. Müsəlmanlardan da ancaq bir neçəsi vardı. Yerdə qalanlarını sədr cənabları gözlədi, gözlədi; gəlib çıxmadılar. Ona görə də kvorum əmələ gəlmədi və iclas baş tutmadı.

Əgər mən bizim müqəddəratımızın parlaq gələcəyinə inanmayan bədbinlər cümləsindən olsaydım, bu əhvalatdan heç də mütəəssir olmayıb bədbinliyimi isbat edəcək keyfiyyətlərdən ən qüvvətlisidir, deyə sakit olardım.

Lakin bədbin olmadığıma görə sakit ola bilmədim və o dərəcə mütəəssir oldum ki, axırı özümə də acıdım...

Necə də mütəəssir olmayım ki, bu cür fövqəladə bir zamanda, Parlamanımızın fövqəladə iclaslar qurmağı lazım gələrkən, millət "seçilmişləri" öz adi vəzifələrini də ifa etməyib, müəyyən iclaslara gəlməyirlər və gəlməyib də gələnlərin də işini korlayıb məclisin baş tutmamağına səbəb olurlar.

Bu növ həyəcanlı bir zamanda Azərbaycan Parlamanı ikinci kərədir ki, məbusların yığılmadığına görə mövquf olub [işini dayandırıb] bizi əğyarlar [yadlar] yanında gülünc edir. "Yedinaya Rossiya" qəzetəsi bizim Parlamanımıza "əz bərayi xali nəbudəni mürasilə" qondarma bir şeydir dedikdə bizim acığımız tutur. Halbuki bu cürə gülünc töhmətlərə səbəbiyyət verən özümüzük.

*Üzeyir*

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

* Daxiliyyə naziri həzrətlərinin Azərbaycanda əxzi-əsgərdən [hərbi çağırışdan] ötrü müəssisə təşkili haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Daxiliyyə naziri həzrətlərinin məruzəsini təsvib ilə [bəyənməklə], tapşırılsın ki, Parlamana idxal edilmək üçün qanun layihəsi surətində tərtib versin.

* Qubernator [İbrahim ağa] Vəkilov cənabları tərəfindən Xariciyyə naziri müavini namına [adına] bir böylə teleqram gəlmişdir:

*"Şimdi Novo-Bayəzid qəzasının Zağalı kəndinin 311 nəfərdən mürəkkəb [ibarət] bir heyəti mənim yanıma gəlib məlum etmişlər ki, onların kəndi ermənilər tərəfindən xarabazara döndərilmişdir. 15 nəfər müsəlman qətl edilmişdir. Öz kəndlərini buraxaraq Gəncə quberniyası tərəfinə azim olmuş [yola düşmüş] kəndlilər bir neçə nəfər də donmuş tələfat vermişlərdir. Bunların heç bir şeyləri yoxdur.*

*Qubernator Vəkilov"*

## SÜLH ƏTRAFINDA

* Paris – Mütarikə şəraitinin [atəşkəs şərtlərinin] daha ağır olmasından bəhs edən qəzetələr deyirlər ki, general Foş bu axır vaxtlarda hədəyə məcbur olmuşdur ki, bu yolla Almaniya nümayəndələrini mütarikə komisyonunda iştirak etməyə vadar etsin. Bu axırıncı iki həftədə Almaniya nümayəndələri öz vəziyyətlərini dəyişdirmişlərdir. İndi onlar bəyan edirlər ki, ancaq qələbəsiz sülhü qəbul edəcəklərdir. Bundan əlavə, fransızlar zənn edirlər ki, Almaniya, qoşunlarının tərxisini dayandırıb şərq xəttinə Hindenburqun komandası altında 18 firqə [diviziya] qoşun qoymuşdur. Müttəfiqlər bu etiqaddadırlar ki, Almaniyanı öylə bir vəziyyətə qoymalıdırlar ki, Almaniya mütarikə maddələrinə müqavimət göstərə bilməsin. Foş Ali Hərbi Şurada bəyan eyləmişdir ki, almanlar özlərinin məğlub olduqlarını yadlarından çıxarırlar. Onlar nəqliyyat vasitələrinin təslimini təxirə salmaqla müşkülat törədirlər. Foşun əqidəsinə görə, Müttəfiqlər Esseni işğal etməlidirlər.

* Berndən göndərilən teleqraf xəbərlərindən anlaşılır ki, Haaze Berndəki sosialistlər konfransından çıxarkən bəyan eyləmişdir ki, feldmarşal Hindenburq Şərqi Prussiyada altı yüz min nəfərlik könüllü ordu təşkil edir və məqsədi Almaniyada köhnə üsulu bərpa etməkdir. Hindenburqun ərkani-hərbi [qərargahı] Kolberqdədir. Haaze təklif edir ki, Müttəfiqlər Hindenburq qoşunların[ın] hərəkətinə diqqət etsinlər. Lazım olarsa, bu qoşun cəminə [yığılmasına] bir sərhəd qoysunlar.

* "Tan" qəzetəsi deyir ki, Ukrayna Şurası Müttəfiqlərlə müştərəkən məşvərətdə bulunmağı qəbul etmişlərdir. Fəqət onlar Parisi Böyükadaya tərcih verirlər və təvəqqe etmişlər ki, fevralın 10-unda məşvərət məclisi qurulsun.

## TELEQRAF XƏBƏRLƏRİ

* Zürixdən verilən xəbərlərə nəzərən fevralın 8-ində axşam Berlində spartaklar böyük bir iğtişaş çıxarmışlardır. Matroslarla saldatlar Eyqoronun təhti-komandasında [komandası altında] mühüm nöqtələri işğal etmişlərdir. Hökumət qoşunları nəticədə atəş açıb 8 nəfəri öldürüb, 40 nəfəri də yaralamışlardır. Dəhşətli sansür [senzura] qoyulmuşdur.

* Köln – Rəsmi surətdə xəbər verilir ki, orta siniflərin tətili qurtarmışdır. Spartaklar burjuaznı tətilçilərin tələbatını qəbul etmişlərdir.

* İstanbul – Erməni qırğını salmaqla itham edilənlərin işləri Divani-Hərbdə [Hərbi Məhkəmədə] mühakiməyə başlamışdır. Sabiq qubernator Kamal bəy və jandarma rəisi Tofiq bəy də müqəssirlər arasında vardır. Erməni hüquqşünaslarının bəyanatına görə, 3700 nəfər erməni qırğında tələf olmuşlar.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 5 mart (Çərşənbə günü) tarixli 129-cu nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Bazel – Kovnodan [Kaunasdan] çəkilmiş olan teleqrafa nəzərən Litva qoşunlarının müvəffəqiyyəti və Fin-Eston qoşunlarının irəliləməsi münasibətilə bol-şeviklər Vilna [Vilnüs] şəhərini təxliyə edir.

* İngiltərədə həftədə 40 saat işləmək tələbi uğrunda əmələlərin tətil hərəkatı getdikcə artır.

**Macarıstanda tətil**

Amsterdam – Budapeştədən verilən xəbərlərdən anlaşılır ki, bütün Macarıstanda çexlərə qarşı tətil elan edilmişdir. Bu tətildə dəmiryol, ticarətxana və şəhər idarələri məmurları ilə əmələlər iştirak edirlər. Bütün işlər dayanıb, bütün mağazalar, mehmanxanalar, qəhvəxanalar bağlanmışdır.

Köln – Orta sinif spartakların üsuli-darəsindən narazı olduğundan, Düsseldorfda əhval yaxşı deyildir. Spartaklara qarşı bir çox qəzetələr, advokatlar, doktorlar, mehmanxanalar tətil elan etmişlərdir.

**Almaniyada iğtişaş**

Berlin – Almaniyanın bütün qitələrindən [hissələrindən] iğtişaş barəsində xəbərlər alınmaqdadır. Düsseldorf ilə Hamburqda vətəndaş müharibəsi davam edir. Şuralar Lübekdə teleqrafla telefon idarələrini əllərinə keçirmişlərdir və məqsəd də budur ki, hökumətə xəbər verməyə imkan verməsinlər. Lakin buna spartalar nail olmamışlardır. Zira məmurlar spartaklara qarşı vəziyyətlərini dəyişdirmişlərdir. Spartaklar Milli Məclis əleyhinə təbliğatda bulunurlar.

Berlində ümid edirlər ki, mərkəzi firqə yeni hökumətə daxil olmaqla hökumətin vəziyyəti möhkəmləşəcəkdir.

Tiflis, 1 mart (ingilis mətbuatı) - Bugünlərdə Paris qəzetələrində böylə məlumat var idi ki, guya sualtı qayıqlarını məhv etmək istəyirlər. Bu barədə Royter ajansı mövsuq [etibarlı] mənbədən xəbər verir ki, İngiltərə tərsanəsi sualtı qayıqları inşa edən zavodların məhv edilmək və bundan sonra sualtı ilə müharibə etməmək planını təsvib edir [bəyənir]. Əlbəttə bu tədbir beynəlmiləl müahidə [saziş] tərəfindən təsvib və təmin edilməlidir. İngiltərənin Bəhriyyə Nəzarətində bu məsələ əhəmmiyyəti haizdir [əhəmiyyət daşıyır]. Zira İngiltərənin hal-hazırda külli sualtı qayıqları vardır və bundan sonra da sualtı qayıqları inşa etmək fikrində idi.

**Bavariyada Şura Cümhuriyyəti**

Berlin, 23 fevral – Bavariyanın Münxen şurası iclasında şura cümhuriyyəti elan edilmişdir. İclasda qərar qoyulmuşdur ki, füqəra sinfi təslih edilsin [silahlandırılsın]. Sosializmi yeritmək və sosialist firqələrini birləşdirmək üçün komitələr intixab edilmişdir [seçilmişdir]. Şura cələsəsində [iclasında] Bavariyanın məşrutəsi [konstitusiyası] elan edilmişdir. Belə ki, daimi qoşunlar buraxılıb bunun əvəzinə kəndçilərdən qvardiya təşkil ediləcəkdir. Münxendə olan bütün qəzetə idarələri şura qoşunları tərəfindən işğal edilib Münxendə yalnız şura xəbərləri nəşr edilir.

Krakov – Polyaklarla nemeslər arasında mütarikə şəraiti [atəşkəs şərtləri] imza edildi. Bu şərait mövcibincə [bu şərtlərə əsasən] Almaniya polyaklara qarşı olan hərəkati-hərbiyyəni dayandırır. Almaniya əsgərlərinə sərhədi keçmək qadağan edilir.

## QƏZETƏLƏRDƏN

**Orenburq**

Fevralın 29-unda verilən bolşevik simsiz teleqraf xəbərlərinə nəzərən Ural kazakları tərəfindən təzyiq edilən Qırmızı qoşun Orenburq şəhərindən çıxmışdır. Şəhər Dutov kazakları tərəfindən işğal edilmişdir.

- Yenə həman xəbərdə denilir ki, Qırmızı qoşunlar Vyatka şəhərindən çıxmışlardır. Bunlar cənub-qərb tərəfinə ricət edirlər [çək-ilirlər].

- Qafqaziyadan Odessaya külli erməni qoşunları varid olmuşdur [gəlmişdir].

**Hindenburqun həbsi**

Berlində hökumətin əmri üzərinə feld-marşal Hindenburq və gen-eral Radek həbsə alınmışlardır.

* Şimali Qafqaziyadan bir çox bolşevik komissarları Hacı-Tərxana qaçmışlardır.

* Sabiq Xariciyyə naziri Sazonov Parisdə məlum eyləmişdir ki, Rusiyanın köhnə üsula qayıtması mümkün deyildir və kimsə bunu arzu etməz.

* Dardanel boğazı ticarət gəmiləri üçün açıqdır. Odessa ilə Yaffa arasında gəmilər hərəkatı başlanmışdır.

## BAKI XƏBƏRLƏRİ

**Zabrat kəndində mitinq**

Şənbə günü martın biri, saat 3-də Zabrat kənd əhalisi Nəşri-Maarif məktəbi binasında ictima [yığıncaq] edərək hökumətin istefa vermək məsələsini müzakirə bə'dində [müzakirə etdikdən sonra] "Azərbaycan" qəzetəsi vasitəsilə zeyldəki [aşağıdakı] təklif ilə Azərbaycan Parlamanına müraciət etməyi təhti-qərara aldı:

Bu kimi xətrəli [təhlükəli] bir mövqedə hökumətin istefası gözləmədiyimiz bir ittifaq [hadisə] qəbilindən olduğu kimi, yeni Kabinənin təşkilini təxirə uğratmaq yaxud Kabinə təşkilində ixtilafa yol vermək son dərəcə dəli [başısoyuqluq] olduğu nöqteyi-nəzərindən yeni Kabinə təşkilində təxiri caiz görməyib, heç bir ixtilafa yol verməksizin Parlamana əksəriyyət təşkil edən mərkəz və ondan sol fraksiyalardan demokratik hökumət vücuda gətirilməsinə bəzli-məsai edilməsini [çox səy göstərilməsini] rica ediriz və əlavə olaraq vətən istiqlalını bütün maneələrə qarşı müdafiəyə hazır olmamız kimi, xəyanəti-milliyyə kimi əzim [böyük] bir cinayətə irtikab etmişlərinin [batmışların] hökumət idarəsini təsahüb etməsinə [hökumət idarəsinə sahib çıxmasına] əbədən razı olmayacağımızı da ittila [xəbər] veririk.

*Sədr: Qiyas Əlizadə*
*Katib: Hüseynzadə Məzahir*

**Balaxanıda Maarif Cəmiyyəti**

Neçə il əqdəm [qabaq] kəndimizdə "Qardaş birliyi" maarif cəmiyyəti adında ziyalılarımız tərəfindən bir cəmiyyət təşkil olunmuşdu. Məzkur [deyilən] ziyalılarımız öz bacardıqları qədəri maarifə xidmətdə bulundular. "Ənvər" adlı bir qiratəxana da açmışdılar, lakin məəttəəssüf [təəssüf ki], bəzi səbəblərə görə cəmiyyətimiz yarımcan, hətta bu axır vaxtlarda ölüm halətində olub, kəsbi-afiyət etməsinə [sağalmasına] heç kəs ümid etməyirdi. Fəqət srağagün mart ayının 3-ündə məzkur ziyalılarımız tərəfindən cəmiyyəti ehya etmək [diriltmək] qəsdi ilə bir ictima [iclas] qurulub, atidə [aşağıda] isimləri mündəric zatlardan [adları dərc olunan şəxslərdən] ibarət idarə intixab olunub [seçilib] təzədən işə şüru etdilər [başladılar].

Heyəti-idarə bu zatlardan ibarətdir:

Sədr: Sahib Maqsudi; katib: Həbib Cəbizadə; xəzinədar: Fətulla Hüseynzadə.

**Dəmiryolunda parovozun yoldan çıxması**

Sabunçu stansiyasında dəmiryol xətti bir yerindən xarab olduğuna görə parovoz yoldan çıxmışdır. İnsan tələfatı yoxdur. Bu səbəbə görə 48 nömrəli qatar 30 dəqiqə təxirə uğramışdır.

**Şikayət**

Üçüncü məntəqə əhalisindən 205 nəfərin imzası ilə Sentrodoma [Mərkəzi Ev Komitəsinə] bir ərizə verilərək bildirilmişdir ki, fevralın 28-ində vaqe olmuş iclasda seçkilər düz olmamışdır. Çünki, orada camaatı çox sıxışdırmışlardır. Camaat öz istədiyi adamları seçə bilməmişdir. Hətta ziyalılar iclasa iştirak etməyərək zaldan çıxmışlardır, həm də camaatın həpsinə xəbər verilmədiyindən 800 seçki[çi] əvəzinə ancaq 150 adam iştirak etmişdir.

**Hadisat**

Patron tutulması

3-üncü uçastokun pristavı Mollazadə Bakı qalabəyisinə [komendantına] məlum etmişdir ki, Persidski və Serkovnı küçələrin küncündə faytonda gedən bir şübhəli şəxsi tövqif [həbs] etmişdir. Axtardıqda faytondakı Qobu kəndinin əhli Yahya İsrafil oğlu olub, bir kisə patron tutulmuşdur. Məzkur [adı çəkilən] şəxs onu azad etmək üçün okolotoçnıya 200 manat pul təklif etmişdir. Pristav pulu və patronları qalabəyinə təqdim edib və rica etmişdir ki, həman pul məzkur şəxsi tövqif etmiş olan qaradavoya verilsin.

* Məlik Balaağa oğlu məlum etmişdir ki, Krasnovodsk[i] küçədə müsəlləh bədəfkarlar [silahlı cinayətkarlar] ona hücum edərək 6325 manatını qarət etmişlərdir.

3-üncü uçastok pristavı Mollazadə bədəfkarların birisinin gizləndiyini eşidərək dərhal onu axtarıb həbs eyləmişdir.

**Cərimələr**

Bakı qalabəyisi [Lütfəli bəy] Əmircanovun binagüzarlığı [sərəncəmı] ilə Bakı sakini Aslan Avakoviç Altunyans icazəsiz mauzer tapança gəzdirməkdə müqəssir hesab edilərək 1000 manat cərimə edilmişdir.

Şamaxı əhli Tatevos Xaçiyeviç Tarzanov icazəsiz olaraq yanında 15 dənə üçaçılan tüfəng patronu gəzdirməkdə müqəssir hesab edilərək 25 manat cəriməyə məhkum edilmişdir.

**Soymaq**

- 7-inci Çornıqorod küçəsində Hacıyevin 19 nömrəli evinə 5 nəfər naməlum bədəfkarlar hücum edərək ev sahibinin bütün müxəlləfatını [ev əşyalarını] qarət etmək istəmişlərdir. Həman evdə sükunət edən Bağırov öz yoldaşları ilə bədəfkarlara müqabilə göstərmək istəmişlər və bir qədər atəşdən sonra oğrulardan birisini öldürmüşlər, qalanı isə qaçmışdır.

- Zabratlı Əsli Əliyoldaş qızı 3-üncü uçastok pristavına məlum etmişdir ki, həman kəndin əhilləri Musa və Fərəc Kərbəlayı Bəhram oğlanları pəncərəsini sındırıb onun evindən 2000 manatlıq ev müxəlləfatı oğurlamışlardır. Oğrular tövqif [həbs] edilmişlərdir.

- Balaxanılı Gülziyad Eyvaz qızı polisəyə məlum etmişdir ki, o, evdə olmadığı halda naməlum bədəfkarlar onun evindən 70000 manatlıq ev müxəlləfatı və qızıl oğurlamışlardır.

**Öldürmək**

Martın 2-sində Kaspi Neft Cəmiyyətində işləyən İran rəiyyəti Əbdülhüseyn Əhməd oğlu xəncər yarası ilə öldürülmüşdür. Qatilləri məlum deyildir. Onları axtarmaqdan ötrü tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

**Bələdiyyə İdarəsində**

Maliyyə Nəzarəti Bələdiyyə İdarəsinə müraciətən məlum etmişdir ki, əhali miyanında [arasında] əskilmiş [köhnəlmiş] pulları yenisinə dəyişmək üçün böyük ehtiyac hiss edildiyindən Maliyyə Nəzarəti işbu düsturüləməli [təlimatı] tərtib və təsdiq etmişdir ki, ehtiyacı bərtərəf etsin [aradan qaldırsın]. Kağızın axırında Nəzarət Bələdiyyə İdarəsindən rica etmişdir ki, pul dəyişməsi məsələsini olduqca təcili surətdə qövldən feilə [sözdən əmələ] gətirsin.

**Düsturüləməl**

Bakı Bələdiyyə İdarəsinin və şəhər təsərrüfatı əski pullarını dəyişmək haqqındakı düsturüləməl:

1) Bakı Bələdiyyə İdarəsi və şəhər təsərrüfatı əski pulları (bon) işbu yerlərdə dəyişilməldir: a) Dövləti bankın Bakı şöbəsində; b) Xəzinədə.

2) Padşahlıq bankı əski pulları fəqət [sadəcə] xəzinə üçün məcburən dəyişməlidir. Xüsusi adamlar və xüsusi müəssisələr üçün isə mümkün dərəcədə dəyişəcəkdir.

3) Xəzinə hamısı üçün pulları dəyişəcəkdir. Belə ki, Bakıda xəzinə bir nəfər üçün qeyri-məhdud miqdarda dəyişə bilər. Gəncə xəzinəsində isə bir nəfər üçün 10.000 rublə, başqa yerlərdə isə 1000 dəyişəcəkdir.

4) Dəyişməli pullar bir pul olduğu halda yüz-yüz bağlanmalıdır.

5) Pullar yeni pullara dəyişiləcəkdir.

6) Gəncə və Zaqatala və başqa qəza xəzinələri köhnə pulları ancaq Bakı xəzinəsinə göndərib yeni pullar almalıdır.

7) 6-ıncı maddədə göstərilmiş kimi göndərilən pullar öylə bağlanmalıdır ki, içərisindəki məlum olsun və göndərən xəzinənin möhürü və ünvanı lazımdır. Hər böylə bağlı üzərində işbu imzalar olmalıdır: Xəzinədar və baş hesabdar, dəxldar [kassir] və hesapçı. Bunlar bağlı pul üçün cavabdehəndədirlər.

8) Böylə bağlanmış bağlılar Bakı xəzinəsində açılıb təhqiq edilir.

9) Məhəlli xəzinə 7-inci maddədə göstərilən kimi bağlıları Padşahlıq bankına verir. Bank onları açmayır və məsuliyyəti də öz öhdəsinə götürməyir.

10) Qəbul edildikdə işbu pullara baxmalıdır: 10 rubləlik (Bələdiyyə İdarəsinin) və həman Bələdiyyə İdarəsinin 25 rubləliyinə və şəhər təsərrüfatının da hamı pullarına. Zira qayırma pullar çoxdur.

11) Bunları xarab etmək üçün bankla Maliyyə Nəzarəti miyanında [arasında] etilaf [razılaşma] üzrə gün təyin edilir.

12) Xarab ediləcək pullar bağlıları təhqiq edildikdən sonra işbu nümayəndələrdən mürəkkəb [ibarət] bir komisyon hüzurunda sayılır: Bank, Maliyyə Nəzarəti dəftərxanası nümayəndəsi, bon qayıran litoqrafiya, Dövləti Kontrol [Dövlət Müfəttişliyi] və Bələdiyyə İdarəsi. Kömək üçün həman müəssisələrin hesabdarları da göndərilə bilərlər.

13) 10-uncu fəsildə göstərilən pullar litoqrafiya nümayəndəsi tərəfindən təhqiq edilməlidir.

14) Böyləliklə təhqiq edildikdən sonra pullar xüsusi komisyon hüzurunda yazılır.

15) Komisyon öz işləri barəsində məzənnə tərtib verərək qayırma çıxan pullar barəsində bəratülqövl [protokol] bağlamalıdır ki, müqəssirlərə cəza verilsin.

## BAKI QUBERNİYASINDA

**Rüşvət almaq**

Rəcəblər kəndinin əhli Məşhədi Heybət Kərbəlayı Məhəmməd oğlu qubernatora verdiyi ərizədə məlum edir ki, məzkur [adı çəkilən] kəndin yüzbaşısı onu həbs edərək 1000 manat rüşvət aldıqdan sonra azad etmişdir. Həmin işi təhqiq etmək Cavad uyezd naçalnikinə həvalə olunmuşdur.

**Quldurların hücumu**

Cavad uyezd naçalniki qubernatora məlum etmişdir ki, Saraytəpə uryadniki fevralın 8-ində İran sərhədinə yaxın olan Məhəmmədrzalı kəndi əhalisindən bir dəstə təşkil edib İran quldurlarının – Şahsevənlərin qətl-qarət etmələrinə imkan verməməkdən ötrü getmişdir. Həman kəndin yaxınlığında Azərbaycan Cümhuriyyətinin sərhədini keçmiş olan bir dəstə quldurlarla atışmaya başlamışlar. Quldurlardan bir nəfəri öldürülmüş və qalanları isə İran torpağına qaçmışlardır. Uryadnikin dediyinə görə, quldurlar Mil səhrasında olan kəndlərə hücum etməkdən ötrü 300 nəfərdən ibarət bir quldur dəstəsini təşkil etmişlərdir. Quldurlarla mübarizə etməkdən ötrü naçalnik tərəfindən ciddi tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

## AZƏRBAYCANDA

**Borsunludan**

Gəncə qəzasının maarif müfəttişi Cavad bəy Cuvarlı cənabları 11 fevral tarixində şəhərdən çıxıb qəryələrdə [kəndlərdə] olan məktəblərə nəzarət yetirib, hər qəryələrdə camaatı məktəbə cəm edib oxumağa və təzə məktəblərin açılmasına təhris və tərğib edib [təşviq edib və rəğbətləndirib], bəzi qəryələrdə uşaqları icbarən məktəbə qoydurdu. Binəva avam müsəlman camaatı ağlayaraq iltica edirdilər [yalvarırdılar] ki, bizim əhvalımıza rəhm eylə, bizim uşaqlara yazığın gəlsin, bizim əlimizdən alıb məktəbə qoyma, çünki bu[n]ların oxumaq və məktəbə getmək vaxtı deyil, ancaq 15 yaşları var…

Müfəttiş cənabları o cümlədən Borsunlu qəryəsində camaatı məktəbə dəvətlə uşaqları oxudub və imtahan edib sonra uşaqlara bir neçə düşüncəli sözlər dedi ki:

*"Oğlanlarım, sizlər oxumaqdan ötrü çalışın, oxuyun, ta ki, xoşbəxt olasınız!"*

*Sonra üzünü camaata tutub dedi ki:*

*"Ay camaat, qardaşlar! İndiyə kimi bu məktəblər olmuşdu rus əlində. Düzdür, rus hökuməti məktəblər açmışdı bizim içimizdə, lakin məhz ruslaşdırmaq politikası ilə. Amma indi, əlhəmdülllah, məktəblərdə olanlar öz müəllimlərimiz və ruhanilərimizdir. Yaxşı oxunur "Quran" dərsi və türk dilimiz və şəriətimiz. Lazımdır bundan sonra uşaqlarınızı ürəklə göndərəsiniz məktəbə və əlavə bizim hökumətimiz yeni bir hökumətdir. Bu saat bizlərə ən vacib odur ki, çalışaq mədəni olaq, yəni işə yarayan. İşə yaramaq dəxi oxumaqla olar. Gərək millətimiz oxusun, biri maşinis[t] olsun, biri teleqrafçı, biri mexanik, biri müəllim, tainki hökumətimizi öz əlimizdə saxlamağı bacaraq. Keçən zəlilanə əhvalımızı yada salıb indiki azad halımıza şükür edək, böyük nemət sanıb qədrini bilək."*

Camaat bu sözlərə qulaq asıb maarif işlərinə həvəs etməyə başladılar.

*M. Ayn. Naxçıvani*

## GÜRCÜSTANDA

**Gürcüstan Məclisi-Müəssisanı**

Gürcüstan Məclisi-Müsəssisanının birinci iclası martın 9-unda və ya 12-sində açılacaqdır.

**Gürcü-erməni münasibatı**

Gürcüstan ilə Ermənistan arasında siyasi münasibat [əlaqələr] bərpa edilmişdir. Bu yaxınlarda İrəvana Gürcüstan siyasi nümayəndəsi təyin ediləcəkdir. Tiflisdə olan erməni heyəti Tumanov başda olmaq üzrə işə başlamışdır.

**Ağahüseyn Tağıyevə suiqəsd**

Cümə günü fevralın 28-ində səhər saat 8-də Sululaq küçəsində "İnternasional" nömrələrində yaşayan Bakı taciri Ağahüseyn Tağıyevi beş nəfər qarətgər soymaq istəmişdir. Ağahüseynin səsinə milisionerlər gəldikdə canilər güllə ata-ata qaçmağa başlamışlar. Qarətgərlərdən ikisi tutulmuşdur. Biri ölüb, digəri qaçıb qurtara bilmədiyindən özünü öldürmüşdür.

**Batumda**

Məhəlli [yerli] əhali ilə bərabər fəhlələr də şəhərə qayıdıb işə başlamaqdadırlar. Əczaxana qulluqçularının tətili qurtarmışdır. Kobulet[i]də yerli polisə idarəsi Acarıstanın azadlığı üçün çalışan komitənin fəaliyyətini dayandırmışdır. Bununla belə, rəqiblər asudəcə təşviqat yapmaqdadırlar. Onlar məzkur [adı çəkilən] komitəni əhali nəzərində alçaqlatmağa çalışırlar. İngilislərə təqdim etməkdən ötrü təzə müxtirə [nota] hazırlanmışdır. Bu müxtirədə yerli əhali Cənub-Qərb Cümhuriyyətinə mülhəq olmağı [birləşməyi] tələb edirlər. Bir neçə kəndi həmin müxtirəni imza etməyə məcbur etmişlərdir. Şübhə yoxdur ki, imzalanmış bu müxtirəni, əhalinin arzusunu bəyan edici bir sənəd olmaq üzrə Sülh Konfransına göndərə cəklər.

**Krımda**

"Tavriçeski qolos" qəzetəsinin təşəbbüsatı ilə Vilsona və Amerika camaatına müraciətən göndəriləcək müştərək ərzi-hal [kollektiv ərizə] yüz minlərcə arvadlar tərəfindən imza edilməkdədir. Bu ərzi-halda bolşeviklər əleyhinə ediləcək mübarizə üçün müavinət göstərilməsi xahiş olunur. "Yedinaya Rossiya" cəmiyyəti də böylə bir ərzihal verəcəkdir.

## İDARƏYƏ MƏKTUB

Müdir əfəndi!

Sizin dünkü nömrənizdə böylə bir fəqərə [hadisə] yazılmışdı:

"Eşitdiyimizə görə, müsəlman sosialistləri bugünlərdə Parlamanda bir deklarasiya oxuyacaqdır. Deklarasiyada müsəlman sosialistləri Rusiyanın federasiya əsası üzərində qurulması əsasını qəbul etdiklərini bəyan edəcəklərmiş. Rusiya sosialistləri ilə bu barədə etilaf [razılıq] əmələ gəlmişdir."

Bununla bəyan edirəm ki, bu yazılan şeylər həqiqətdən kənardır. Sosialistlər fraksiyasında böylə bir qətnamə olmamışdır.

*Sosialistlər fraksiyon rəisi:*
*S[əməd ağa] Ağamalov*

**İdarədən:** Bu rəddiyyəni [təkzibi] kamali-məmnuniyyətlə dərc edib də qəzetəmizdə sosialistlərimiz barəsində müğayiri-həqiqət [həqiqətə zidd] bir şayiənin dərci keyfiyyətindən dolayı bəyani-etizarla [üzr istəməklə] bərabər izhari-təəssüf edirik [təəssüfümüzü bildiririk].

## TEATRO VƏ MUSİQİ

**"Şah İsmayıl"**

Türk-Azərbaycan səhnəsi, həm opera repertuarı yeni bir əsərlə zənginləşmişdir. Cümə günü Hökumət Teatrosunda həman bu yeni əsər mövqeyi-tamaşaya qoyulacaqdır. Yeni operanın süjesi xalq arasında məşhur olan "Şah İsmayıl" nağılından götürülərək mərhum Mirzə Qədir İsmayılzadə tərəfindən yazılmışdır. Musiqi qismini isə Hacıbəyov Qardaşları müdiriyyətinin dirijoru musiqişünas Müslüm Maqomayev cənabları yazıb musiqiyə salmışdır. Müslüm bəy əfəndi məzkur [adı çəkilən] operanın üstündə çox çalışaraq repertuarımızı zənginləşdirmişlərdir.

Bu əsər səhnədə birinci dəfə oynanacaqdır və Hacıbəyov Qardaşları müdiriyyəti yeni operanın ilk dəfə təntənə və şükuhlu [xoşagələn] bir surətdə çıxması üçün tədbirlər görmüşdür.

## İDARƏDƏN CAVABLAR

**Şəkidə Əbdüləhəd xan Sultanzadə əfəndiyə:** Bildiyimizə görə, türk tələbələri içində təhsil üçün Amerikaya getmək həvəsi indilikdə artıq yoxdur. Bu xüsusda qəzetəmizdə bir neçə münasibihal [vəziyyətə uyğun] məqalələr yazılmışdı. Türk tələbələri bu müvəqqəti "universitetsizlik" vaxtları öz ana dillərinin təhsilinə sərf etməyə çalışsalar, vətən və millətin gələcəyi üçün xidmətlər göstərməyə qadir olarlar.

**Qazaxda H. Q. əfəndiyə:** Yazdığınızı bərayi-təhqiqat [təhqiqat üçün] Daxiliyyə Nəzarətinə göndərdik. İmzanız məhfuzdur [gizli saxlanmışdır].


**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Diş həkimi**
**İ. S. Tarşteynbaum**

Qəbul edir saat 9-2, saat 4-7.

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır.

Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında). Telefon nömrə 22-07.

*2669*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir.

Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Mama Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.)

*2695*

**Arvad həkimi Y. A. Qirişqori**

Knyaz Kropotkin namına olan sabiq Xarkov uşaq xəstəxanasının müdirinin müavini daxiliyyə və uşaq xəstəliklərini qəbul edir hər gün səhər saat 11-dən 1-ədək, axşam saat 4-dən 7-yədək. Cümə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Spasski küçə nömrə 33, Kamenisti küçənin küncündə.

*5701 12-4*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bövl [idrar] yolu azarını, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Kolyubakinski küçədə Parapetin küncündə ev nömrə 26.

*5708 12-4*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Doktor Şahnəzərov**

Qayıdıb naxoşları qəbul edir: kif, süzənək və dəri azarlarını. Səhər saat 9-12-yə, axşam saat 4-7-yə. Armyanski küçə nömrə 3, Qubernskinin tinində.

*2699*


**İtibdir**

Heybət Ağakişi oğlu və Qaraş Məhəmməd oğlu. Əyninə boz pencək və kürk geymiş, 25 sinnində, uca boylu. Heybət Məşhədi Ağakişi oğlu isə əyninə kürk geymiş, 35 sinnində, orta boylu. 25 gündür ki, çöldən Bakıya gəliblər, yoxdurlar. Onların barəsində bir məlumat bilənlərdən çox xahiş edirəm ki, gəlib Suraxanski küçə nömrə 144 Əliəkbər Əliəkbərova müraciət etsinlər.


**Doktor Larionovun**
**cərrahiyyə və arvad xəstəxanası**

(Bazarnı və Qubernski küçələrinin küncündə) naxoşlar qəbulunu təzələmiş: 1) Xəstəxanada yatmaq ehtiyacı olanlar həməvəqt [həmişə]; 2) Gələn xəstələri səhər saat 9-dan gündüz saat 4-ə qədər.

Xəstəxananın həkimləri:

Arvad xəstəliklərindən: doktor V. Q. Mitrofanov. Cərrahi xəstəliklərindən: doktor A. İ. Okinşeviç, doktor Mir Əsədulla Mirqasımov.

*2683*


**Bakı Şəhər İstiqraz Cəmiyyəti**

Bununla elan edir ki, 1917-ci sənəsi dekabrın 17-də 21918 nömrəli kağız ilə Petroqraddan padşahlıq kağız pulları hazırlayan idarə tərəfindən Cəmiyyət abliqatsiyasının [istiqraz vərəqəsinin] 5 faizli 2419 nömrəli qiymətli posılkasıyla göndərilmiş olan birinci seriya müxtəlif nömrələr ilə 100 manatlıq 2324 nömrədən 2459 nömrəyədək, 500 manatlıq 2824 nömrədən 2980 nömrəyədək, 1000 manatlıq 8516 nömrədən 8859 nömrəyədək; və ikinci seriya müxtəlif nömrələr ilə 100 manatlıq 5331 nömrədən 5480 nömrəyədək, 500 manatlıq 6261 nömrədən 6430 nömrəyədək və 1000 manatlıq 1935 nömrədən 19724 nömrəyədək; 20 kuponlar və talonlar ilə cümlətan 666200 manat yolda oğurlanıb. Buna görə bu abliqatsiyaların talonu da həmçinin batildirlər. Bu abliqatsiya və talonları hər bir müəssisə yaxud xüsusi adamlar almış olsalar, İstiqraz Cəmiyyəti məsuliyyəti öz öhdəsinə almayır.

*T-51*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Hökumət niyə istefa halındadır?***

"M. Ə.": bu imza Məhəmməd Əmin Rəsulzadəyə məxsusdur.

***Təəssürat***

"əz bərayi xali nəbudəni mürasilə": "deputatlığın boş qalmaması xətrinə" (farsca)

"Üzeyir": bu imza Üzeyir Hacıbəyliyə məxsusdur.

***Sülh ətrafında***

"Tan": 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilən "Le Temps" qəzeti nəzərdə tutulur.

***Teleqraf xəbərləri***

"Sabiq qubernator Kamal bəy və jandarma rəisi Tofiq bəy": Türkiyənin Yozqat vilayətinin Boğazlıyan qəzasının rəisi Mehmed Kamal bəy və Yozqat vilayətinin jandarma komandiri Binbaşı Tofiq bəy nəzərdə tutulur.

Bavariya Şura Cümhuriyyəti (Bavariya Sovet Respublikası): Münxendə Fəhlə və əsgər deputatları soveti tərəfindən elan edilən dövlət. 1919-cu ildə qısa müddət mövcud olmuşdur.

"…füqəra sinfi təslih edilsin.": qəzetdə "təslih" yerinə "təslim" getmişdir.

"Dutov kazakları": Orenburq kazaklarının atamanı general-leytenant Aleksandr İliç Dutovun rəhbərliyi altındakı kazak qoşunları nəzərdə tutulur.

"Hindenburq": qəzetdə "Gindenburq" kimi getmişdir.

***Bakı xəbərləri***

"Persidski": Bakıda indiki Murtuza Muxtarov küçəsi.

"Serkovnı": Bakıda indiki Vidadi küçəsi.

"Krasnovodski": Bakıda indiki Səməd Vurğun küçəsi.

"7-ci Çornıqorod": Bakıda indiki Ayaz İsmayılov küçəsi.

"…böyük ehtiyac hiss edildiyindən…": "ehtiyac" yerinə qəzetdə "ehtiyat" getmişdir.

***Bakı quberniyasında***

"uryadnik": qəzalarda xidmət edən kiçik rütbəli polis.

***Azərbaycanda***

"Borsunludan": Goranboy rayonunun Borsunlu kəndi nəzərdə tutulur.

***Gürcüstanda***

"Cənub-Qərb Cümhuriyyəti": 1918-1919-cu illərdə cənub-qərbi Qafqazda təsis edilmiş Cənub-Qərbi Qafqaz Respublikası (Qars Demokratik Respublikası) nəzərdə tutulur.

# REGİONLAR

## Naxçıvan şəhərinin su təminatı yaxşılaşır

### Muxtar respublikada Sahibkarlığın İnkişafı Fondu tərəfindən 4 ay ərzində 13 layihə maliyyələşdirilib

**Naxçıvan Su-Kanalizasiya İdarəsi tərəfindən Naxçıvan şəhərinin müxtəlif istiqamətlərində quraşdırılmış siyirtmələrin təmiri və ya yenisi ilə əvəz edilməsi prosesi həyata keçirilir.**

İdarədən bildirilib ki, mayın 16-dan etibarən şəhərin 10-cu küçəsi, Qaraxanbəyli kəndi və Əliabad-Naxçıvan dairəvi avtomobil yolunda müvafiq işlər görülüb. Təmir-yenilənmə tədbirləri çərçivəsində Əliabad qəsəbəsində də iki siyirtmə təmir olunub. Əhalinin su təminatında fasilələrin yaranmaması üçün təmir işləri gecə saatlarında aparılır.

AZƏRTAC-ın muxtar respublikaya aid yaydığı başqa bir xəbərdə bildirilir ki, özəl sektora dövlət dəstəyi çərçivəsində Naxçıvan MR-də Sahibkarlığın İnkişafı Fondu cari ilin ilk 4 ayı ərzində 13 layihəni maliyyələşdirib.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətinin məlumatına görə, həmin layihələrin maliyyələşdirilməsinə 284 min manat vəsait sərf olunub. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 2,7 dəfə çoxdur. Cari ilin 4 ayı ərzində qaytarılan kreditlərin həcmi 2,3 milyon manat olub. Bu, 2023-cü ilin eyni dövrü ilə müqayisədə 42,8 faiz çoxdur.

Bu ilin 4 ayı ərzində 401,1 min manat vaxtı keçmiş kredit vəsaitinin ödənilməsi təmin edilib ki, bu da 2023-cü ilin eyni dövrü ilə müqayisədə 2,9 dəfə artıqdır.

## GDU rəhbərliyi ilə tələbələrin görüşü keçirilmişdir



**Gəncə Dövlət Universitetində (GDU) 2023-2024-cü tədris ilinin yaz semestr imtahanlarına hazırlıqla bağlı tələbələrlə görüş keçirilmişdir.**

Görüşdə universitetin rektoru professor Yusif Yusibov çıxış edərək diqqətə çatdırmışdır ki, imtahanqabağı ənənə halını alan görüşün keçirilməsində əsas məqsəd tələbələrin imtahanlara hazırlıq səviyyəsini öyrənmək, imtahanlarla bağlı çətinlik və problemlərini dinləmək, imtahanlara hazırlıq prosesində qarşıya çıxa biləcək çətinliklərin operativ həllinə nail olmaqdır.

Sonra universitetin tədris məsələləri üzrə prorektoru Şahin Xurşudov çıxış edərək imtahanların keçirilmə qaydaları barədə ətraflı məlumat vermişdir. Prorektor bildirmişdir ki, universitetdə imtahan sessiyasının mövcud əsasnaməyə uyğun keçirilməsi üçün lazımi şərait və imtahanların gedişinə operativ nəzarəti, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı təmin etmək üçün imtahan qərargahı və apellyasiya komissiyası yaradılmışdır. O da diqqətə çatdırılmşdır ki, imtahanlar yazılı test üsulu ilə, pilot layihə olaraq biologiya müəllimliyi ixtisasında şifahi, yaradıcılıq tələb edən ixtisaslarda isə qabiliyyət imtahanı formasında keçiriləcək. Sessiya zamanı üzürlü səbəbdən imtahanda iştirak etməyən və akademik borcu yaranmış tələbələrə təkrar imtahan vermək üçün şəraitin yaradılması nəzərdə tutulmuşdur.

Görüşdə rektor tələbələrin imtahanlarla bağlı təkliflərini dinləmiş və tələbələrin müraciəti əsasında bir sıra güzəştlərin tətbiq olunacağını qeyd etmişdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Şəki Xan sarayı bərpa olunacaq

**Şəki Xan sarayının bərpa edilməsi ilə bağlı işlərə başlanılıb. Bunu Dövlət Turizm Agentliyi yanında Qoruqları İdarəetmə Mərkəzinin İdarə Heyətinin sədri Murad Ağabəyli bildirib.**

2700 ildən çox yaşı olan Şəki Azərbaycanın qədim şəhərlərindən olmaqla yanaşı, tarixi abidələri, sənətkarlığı, mətbəxi ilə də dünyada seçilir. Bu şəhərin hər küçəsində, hər məhəlləsində bir tarix yatır desək, yanılmarıq. Qeyd edək ki, təkcə "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğunun ərazisində 83 memarlıq abidəsi mühafizə olunur. Onlardan biri turistlərin də böyük diqqət göstərdiyi Şəki Xan sarayıdır.

"Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğunun ərazisində bir neçə tarixi abidə var. Lakin onların sırasında Xan sarayı bütün xüsusiyyət və parametrlərinə görə fərqlənir. Bu abidə dünya memarlıq abidəsi statusuna malikdir. O cümlədən dünya turizm marşrut və kataloqlarında ön sırada dayanır. Qeyd edək ki, bu tarixi abidə 2000-ci illərdə restavrasiya olunub və ötən dövrdə heç bir iş görülməyib. Ona görə də mütəxəssislər bildirirlər ki, tarixi abidənin yenidən bərpa və restavrasiyaya ehtiyacı var.

Dövlət Turizm Agentliyi yanında Qoruqları İdarəetmə Mərkəzinin İdarə Heyətinin sədri Murad Ağabəyli bildirib ki, 25 ilə yaxın müddətdə bu tarixi abidədə heç bir bərpa işi aparılmadığından istər-istəməz aşınma və dəyişikliklər baş verir: "Biz Xan sarayının bərpa edilməsi ilə bağlı ümumi işlərə başlamışıq. Bundan önceki bərpa işləri zamanı istifadə olunan sənədlər, yerli və xarici ekspertlər prosesə cəlb olunub. Ekspertlərin iştirakı ilə biz növbəti mərhələdə Xan sarayını hansı formada bərpa edəcəyimiz barədə yekun fikrə gəlmək istəyirik".

Murad Ağabəyli onu da əlavə edir ki, ötən ilə nisbətən bu il turistlərin "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğuna, xüsusən Xan sarayına səfərində 44 faiz artım müşahidə olunur. Müsahibimiz onu da diqqətə çatdırdı ki, yaxın vaxtlarda qoruq ərazisində bərpa olunan bir neçə tarixi abidədə işlər tamamlanacaq və onlar da hazır olacaq.

## İndi Cəlilabad təkcə taxıl və üzüm diyarı deyil

### Rayon həm də nübar məhsulları ilə tanınır





**1969-cu ilin iyul ayında Azərbaycana rəhbər seçilən Heydər Əliyev bütün rayonlar kimi, Cəlilabadın da sosial-iqtisadi inkişafını diqqət mərkəzində saxlayırdı. Rayon qısa müddət ərzində taxılçılıq, üzümçülük və digər kənd təsərrüfatı məhsulları istehsalında möhtəşəm nəticələr qazandı. Paralel olaraq rayonda emal, xüsusən üzüm emalı sənayesi inkişaf etməyə başladı.**

1981-ci il sentyabrın 11-də Heydər Əliyevin Cəlilabada səfəri zamanı rayon sakinləri ilə görüşündə danışdığı bir əhvalat qədim diyarın dünənini və bu gününü güzgü kimi əks etdirir: "Vaxtilə buralar səhranı xatırladırdı. İndi isə rayona gəlib ucu-bucağı görünməyən üzüm bağlarını görəndə adam heyrətə gəlir. Kəhraba salxımlı üzüm plantasiyaları göz oxşayır. Cəlilabad ölkədə ən böyük üzümçülük rayonlarından biridir. Sizin yetişdirdiyiniz "Kişmişi" üzümü bütün ölkədə şöhrət qazanmışdır".

Sözünə davam edən Heydər Əliyev sonra demişdir: "Bilirsiniz, mən Cəlilabada gələndə Ermənistan KP MK-nın birinci katibi Karen Dəmirçyan mənə zəng edib dedi: "Heydər Əliyeviç, mən Azərbaycanı sosializm yarışına dəvət edirəm. Ermənistan bu yarışda 250 min ton üzüm yığıb təhvil verməyi öhdəsinə götürüb. Əgər Azərbaycan bu qədər üzüm yığıb təhvil verə bilərsə, bizimlə yarışa bilərsə, gəlin yarışaq". Siz bilirsiniz, mən ona nə cavab verdim? Mən gülə-gülə ona dedim: "Karen, sosializm yarışına girmək çox yaxşı ideyadır, mən bunu alqışlayıram. Amma sən Azərbaycanla yarışa girməzdən əvvəl, bizim Cəlilabad rayonu var, həmin rayonla yarışa gir. Sən deyirsən ki, Ermənistan 250 min ton üzüm yığmağı öhdəlik götürüb, amma təkcə Cəlilabad rayonu bu il 300 min ton üzüm yığıb dövlətə təhvil verəcək". Bu sözlərdən sonra Karen Dəmirçyan heç nə deməyib dəstəyi asdı. Axı nə deyə bilərdi?! Ona görə mən sizin bu şücaətinizlə fəxr edirəm. Cəlilabad zəhmətkeşlərinin əməyi ilə qürur duyuram".

Kənd təsərrüfatı məhsullarının - taxılın, üzümün, digər bitkilərin istehsalı artdıqca rayonun, habelə cəlilabadlıların gəliri durmadan yüksəldi. Həmin gəlirlə rayonun mərkəzində, qəsəbə və kəndlərdə tikinti-quruculuq işləri genişləndi. Cəlilabad şəhərinin siması tanınmaz dərəcədə dəyişdi. Yeni ictimai binalar, yaşayış evləri, sosial əhəmiyyətli obyektlər inşa olundu, parklar, bağlar, xiyabanlar salındı, yollara, küçələrə asfalt döşəndi. Belə bir yüksəlişin, inkişafın nəticəsində yüzlərlə qabaqcıl əmək adamı o dövrün böyük mükafatlarına, fəxri adlarına layiq görüldü. Cəlilabadın hüsnünə şairlər şeirlər yazdılar, bəstəkarlar nəğmələr bəstələdilər.

İndi zaman başqadır. Nə Azərbaycan həmin Azərbaycan, nə də Cəlilabad həmin Cəlilabaddır. Ölkəmiz müstəqil, dövlətimiz güclü, xalqımız qalibdir. Elə Cəlilabad da tam dəyişib. Kəndli torpağının sahibidir, nə əkib-becərəcəyini özü seçir. Şəhərli isə hər cəhətdən rahatlığa çatıb. İş yeri, qaz, işıq, su problemi yoxdur. Çünki 2003-cü ilin oktyabrında prezident seçilən İlham Əliyev varislik missiyasını üzərinə götürərək Heydər Əliyev kursunu ilk gündən uğurla davam etdirir. Qəbul olunan regional inkişaf dövlət proqramlarının icrası sayəsində Cəlilabadda yeni istehsal müəssisələri, təhsil, səhiyyə, mədəniyyət ocaqları inşa edilib, yollar çəkilib, sosial məsələlərin həlli ilə bağlı müxtəlif layihələr həyata keçirilib, sahibkarlığa geniş meydan verilib.

Cəlilabad torpağı münbitdir, məhsuldardır. 90-cı illərdən sonra bir neçə fermer kartof yetişdirmək fikrinə düşdü. Bu məqsədlə Rusiya Federasiyasından toxumluq kartof gətirdilər. Maşlıq kəndi zonasında hələ birinci il yüksək məhsul əldə olundu və yetişdirilən kartof münasib qiymətə satıldığından yaxşı gəlir verdi. Növbəti illərdə daha çox mülkiyyətçi kartofçuluqla məşğul olmağa başladı. Nəticədə kartofçuluq rayonda taxılçılıqla bərabər mühüm sahələrdən birinə çevrildi. Yetişdirilən kartofun mühüm bir hissəsi nübar məhsul kimi qonşu Rusiyanın müxtəlif şəhərlərinə göndərildi. Nübar məhsul istehsalçıya yaxşı qazanc verdiyindən kartof istehsalçıları daha tez məhsul yetişdirmək üçün yeni texnologiyalar tətbiq etdilər. Sellofan örtüklü karkaslar altında kartof yetişdirmək üsulu illər keçdikcə daha da genişləndirildi. Bu yolla aprel ayının əvvəlində yığılan məhsul satışa çıxarıldı.

Çiyələkçilik buranın kənd təsərrüfatı üçün nisbətən yeni sahədir. Çiyələk müstəqilliyimiz dövründə, necə deyərlər, kəndli öz pay torpağının ağası olduğu vaxtdan əkilməyə başlanıb. Ondan əvvəl tək-tək adamlar həyətyanı sahələrində şəxsi istifadə üçün çiyələk yetişdirirdilər. Rayonun təcrübəli fermerləri yalnız torpaq islahatından sonra bu sahəyə diqqət yetirmişlər. Əvvəl-əvvəl qardaş Türkiyədən çiyələk şitilləri gətirib əkmişlər. Bu sahədə türkiyəli mütəxəssislərin məsləhət və tövsiyələri onların köməyinə gəlib. Bəzi sahibkarlar isə həmin mütəxəssisləri Cəlilabada dəvət edib. Münbit torpaq, münasib iqlim şəraiti çiyələk yetişdirmək üçün buranın yaxşı məkan olduğunu qısa vaxt ərzində təsdiqləyib. Fermerlər çiyələkçiliyin gəlirli olduğunu görüb, ilbəil onun sahəsini artırıblar. ABŞ, İtaliya, İspaniya kimi ölkələrdən rayona yeni məhsuldar çiyələk sortları gətirilib. İmkanlı sahibkarlar məhsul saxlamaq üçün soyuducu kameralar, saxlama anbarları tikiblər.

Üzümçülük sahəsində isə rayonun keçmiş şöhrətini qaytarmaq üçün ardıcıl tədbirlər görülüb. Hazırda rayon üzrə 1410 hektar üzüm bağı var ki, onun da 880 hektarında süfrə üzümü yetişdirilir. Satış bazarı çoxaldıqca fermerlər bu sahəyə də diqqəti artırırlar. Yetişdirilən məhsul isə daxili bazarla yanaşı, qonşu ölkələrə də ixrac edilir.

2000-ci illərin əvvəllərində Fransadan rayona gətirilən "Prima", "Kaberne", "Savnion", "Kardinal" və digər üzüm sortları Cəlilabad şəraitində çox yaxşı nəticələr verir. Belə ki, münbit torpaq, bol günəş işığı, hərarət, bir də işgüzar adamların səyi nəticəsində salınan yeni bağlar nəzərdə tutulduğundan xeyli öncə, yəni tənəklər əkiləndən 2 il sonra bara düşmüşdür. Xarici sortlarla yanaşı, bu gün rayonda "Mahmudu", "Ağ kişmişi", "Qara kişmişi" və başqa yerli süfrə üzümü sortları da yetişdirilir.

İndi Cəlilabadda çöl işlərinin qızğın vaxtıdır. Bir tərəfdə kartof, digər tərəfdə çiyələk yığılır. Hələlik hər iki məhsulun sellofan örtüklər altında yetişdirilənləri toplanılır. Rayon ərazisində becərilən 580 hektar çiyələyin 380 hektarı bu üsulla yetişdirilir. Bir neçə gün əvvələdək sellofan örtük altında yetişdirilən 680 hektar sahədən 11 min 500 tondan çox nübar kartof da tədarük edilib. Həmin məhsulun 10 min tonu ixrac olunub.

Rayonun ikinci şəhəri olan Göytəpədə məhsul yığımının gedişi ilə maraqlandıq. Şəhər bələdiyyəsinin sədri İlqar Həsənovun dediklərindən məlum oldu ki, 3 min 500 təsərrüfatdan ibarət olan şəhərin əhalisi 15,5 min nəfərdir. Onların öhdəsində 1055 hektarlıq pay torpaq sahələri mövcuddur. Həmin ərazilərdə taxıl, kartof, çiyələk əkib-becərirlər. 700 fermer bu il 250 hektarda taxıl, 500 hektarda çiyələk, 100 hektarda kartof, 50 hektarda üzüm, 50 hektarda vələmir, 50 hektarda noxud, 30 hektarda qarğıdalı və 25 hektarda sarımsaq yetişdirirlər.

Şəhər ərazisində ən işgüzar fermerlərdən biri Mirağa Həsənovdur. O, 5 hektardan çox sahədə müasir istixana təsərrüfatı yaradıb. Şri-Lankadan gətirdiyi kokos qabığı çiyələyi daha dadlı və keyfiyyətli edir. Təsərrüfatda torpaq əvəzinə yalnız kokos qabığından istifadə edilir. Yeni texnologiyanın tətbiqi nəticəsində noyabrdan növbəti ilin aprelinədək "Mrano" sortundan olan çiyələk yığılaraq əsasən Rusiya bazarlarına göndərilir. Amma Rusiya ilə Ukrayna arasında müharibə getdiyindən əhalinin alıcılıq qabiliyyəti aşağı düşmüşdür. Buna görə satış qiyməti fermerləri, o cümlədən M.Həsənovu qane etmir.

Taxılçılar da bu il yüksək məhsul gözləyirlər. Onlar keçən ilin payızında 66 min 230 hektara toxum əkmişlər ki, onun da 56 min 580 hektarı buğda, 9 min 650 hektarı arpadır. Yanvar ayında bir neçə dəfə qarın, fevral-mart aylarında yağışların yağması bitkilərin inkişafına müsbət təsir göstərmişdir. Bununla yanaşı, fermerlər sahələrə yemləmə gübrəsini vaxtında vermiş, ziyanvericilərə, habelə alaq otlarına qarşı mübarizə tədbirlərinə keyfiyyətlə əməl etmişlər. May ayının 8 və 9-da yağan yağışlar isə zəmilərin muradını vermişdir. Dəmyə şəraitində becərilən taxıl sahələri doyunca dən suyu içmişdir. Bunların nəticəsi olaraq builki biçində keçənildəkindən xeyli artıq məhsul əldə olunacağı gözlənilir.

Kənd təsərrüfatı ilə yanaşı, rayonda tikinti-quruculuq, abadlıq işləri də öz ahəngi ilə davam edir. Son iki ildə Cəlilabad şəhərində 56, Göytəpə şəhərində 18 küçəyə asfalt döşənmiş, piyadalar üçün səkilər salınmışdır. Rayonun qəsəbə və kəndlərinə gedən yolların yenidən qurulması əhali tərəfindən rəğbətlə qarşılanır. Sakinlərin hər bir təklif və rəyi rayon rəhbərliyi tərəfindən nəzərə alınır, imkan daxilində həll edilir.

Bununla belə, rayonda həllini gözləyən bir sıra problemlər də mövcuddur. Məsələn, nə qədər qəribə də olsa, 63 kənd hələ qazlaşdırılmayıb, 88 kəndin elektrik təsərrüfatının yenilənməsinə ehtiyac var, Cəlilabad şəhərində ümumi uzunluğu 90, Göytəpə şəhərində isə 47 kilometr olan küçələrə asfalt döşənməyib, 30 kəndin ümumi uzunluğu 171 kilometr olan yolları da asfalt gözləyir, 85 kənd isə içməli sudan korluq çəkir.

Əmin olmaq istərdik ki, əlaqədar mərkəzi təşkilatlar ölkənin böyük kənd təsərrüfatı rayonu olan Cəlilabaddakı bu problemlərin həllinə kömək göstərəcəklər. Cəlilabadlılar çox zəhmətkeşdirlər. Ən azından bu səbəbə onları qazsız, susuz, yolsuz qoymaq insafdan deyil.

.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Şabranın 3 kəndini birləşdirən yol təmir edilir

**Prezidentin sərəncamına uyğun olaraq, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) Şabran rayonunda 4 min əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 11-ci km-dən ayrılan Ağalıq-Daşlıyataq-Günəşli avtomobil yolunun əsaslı təmirini davam etdirir.**

Uzunluğu 11,5 kilometr olan avtomobil yolu uzun müddət təmir olunmadan istifadə edildiyindən və təbii faktorların təsirindən yararsız vəziyyətdə idi. Bu səbəbdən əsaslı şəkildə yenidən qurulmasına və bərpasına ehtiyac yaranan yollar 4-cü texniki dərəcəyə uyğun təkmilləşdirilir. Yolların eni 10 metrə qədər genişləndirilir.

AAYDA tərəfindən "İnşaat Norma və Qaydaları"nın tələblərinə əsasən, layihə üzrə torpaq işləri, qazma, yolun normativ eninin alınması üçün genişləndirmə və yol əsasının tikintisi işləri görülüb. Texnoloji ardıcıllığa uyğun olaraq, hazırda yola yeni asfalt-beton örtüyünün döşənməsi işləri yerinə yetirilir.

Görülən işlərə paralel olaraq, yolboyu suların ötürülməsi məqsədilə zəruri yerlərdə suötürücü boruların tikintisi işləri də icra olunub.

Layihə üzrə "Xan arxı" kanalı üzərində körpünün cari təmiri də nəzərdə tutulub. Layihənin sonuncu mərhələsində hərəkətin normal təşkili üçün yol nişanlarının, km göstəricilərinin quraşdırılması, yolcizgi və yolgöstərici xətlərin çəkilməsi işləri aparılacaq.

Bütün işlər tərtib olunmuş qrafikə uyğun şəkildə icra edilir. İşlərin vaxtında yekunlaşdırılması üçün əraziyə lazımi sayda canlı qüvvə və texnika cəlb olunub.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*






# Sutəmizləyən robotlar

**Çexiyanın Brno Texniki Universitetinin mütəxəssisləri suyun çirklənməsinə səbəb olan mikroplastik hissəciklərlə mübarizə aparan kiçik ölçülü robotlar hazırlayıblar.**

Mikroplastik hissəciklər dedikdə, diametri 5 mm təşkil edən plastik hissəciklər nəzərdə tutulur. Onlar sularda olan tullantıların daha kiçik hissələrə parçalanmaları nəticəsində əmələ gəlirlər. Bu kateqoriyaya sintetik geyim liflərinin qalıqları, avtomobil təkərlərinin fraqmentləri və plastik materiallar aiddir.



Universitetin mütəxəssisləri tərəfindən hazırlanmış mikroskopik ölçülü sferik robotların eni cəmi 2,8 mikrometr təşkil edir. Onların gövdələrinin hazırlanmasında "Dynabead" adlı maqnit muncuqdan istifadə edilir. Hər bir robotun gövdəsinin səthinə isə müsbət cərəyanlı polimer iplər bərkidilir. Suya daxil olandan və fırlanan maqnit sahəsinin təsirindən sonra bu robotlar bir-biri ilə birləşərək yastı strukturlar yaradırlar. Həmin strukturlar isə maqnit dalğaları istiqamətində hərəkət edirlər.

Robotların bu cür hərəkətləri nəticəsində mikroplastik hissəciklər və bakteriyalar onların gövdələrinin səthlərində olan müsbət cərəyanlı polimer iplərə cəzb olunurlar. 30 dəqiqəlik prosesdən sonra mütəxəssislər mikroplastik hissəciklər ilə bakteriyaları robotlardan ayırıb, bütün mikrobları məhv etmək üçün onları ultrabənövşəyi şüalanma vasitəsilə emal edirlər.

Qeyd etmək lazımdır ki, robotları təkrar istifadə etmək mümkündür.

# Ultradəqiq mikrocərrah robot

**Kiçik anatomik strukturlara cərrahi müdaxilələri əhatə edən mikrocərrahiyyə yüksək bacarıq tələb etdiyi üçün onları yalnız məhdud sayda mütəxəssislər həyata keçirir.**



"Sony" bu əməliyyatı hər kəs üçün əlçatan hala gətirən cərrahi yardım robotunu təqdim edib. O, cərrah tərəfindən idarə olunan masaüstü konsoldan və xəstə üzərində prosedurları yerinə yetirən robotdan ibarətdir. Cərrahın konsoldakı əllərinin hərəkətləri yüksək dəqiqliklə robot tərəfindən təkrarlanaraq həyata keçirilir.

Mikrocərrahi əməliyyatlar yüksək dərəcədə dəqiqlik və sabit əllər tələb edir. Bu sahənin mütəxəssisləri adətən mikroskopdan istifadə edərək belə prosesləri həyata keçirirlər. Yeni robot isə hətta diametri 1 mm-dən az olan son dərəcə kiçik qan damarlarına və sinirlərə belə fokuslana bilir.

"Sony"nin yeni robotları tam avtonom süni intellektlə dəstəklənmirlər. Onlar cərrahların əl hərəkətlərini azaltmağına kömək edərək görmələrini böyütməyə imkan verən teleoperasiya alətləridir. Bu prototip robot 4K Micro OLED displeyləri və stereoskopik 4K 3D kamera sistemi ilə təchiz edilib. Sistem cərraha real vaxt rejimində görüntülər təqdim edir.

Aparılan uğurlu sınaqlardan sonra həkimlər robotun hərəkətlərinin onlarınkı ilə eyni dərəcədə ahəngdar olduğunu vurğulayıblar.

# Kameralı qulaqcıq

**"Meta" şirkətinin hədəfi süni zəka texnologiyasının müxtəlif məhsullara inteqrasiyasıdır. Şirkət hazırda kameralara sahib süni zəka əsaslı qulaqcıqlar üzərində çalışır.**



"Camerabuds" kod adına malik olan cihaz ətrafdakı obyektlər barədə istifadəçiyə məlumat verəcək. Bununla yanaşı, qulaqcıqlar real zaman ərzində tərcümə imkanına da sahib olacaq. Şirkət "Camerabuds"ın yeni texnologiyalı kameraları üçün "Ear Micro" ilə əməkdaşlıq edəcək. Hazırda yeni qulaqcıqlarda qızma və istifadəçi saçının kameranın baxış bucağına düşməsi problemi var. Buna görə də "Meta"nın bu məhsulu nə zaman təqdim edəcəyi hələlik bilinmir.

# Elektrikli yeni krossover

**"BYD" şirkəti "BYD Sea Lion 07" adlı elektrikli krossoverini təqdim edib. Yeni elektromobilin dizaynı şirkətin "BYD Ocean-X" və "BYD Seal" konseptlərini xatırladır.**

"BYD Sea Lion 07"nin uzunluğu 4830 mm, eni 1925 mm, hündürlüyü isə 1620 mm təşkil edir. Elektromobilin arxa yük daşıma hissəsinin həcmi 500 litr, ön yük daşıma hissəsinin həcmi isə 58 litrdir. O, "e-Platform 3.0 Evo" adlı yeni orijinal platforma əsasında hazırlanıb.

Yeni elektromobil 3 versiyada təqdim edilib. Birinci versiya arxa çəkim təkərlərinə və 231 at gücündə bir ədəd elektrikli mühərrikə, ikinci versiya arxa çəkim təkərlərinə və 313 at gücündə bir ədəd elektrikli mühərrikə, üçüncü versiya isə həm arxa həm də ön çəkim təkərlərinə və ümumi 530 at gücündə iki ədəd elektrikli mühərrikə sahibdir.

Bir elektrikli mühərrikə sahib modellərdən biri 71,8 kilovat saat həcmli batareya, digəri isə 80.64 kilovat saat həcmli batareya ilə təchiz olunub. 71,8 kilovat saat həcmli batareyaya sahib model ümumilikdə 550 km yol qət edə bilir və o, saatda 100 km sürəti 7,3 saniyəyə yığır. 80,64 kilovat saat həcmli batareyaya sahib model isə ümumilikdə 610 km yol qət edir və saatda 100 km sürəti 6,7 saniyəyə yığır. İki ədəd elektrikli mühərrikə sahib modelə gəldikdə isə o, 550 km yol qət edə bilir və saatda 100 km sürəti 4,2 saniyəyə yığır.

"BYD Sea Lion 07"nin hər üç versiyası sürətli şarj texnologiyasını dəstəkləyir. Bunun sayəsində elektromobil 80 faizə qədər enerjini 25 dəqiqəyə, 100 faizə qədər enerjini isə 18 dəqiqəyə yığır. Nəqliyyat vasitəsinin salon dizaynı minimalistik tərzdə hazırlanıb. Sükanın arxasında rəqəmsal məlumat paneli, ön hissədə mərkəzdə isə 15.6 düym ölçülü sensorlu ekran yerləşir. Elektromobilin audio sistemi qismində 12 ədəd səsgücləndirici çıxış edir.

# "Apple"dan ilk qatlana bilən cihaz

**"Apple" şirkəti qarşıdakı illərdə qatlana bilən cihazlar istehsal edəcək. "iPhone" və "MacBook" displeyləri üçün "Samsung"a müraciət edilib.**

Şirkətin məhz "Samsung"a müraciət etməyinə səbəb isə onun qatlanan telefon bazarında lider mövqeyə sahib olmasıdır.




Qatlana bilən "iPhone"un dizaynına gəldikdə isə bəzi şayiələrə görə, onun dizaynı "Samsung Galaxy Z Flip"ə bənzəyəcək. "Apple"ın ilk qatlana bilən smartfonunun təfərrüatları naməlum olaraq qalsa da, patentdə dizaynın planşetlər kimi digər qatlana bilən olacağı da təxmin edilir. Yüksək ehtimalla şirkətin bu yeni cihazı 20,3 düymlük ekrana malik planşet-noutbuk hibridi olacaq.

# Yeni dişlərin yetişdirilməsi üçün dərman hazırlanır

Yapon alimləri bir neçə ildir yeni dişlərin yetişdirilməsi üçün nəzərdə tutulmuş dərman preparatı üzərində çalışırlar. Hazırlanmış dərman artıq heyvanlar üzərində uğurla test edilib. Mütəxəssislər sözügedən preparatın insanlar üzərində testlərinə başlamağa hazırlaşırlar. Məlumatda qeyd edilib ki, yeni dişlərin yetişdirilməsinə hədəflənmiş dərman preparatının testlərinə sentyabrda start veriləcək.

Preparat "USAG-1" adlı genin bloklanmasına istiqamətlənib. Bu gen müəyyən zülallar ilə qarşılıqlı əlaqədə olur və bu da yeni dişlərin yetişməsi prosesini dayandırır. Hazırlanmış dərman preparatı isə sözügedən geni bloklamaqla yeni dişlərin yetişdirilməsini stimullaşdırır. Məlumata əsasən, dərman preparatı müəyyən müddətdən sonra dişlərin böyüməsi ilə yanaşı, karies və ya hər hansısa zədələnmə səbəbilə dişini itirmiş şəxsdə yeni dişin yetişməsinə imkan verəcək.

Damar vasitəsilə orqanizmə yeridilən preparatın kliniki testlərində 30 yaşdan 64 yaşa kimi 30 nəfər kişi pasiyent iştirak edəcək. Mütəxəssislər dərmanın təhlükəsiz olduğunu təsdiq edəndən sonra o, doğuşdan diş çatışmazlığı problemindən əziyyət çəkənlərə belə təyin edilə biləcək. Preparatın 2030-cu ildə satışa çıxarılması planlaşdırılır.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Azərbaycanın güləş üzrə daha bir yığması Avropa çempionu olub

**Yunan-Roma güləşi üzrə Azərbaycanın U-15 millisi Yunanıstanın Lutraki şəhərində keçirilən Avropa çempionatının qalibi olub. Azərbaycan Güləş Federasiyasının Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, böyük məşqçi Əbilfət Məmmədov, məşqçilər İlham Vezirovla Sənan Əlimirzəyevin rəhbərliyi altında çıxış edən yığma turnirdə 10 (1 qızıl, 4 gümüş, 5 bürünc) medal qazanıb.**



Qurban Məcnunov (41 kiloqram) bütün rəqiblərinə qalib gələrək Avropa çempionatının qızıl medalına yiyələnib. Xudayar Kərimov (38 kiloqram), Abdulrəhman Hüseynli (41 kiloqram), Amin Əsgərli (48 kiloqram) və Məhəmməd Orucov (85 kiloqram) ikinci, Ümüd Babayev (38 kiloqram), Hüseyn Vəlizadə (57 kiloqram), Əli Məmmədov (68 kiloqram), Zöhrab Səfərov (75 kiloqram) və Rauf Mütəllimov (85 kiloqram) isə üçüncü yeri tutublar.

Yekunda 158 xal toplayan Azərbaycan seçməsi komanda hesabında Avropa çempionu olub. Yığmamız 2-ci yeri tutan Ukraynanı 65 xal qabaqlayıb. Ermənistan (92) isə üçüncü olub. Milli komanda 2 il əvvəl Xorvatiyada keçirilən analoji yarışda da çempion olub.

Bununla da U-15 Avropa çempionatları tarixində ilk dəfə bir yarışda Azərbaycanın 2 kollektivi (sərbəst və yunan-Roma) çempion tituluna sahib çıxıb.

# Milli Xalça Muzeyində Beynəlxalq Muzeylər Günü ilə bağlı tədbirlər keçirilib

**Mayın 18-də Azərbaycan Milli Xalça Muzeyində Beynəlxalq Muzeylər Günü münasibətilə tədbirlər keçirilib.**

AZƏRTAC xəbər verir ki, muzeydə dahi şair Məhəmməd Füzulinin 530 illiyinə həsr olunmuş "Sənətdə bənzərsiz eşq" sərgisi açılıb. Sərgidə Xalq rəssamlarından Lətif Kərimovun "Füzuli" (1973), "Şəbi-hicran" (1976), Eldar Mikayılzadənin "Şəbi-hicran" (1983), "Leyli və Məcnun" (2013), Aydın Rəcəbovun "Füzuli dünyası", sənətşünaslıq üzrə elmlər namizədi Cəfər Mücirinin "Füzuli" (1975), rəssam Gülmurad Bəbirovun "Füzuli" (1987) xalçaları nümayiş etdirilib.

Ekspozisiyada Xalq rəssamı Kamil Əliyevə aid "Füzuli" (1958) xalçasının eskizi, Rafiq Qəmbərovun "Füzuli" dekorativ pannosu, həmçinin ilk dəfə olaraq görkəmli sənətkar Lətif Kərimovun Füzuliyə dair kitablara çəkdiyi bədii tərtibatlardan elementlər yer alır.

Həmçinin muzeyi ziyarət edən uşaqlar üçün əməkdaşların hazırladığı "Leyli və Məcnun" kölgə teatr tamaşasının premyerası nümayiş etdirilib.

Qeyd edək ki, Beynəlxalq Muzeylər Günü ilə əlaqədar insanların asudə vaxtının səmərəli təşkili, onların muzey müəssisələri vasitəsilə Azərbaycanın zəngin mədəni irsi ilə yaxından tanış olmaları məqsədilə Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən muzeylərdə "Açıq qapı" günü elan olunub.

# Güclü leysan və dolu Qaxın kəndlərində fəsadlar törədib, dəymiş ziyan hesablanır

**Bir neçə gündür davam edən qeyri-sabit hava şəraiti bu gecə də fəsadsız ötüşməyib. AZƏRTAC xəbər verir ki, şimal-qərb bölgəsinə daxil olan Balakən, Zaqatala və Qax rayonlarına leysan və dolu yağıb. Təbii fəlakət daha çox Qax rayonunda özünü büruzə verib.**





Rayon ərazisində gecədən başlayan leysan sonradan dolu ilə əvəzlənib. Belə ki, səhərin erkən saatlarından başlayaraq Qaxın Əlibəyli və Tasmalı kəndlərinə dolu yağıb. Sakinlərin sözlərinə görə, yarım saat davam edən dolu nəticəsində həyət-bacaya, xüsusən də bostan-tərəvəz və üzüm bağlarına ciddi zərər dəyib. Tasmalı, Lələpaşa, Turaclı, Ləkit, Marsan və Zəyəm kəndlərində sakinlərin həyətlərinə, fındıq bağlarına, qarğıdalı sahələrinə su dolub.

Rayon Fövqəladə Hallar Komissiyasının üzvü Abakar Əliyev bildirib ki, gecə saat 3 radələrindən başlayaraq səhər saat 5-ə kimi fasilələrlə yağan leysan və dolu əsasən rayonun Ləkit, Tasmalı, Əlibəyli və Lələpaşa kəndlərinin ərazisindəki təsərrüfatlara ziyan vurub. Tasmalı və Marsan kəndlərində qrunt sularının qalxması nəticəsində həyətlərə su dolub. Eyni zamanda 20 hektara yaxın fındıq bağları sel suları altında qalıb. Komissiya üzvü deyib ki, ümumiyyətlə, rayon ərazisində 70-80 hektar əkin sahəsinə, o cümlədən qarğıdalı, tütün və taxıl sahələrinə ziyan dəyib.

Komissiya üzvləri hazırda ərazilərdə dəymiş ziyanın hesablanması və aradan qaldırılması istiqamətində iş aparırlar.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4356
Sifariş 1066

Qiyməti 60 qəpik